

BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ



REDAKTORDAN

"DÖNMƏZLİK"DƏN BAŞLANAN DÖNMƏZLİK YOLU

Azərbaycan tarixində yeganə bir şəxsiyyət var ki, eyni müəllif tərəfindən onun haqqında bütün ədəbi janrlarda əsər yazılıb. Azərbaycan ədəbiyyatında yeganə bir müəllif var ki, eyni şəxs haqqında bütün ədəbi janrlarda əsər yazıb. Həmin şəxsiyyət Məhəmməd Əmin Rəsulzadə, həmin müəllif Teyyub Qurbandır.

Bəri başdan qeyd etməliyəm ki, poeziya, proza, dramaturgiya və bədii publisistika yanrlarında olan bu əsərlər ədibin yaradıcılığının müvafiq zirvələrini təşkil edirlər. Çünki mənbəyini təxminən 25 il əvvəldən alan bu yaradıcılıq çeşməsi ilk gündən necə böyük ilhamla çağlamağa başlamışsa, sonralar və günümüzədək də axarını eləcə davam etdirmişdir.

Dünya ədəbiyyatında böyük şəxsiyyətlər haqqında yazılmış əsərlər saysız-hesabsızdır. Bu şəxsiyyətlər, adətən, yaşadıqları dövrlərin zaman və məkan şərtlərinə sığmayaraq hüdüdları yarmağa meylli olduqlarına və bəzən buna inadkarlıq göstərdiklərinə görə özlərində böyük təbəddülatları və ziddiyyətləri ehtiva etmiş olurlar ki, bu da onlar haqqında yazılmış əsərlərin də taleyini həll edir. Heykəllər devriləndən sonra həmin ədəbiyyat da süqut edir. "Leniniana"da və yüzlərlə başqa misalda

olduğu kimi...

Teyyub Qurbanın ədəbi qəhrəman sarıdan da bəxti gətirib. XX əsrdə Azərbaycan xalqının yetirdiyi ən nadir simalardan biri, Azərbaycan Xalq Cümhuriyyətinin banisi və respublikanın işğalından sonra da həyatının sonunadək Azərbaycanın istiqlaliyyəti uğrunda dönməz mübariz olan M. Ə. Rəsulzadə sağlığında olduğu kimi, sonrakı onilliklərdə də pak, nurlu, əqidəli, vicdanlı, mütəfəkkir şəxsiyyət kimi tanınmış və tanınmaqdadır. Dini, fəlsəfi, bədii təfəkkürlə dövlətçilik təfəkkürünü özündə birləşdirən bu dahi insanın nitqləri, yazıları, o cümlədən "Azərbaycan şairi Nizami" kitabı yüksək düşüncə və amalın bariz təzahürləridir. Əsərlərindən yüzlərlə aforizm əxz etmək olar. "Diriliklərin ən qiymətlisi milli dirilikdir" kəlamı kimi...

Tale elə gətirib ki, Teyyub Qurbanın M. Ə. Rəsulzadəyə həsr olunmuş ilk bədii əsəri – "Dönməzlik" povesti ötən əsrin doxsanıncı illərinin ortalarında mənim baş redaktoru olduğum "Bakının səsi" qəzetində çap edilərkən, ilk oxucusu da mən olmuşam. Qəzetin hər yeni nömrəsini oxucuların necə səbrsizliklə gözlədiklərini və əsəri necə maraqla oxuduqlarını bir redaktor kimi yaxşı xatırlayıram. Müəllifin bir sıra publisistik yazıları, o cümlədən "Türkiyə qürbətdir, Rusiya vətən?" adlı dərin məzmunlu məqaləsi də sonralar yenə təsisçisi və baş redaktoru olduğum "Bakı post" qəzetində dərc edilmişdir.

Bu kitaba daxil edilməmiş "Dönməzlik" povesti qəzet nəşrindən sonra iki dəfə kitab halında çapdan çıxmış və ədəbi ictimaiyyət, geniş oxucu kütləsi onunla yaxçı tanışdır. Maraqlıdır ki, povestin 2011-ci ildə ikinci nəş-

rinin təşəbbüskarı və gerçəkləşdiräni Dalğa Gənclər Hərəkatı olmuşdur.

Oxuculara təqdim olunan kitaba M. Ə. Rəsulzadə haqqında yazılmış şeirlər, Hacı Zeynalabdin Tağıyevin qızı Saraya həsr olunmuş "Sara" poemasından Sara ilə M. Ə. Rəsulzadənin oğlu Azərin görüşünə aid hissə, "Bir kərə yüksələn bayraq" adlı dram əsəri və məqalələr daxil edilmişdir.

Kitabdakı şeirlər ilhamla, ehtirasla qələmə alınmış poetik nümunələrdir. "Himn", "Bayrağı yanında hanı bayraqdar?", " Dirilik gəmisi", "Bayraq abidəsi" və digər şeirləri mütaliə edəcək oxucuların buna əmin olacaqlarına inanıram.

"Bir kərə yüksələn bayraq" çoxplanlı, bədii-sənədli obrazlarla zəngin bir dram əsəridir. Hadisələr, əsas etibarilə, baş qəhrəman M. Ə. Rəsulzadə ətrafında baş versə də, dövrün geniş mənzərəsini əks etdirir. Baş qəhrəmandan əlavə, digər obrazlar da, bəziləri hətta qısa mükalimələri ilə, bitkin insan xarakterləri kimi yaradılmışdır.

Bu sətirləri yazarkən, iyirmi il əvvəlki hadisələri xatırlayıram. 1994-cü il dekabrın 18-də, Bakıda fövqəladə vəziyyətin elan olunduğu günlərdə Şəhriyar adına Bakı Mədəniyyət Mərkəzində Teyyub Qurbanın anadan olmasının 60 illiyi münasibətilə mərasim keçirilməli, sonra rejissor Sadıq İbrahimovun hazırladığı "Bir kərə yüksələn bayraq" tamaşasından bir hissə göstərilməli idi. Tədbirə az qalmış fövqəladə vəziyyət qərargahının nümayəndəsi gəlib, yubileyin keçirilməsini yasaq etdi, yalnız tamaşanın göstərilməsinə icazə verdi. Yubileyi də, heç olmasa, binadakı otaqların birində keçirməyə icazə almağa nail olduq. Aparıcısı mən olduğum həmin yübiley

tədbirinin necə məhəbbət və səmimiyyətlə keçdiyini bu gün də xatırlayıram. Sonra ağzınadək tamaşaçı ilə dolu olan böyük zalda "Bir kərə yüksələn bayraq"dan göstərilən hissənin necə maraqla izləndiyi və alqışlarla qarşılandığı da yaxşı yadımdadır. Heç şübhəsiz ki, əsər yenə də tamaşaya qoyulsa, böyük uğur qazanar.

Kitabın "Məqalələr" bölməsində verilmiş yazılar bir neçə mövzunu əhatə edir. Bölmə "Mütləq Bakiya qayidacağam" adlı məqalə ilə başlanır. Bu, müəllifin M. Ə. Rəsulzadə ilə əlaqədar 1990-cı ildə qələmə aldığı ilk yazısıdır. Bu məqalədə Teyyub Qurban ötən əsrin 37-ci ilində M. Ə. Rəsulzadənin ailəsinin sürgün olunduğu Qazaxıstanın Karaqanda vilayətində onun oğlu Azərlə görüşündən bəhs edir. M. Ə. Rəsulzadənin ailəsi haqqında ilk xəbər olan bu məqalə "Respublika" qəzetində dərc edildikdən sonra Azərbaycan cəmiyyətində böyük əkssəda doğurmuş, Azərbaycanla Karaqanda arasında bir körpü yaratmışdı. M. Ə. Rəsulzadəyə və ailəsinə böyük ehtiramın təzahürü olaraq Bakıdan, Gəncədən, Şəkidən və digər bolgələrdən Azərə məktublar, bağlamalar göndərilməyə başlanmışdı... "Keşməkeşli ömrün unudulmaz anları" məqaləsində də ailənin məruz qaldığı məşəqqətlərdən söhbət açılır.

"Onun həyatı – xalqın həyatıdır", "Türkiyə qürbətdir, Rusiya vətən?", "Böyük mürşidimiz" və "Qəlblərdə yaşayan şəxsiyyət" adlı yazılarda M. Ə. Rəsulzadənin çoxcəhətli siyasi və əməli fəaliyyətindən, "Məhəmməd Əmin Rəsulzadə və Azərbaycanda ədəbi proses" məqaləsində isə ədəbiyyatşünas alim kimi müvafiq əsərlərindən bəhs edilir.

Mən əminəm ki, Azərbaycan xalqının böyük oğlu M.

Ə. Rəsulzadənin anadan olmasının 130 illiyinə həsr olunmuş bu kitab oxucular tərəfindən maraqla qarşılanacaq, ictimai fikrə öz təsirini göstərəcəkdir. M. Ə. Rəsulzadə kimi şəxsiyyət isə yübileydən yubileyə deyil, daim xatırlanacaq, ehtiramla yad ediləcək, ona yeni-yeni elmi və bədii əsərlər həsr olunacaqdır. Teyyub Qurban da özünün daimi mövzusu ilə əlaqədar yeni ideyalarla yaşayır. "Dönməzlik"dən başlayan dönməzlik yolu davam edir.

Əlirza Balayev,
əməkdar jurnalist

ŞEİRLƏR

HİMN

Novxanı kəndində gəldi cahana,
Xilaskar yarandı Azərbaycana.
Peyğəmbər adını daşıyan insan
Əqidə yolundan dönmədi bir an.
Yenə şah vüqarı şanlı ölkəmin –
Məhəmməd Əmindir, Məhəmməd Əmin!

Kür, Araz çağladı onun səsində,
"Azərbaycan" dedi son nəfəsində.
Elə bir torpağın beşiyindədir –
Bütün türk dünyası keşiyindədir.
Yenə iqtidarı şanlı ölkəmin –
Məhəmməd Əmindir, Məhəmməd Əmin!

O bir günəşdir ki, şəfəqi sönməz,
Yüksələn bayrağı bir daha enməz.
Azadlıq meydanı onun meydanı,
Coşar damarlarda şəhidlik qanı.
Yenə bayraqdarı şanlı ölkəmin –
Məhəmməd Əmindir, Məhəmməd Əmin.

Məhəmməd Əmini bəyənməyən kəs
Millətə atalıq eyləyə bilməz!

31.01.1995

MƏHƏMMƏD ƏMİNİN AZƏR ÖVLADI

Qürbət diyarında soraqlaşaraq,
Axır ki, axtarıb tapdım mən onu.
Seyfulin küçəsi, ev yüz əlli beş,
Nə zəng düyməsi var, nə telefonu.

– Sən hardan gəlmisən?
– Azərbaycandan.
– Sənə canım qurban, buyur içəri,
İlk dəfə yanımda Bakıdan mehman...
Titrədi söziəri, doldu gözləri.

Səliqə-səhmanlı emalatxana,
Fırçayla yanaşı rəssamın tarı.
Bu ev gərəkdir ki, muzey adlana,
Canlı bir tarixdir daşı, divarı...

İyirminci ilin iyun ayında
Novxanı bağında dünyaya gəldi.
Sevindi bir dustaq ata Bayılda,
"Adı Azər olsun" - sədası gəldi.

Ümbülbəni ana hey Azərinin
Şirin laylasına qatdı təlaşı.
Gedər-gəlməz oldu yolu ərinin,
Qaldı yana-yana bağrının başı.

Yedirtdi oğluna ürək yağını,
Dözdü sonbeşiyin əziyyətinə.
Üzüksüz qoyaraq o, barmağını,
Tar da aldı ona lələ qiymətinə.

Gah fırça götürdü Azər əlinə,
Gah da mizrab tutub, dindirdi tarı.
Yayıldı dənizin dürr sahilinə
Coşan bir ilhamın "Şur"u, "Qatar"ı.

... Bir gecə qapıda maşın dayandı,
Zorla apardılar böyük külfəti.
Nə qonşu qonşuya onda hayandı,
Nə də qohumların vardı ülfəti.

Azər sınaq sandı bu keşməkeşi,
Bir gündə neçə il o, yaşa doldu.
Ana gözlərində balaca kişi
Böyüyə-böyüyə cəfakeş oldu.

Qəfil xəzan vurdu ilk baharını,
Bağçada bülbülü pərişan qaldı.
Basdırdı anamı, bacılarını,
Nə başdaşı qaldı, nə nişan qaldı.

Əlli beşinci il... Türkiyə... nədən
Atası dünyadan köçdü, bilmədi.
Qohum-qardaşların başı üstündən
Hansı qara bulud keçdi, bilmədi.

Kimsə çəkə bilməz, vallah, bu dərdi,
Hakimdir günahkar - dərk etdim bunu.
Əzab çöllərində çöpə döndərdi
Məhəmməd Əminin pələng oğlunu.

Xəzər gəmiləri dəryada batıb,
Sahil qayıqları burulğandadır.
Ömrün düşən daşı yetmişə çatıb,
Qalan daşları da Karaqandadır.

Orda, Türkiyədə bir məzar durur,
"Azərbaycan!" deyə hayqırır müdam.
Burda rəssam oğlu bir heykəl qurur –
"Sən odsan, mən sənin külünəm, atam."

Açır küləklərə yaxasını o,
Könlündən keçənlər ellərə çatsın;
Doğuldu, görmədi atasını o,
Barı məzarına göz yaşı qatsın...

Karaqanda,
18.12.1989

BAYRAĞI YANINDA HANI BAYRAQDAR?

Üzündən, gözündən şəfəq saçırdı,
Memar əllərinin yadigarıydı.
Yanında bayrağı qanad açırdı,
Özü bayrağının nəğməkarıydı.

Bir icra başçısı gəldi rayona,
Elimə, obama nabələd, naşı.
Heykəl düşmən kimi göründü ona,
Fərman hazırladı "düşmənə" qarşı.

Gecə səngər qurub həmlə etdilər,
Onu didim-didim parçaladılar.
Soruşan olmadı, olmadı səhər:
Bayrağı yanında hanı bayraqdar?

... Ey haqdan dəm vuran əməli nahaq!
Xalqa and içsən də, xalqa kələksən.
Dağıtdın heykəli, dağıtdın... ancaq
Bayrağı endirə bilməyəcəksən!

Əqidə onundur, qayə onundur,
Onundur bünövrə, təməl, daş, divar.
Məhəmməd Əminsiz, a qansız məmur,
Azərbaycanımız necə ucalar?!

1996

GÖRÜŞ

1909-cu ildə Təbrizdə M.Ə.Rəsulzadə
Səttarxanla görüşmüşdü

Novruz axşamının şam işığında,
Azərbaycan idi söhbətin canı.
Bu görüş bir evin sirr sandığında
Qalmadı... dolaşdı eli-obanı.

Köməyə çağırdı rusları İran,
Möminlər bu isə məəttəl qaldı.
9-cu ildə Təbrizə dolan
Ordu... 20-də Bakını aldı.

Qəsbkar qoşunun quldur əsgəri
Mərmilər çıxardı dağarcığından.
Üsyankar Təbrizin cəngavərləri
Bir-bir asıldılar dar ağacından.

Sındırıldı qəlblər, kəsildi dillər,
Yadlar at oynatdı yurd yerimizdə.
Şimaldan, Cənubdan əsdikcə yellər,
Biri-birimizə yad olduq biz də

Sağımı-solumu görmədi gözüm,
Oğruya and içdim mən doğru kimi.
Atamın gözünü çıxartdım özüm,
Düşüm dastanlara Koroğlu kimi.

Ey ulu millətim, düşün dərindən:
Yeraltı, yerüstü sərvətin çoxdur.
Niyə əcdadların sümüklərindən

Yoğrulub bərkiyən dövlətin yoxdur?
Bu yanda hakim var, o yanda ağa,
Sapı özümüzdən baltalar da çox.
Əl-ələ qalxmasa ellər ayağa,
Hələ qalacaqdır Vətən darda çox.

... Son görüş, son baxış, gözlərdə atəş,
Bu atəş heç zaman sönməyəcəkdir.
Min ordu min yerdən yağdırsın atəş,
Mürşidlər yolundan dönməyəcəkdir.

Bu ondan, o bundan soraq almışdı,
Dostlar bir görkəmdə-biçimdə idi.
Biri 42-ni yola salmışdı,
Biri 25-in içində idi.

Vətən ağlayanda dinməz, ahəstə,
Bu iki övladı qartala döndü.
Açdı qanadını Savalan üstə,
Qıy vurub mahaldan-mahala döndü.

Biri şəhid oldu mərdi-mərdanə,
Böyük Xətainin qiyafəsində.
Biri qayıtmadı Azərbaycana,
"Azərbaycan" dedi son nəfəsində.

Nə qədər anamız bu Azərbaycan
İkiyə bölünmüş vahid ürəkdir –
Məhəmməd Əmin də qalxıb məzardan,
Səttarxanlar ilə görüşəcəkdir.

Dekabr 1997

I. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 79570

DİRİLİK GƏMİSİ

Diriliklərin ən qiymətlisi milli dirilikdir.
M.Ə.Rəsulzadə

Xəzərin dalğalarından
Güc almış gəmi,
Dünya okeanlarında
Qocalmış gəmi –
Qayıtdı doğma limana,
Ağır nəfəs dərdi...
Fəqət
Liman büründü dumana.
Duman içində
Əliheydərlər ona
Daş qəfəs göndərdi.

Bağrını yardılar,
Mühərrikini qopardılar,
Bayrağını apardılar
Quraşdırma gəmiyə.
Qaldı sahildə tənha
Timsahlar
Lövbərini gəmirə-gəmirə.

Doğradılar göyərtəsini,
Əyilməz fəqərəsini
Atdılar ayaq altına.
O gündən
Yanır onurga sümükləri,
Məşəl tutur həyatına.

31.01.2003

MƏHKƏMƏ İCLASI

Elçibəy və onun komandası Azərbaycanın var-dövlətini xaricə daşımaqda babaları M.Ə.Rəsulzadənin yolu ilə hərəkət etmişlər.
"Azərbaycan" qəzeti,
29 oktyabr 1993

Azərbaycan milli istiqlal hərəkatı, müstəqil dövlətçiliyimizin bərpası, bütün Şərqdə ilk demokratik, çoxmillətli parlamentli respublikanın təşəkkülü və fəaliyyəti M.Ə.Rəsulzadənin şəxsiyyəti və unudulmaz adı ilə bağlıdır. Tarixin, zamanın sınaqlarından çıxmış, əbədiyyətə qovuşmuş fədakar, cəfakeş Vətən övladının adını və əməllərini kimliyi bəlli olmayan bir məddah ləkələməyə çalışır.
Şirməmməd Hüseynov, Cəmil Həsənli
"Azadlıq" qəzeti, 9 noyabr 1995

I

Məhkəmə qurulub... Bu məhkəmənin
Kimdir müttəhimi? Məhəmməd Əmin!
İttihamçı kimdir? Buqələmundur!
Məkrli yazılar bu qələmindir.
Başlayır nitqinə belə şər atan:
Məşhur şairimiz demiş – şarlatan,
Ölkə qızılını götürüb qaçdı,
O gündən camaat ac-yalavacdı.

Niyə öndər deyək axund oğluna,
Hələ bir heykəl də ucaldaq ona?!
Köpükləndi ağzı:
– Müsavat ki var,
O xalq düşmənindən qalıb yadigar.
Çəkir cərgəsinə gəncləri bir-bir,
Guya ki, Vətənin gələcəyidir.
Rəsmən qeydiyyatı ləğv olunantək,
Başqanı, başqası tutulsun gərək!
İndi müstəqillik əlimizdədir,
"Cümhuriyyət" sözü dilimizdədir.
Nəyimizə gərək o Rəsulzadə?
Adı niyə gəzsin belə azadə?
Torpağın altında yatmır asudə,
Zəlzələ qoparır quruda, suda.
Dövlət çevrilişi etməyə qadir
Qara qüvvələrin rəhbəri odur.
Odur Nardaranda üsyan qaldıran,
İşığı kəsdirən, qazı aldıran.
Odur şuluq salan həbsxanada,
Müxalifət qalan həbsanada
Bayıl zindanından gizli qaçan kəs
Divanxanamızdan qurtula bilməz!

II

Möcüzə baş verdi...
Gözlər bərəldi,
Salona İosif Stalin gəldi,
Sırtıq şahidlərin tutuldu dili,
İti addımlarla keçib irəli,
Dindi adətincə o, asta-asta:
Zamin kəsilmişdim, zaminəm dosta.

Qurtardım məhbəsdən onu bir zaman,
Qorxub-çəkinmədi fırtınalardan.
Əsrin cilovunu aldım əlindən,
Fəqət özüm düşdüm atın belindən.
Məndən yaşca kiçik, başca böyükdür,
Onu bəyənməyən özü dönükdür.
Mənim əməllərim indi rəvayət,
Onun dedikləri canlı həqiqət.
Azərbaycanlılar, kişi olunuz,
Emin bəy deyildir müti qulunuz!
Məhkəmə qurmayın işığa, nura,
Məhkəmə qurmayın milli qürura!
Nə qızıl, nə gümüş, nə pul, nə sərvət...
Qondarma yalandır, uydurma söhbət.
Nələr edirsiniz, düşünün dərin,
Uzadın ömrünü böyük öndərin!

III

Vəkillər baxdılar biri-birinə,
Stalin danışdı hakim yerinə.
Gordü iclasçılar bolşeviklərdir,
Çingiz İldırımdır, Əliheydərdir.
Burda NKVD, burda GPU da,
Dzerjinski də durub qapıda.

Gəlib, Emin bəyə tutdu üzünü,
Ərkyana söylədi ürək sözünü:
– MDB yolçusu gahgir rəhbərlər
Ətini doğrayıb şişə çəkərlər.
Fürsətdir,yenə də qoşul Kobaya,
Yollanaq Adaya – uzaq Kubaya!

Müttəhim sözünü müxtəsər dedi,
Dayanıb vüqarla, gülümsər dedi:
– Koba, MDB-yə nəzər yetir bir,
Leninə and içən prezidentdir.
Qulaq as, köhnə dost, bir xahişim var,
Fidelin yanına onları apar.
Sanma öz yurdumda sürgündəyəm mən,
İstiqlal nə gündə, o gündəyəm mən.
Əqidəm dəyişməz, atəşim sönməz,
Vətənə qayıdan geriyə dönməz!
Sən də çək əlini Kubadan, Çindən,
Millət mürşidini tapar içindən.

IV

Tərk edib salonu, Stalin gedir,
Baxır, gördüyünə təəccüb edir:
Binanın üstündə üçrəngli bayraq,
Bayrağı yüksələn bayraqdar dustaq...

Noyabr 1995

MÜRŞİDLƏR

72 yaşına qədəm qoymuş olan Rəsulzadə ilə bir zamanlar 20 yaşına qədəm qoymuş gənc və inqilabçı Rəsulzadə arasında heç bir fərq yoxdur.
Mirzə Bala Məmmədzadə

Bu sözləri M.B. Məhəmmədzadə haqqında da demək olar.
Müəllif

Biri Novxanıda açdı gözünü,
Biri də Zirədə cahana gəldi.
Xəzərə dedilər ürək sözünü,
Dalğalar qabarıb tüğyana gəldi.

Tarix kitabıdır ömür dəftəri,
Taleyin yazdığı varaqları var.
Müsavat ayağa qalxandan bəri,
Bakı kəndlərindən dayaqları var.

Dövran yad bayrağı qaldıran zaman,
Zülmətdə nur kimi yaşadı onlar.
Çoxları danışdı millət adından,
Millətin yükünü daşıdı onlar.

Əyilməz kişilər, comərd insanlar
Qürbət yollarından Vətənə baxdı.
Burda şərəfsizə şeir yazanlar
"Şərəf" ordenini döşünə taxdı.

Çoxu dahi oldu öz nəzərində,
Çoxu dönük çıxdı duz-çörəyinə.
Bu günün, sabahın üfüqlərində
Dostları görürəm çiyin-çiyinə.

İstiqlal uğrunda mübarizədə
Doğulur, bərkiyir yenə də onlar.
Biri Novxanıda, biri Zirədə
"Azərbaycan" deyir yenə də onlar.

May 1999

MAHİRANƏ

Nə parlamentdə, nə də hökumətdə heç bir vəzifə tutmamış, yalnız parlamentdə "Müsavat" fraksiyasına başçılıq edərək, öz uzun nitqlərini "Yaşasın Azərbaycan!" deyə qurtarmaqla işini bitmiş sayan M. Ə. Rəsulzadənin öndər, lider, bani səviyyəsinə qaldırılması nəyə xidmət edir?

Mahir Nəbili

"Azərbaycan" qəzeti, 17 oktyabr 1995

Niyə Dədə Qorqud
parlament seçkilərinə getməyib?
Niiyə Şah İsmayıl Xətai
Nazirlər Kabinetinə başçılıq etməyib?
Niyə Sov.İKP MK üzvlüyünə namizəd
Seçməyiblər Səttarxanı?
Niyə Prezident ilə
Görüşməyib Şeyx Məhəmməd Xiyabani?
Niyə Məhəmməd Füzulinin
Ali savadı yoxdur?
Və niyə Məşədi İbad beş dəfə evlənib,
Üzeyir bəyin övladı yoxdur?
Niyə Koroğlu at çapıb,
Maşın sürməyib?
Və niyə Qırat oğurlananda
Müxalifət Keçəl Həmzəni görməyib?
Niyə Rəsulzadənin
Atası Axund Molla Ələkbər olub?

Və niyə o boyda Müsavata
Bu boyda dindar rəhbər olub?
Niyə Novxanıda doğulub,
Bayılda sağ qalıb?
Almaniyada Hitlerlə görüşüb,
Türkiyədə qocalıb?
Allah ona rəhmət edib?
Niyə, nəyə xidmət edib?
... Oxuyub "Tarix-Nadir" kitabını,
Bu sualların cavabını
Mahiranə bilir -
Mahir Nəbili.

Oktyabr 1995

BAYRAQ ABİDƏSİ

Dekabrın 30-da Bayıl qəsəbəsindəki Hərbi Dəniz Qüvvələrinin bazası yaxınlığında Dövlət Bayrağı meydanının təməli qoyulmuşdur.
"Azərbaycan" qəzeti, 31 dekabr 2007

Bu bayraq millətə tutdu üzünü,
Bayraqdar sehrkar insan göründü.
Elə həkk eylədi "Allah" sözünü,
Bağrının başında məşələ döndü.

Bayraqdar tərk etdi doğma yurdunu,
Bayraqla yaşadı dost diyarında.
Təninə sarıyıb gəzdirdi onu,
Azərbaycan marşı addımlarında.

Hanı yaratdığı cild-cild kitablar,
Hanı heykəlinin bünövrə daşı?
Tarixə bəllidir kimdir xilaskar,
Həqiqət yalanla durmaz yanaşı.

... Dövlətin himnini oxumayanlar
Dövlət bayrağını abidə edir.
Nə yaxşı anlaya bilmir ki, onlar –
Bayrağın özü də Rəsulzadədir.

Yanvar 2008

BAKI

Əyməz qasırğalar şah vüqarını,
Bənzəyir ecazkar qəhrəmanlara.
Uzadıb dənizə ayaqlarını,
Saçları dağılıb asimanlara.

Buzovna, Zuğulba qayalarından
Aylı gecələrə aynaları var.
Onun beşiyini hey zaman-zaman
Gah xəzri yırğalar, gah da gilavar.

Açıqdır həmişə geniş süfrəsi,
Yayda da, qışda da nə çox nübarı.
Bişər öz qutabı, öz düşbərəsi,
Dəyər öz şanısı, öz gilənarı.

Hamıya bir gözlə baxıb əzəldən,
Deməyib bu doğma, bu da qəribdir.
Həmdəmi yaranıb ürəklə gələn,
Zatı qırıqlardan üz döndəribdir.

Ağsaçlı babası İçərişəhər,
Ağbirçək nənəsi Qız qalasıdır.
Qoynuna sığınan qocaman kəndlər
Yaşı bilinməyən yüz qalasıdır.

Azadlıq meydanı çağrılıb adı,
Köksündən boylanıb Məhəmməd Əmin.
Hacı Zeynalabdin təki övladı
Şöhrəti yaranıb bir məmləkətin.

20 iyun 1992

SARA

(*Poemadan parça*)

1

Qan çəkir, deyirlər...
Bir an içində
Qanadım açıldı zindan içində,
O dedi "can Sara", mən də "can Azər",
Ayırdılar bizi tez keşikçilər.

Girdi içəriyə Azər,
Sonra da
Bir sükut pərdəsi qaldı arada.
Nə vaxt ki işini yetirdi sona,
"Afərin, afərin!" - dedilər ona.
– General! Polkovnik! Razıyam sizdən,
İltimasım vardır hər ikinizdən:
Qapıdakı qızın şəklini çəkim,
Qumral saçlarından keçmir ürəyim.
– Rəssam, sənin kimi o da dustaqdır,
Şəkli də burada saxlanacaqdır.
Həm də çəkəcəksən bir dəqiqəyə,
Al, dəftər varağı sənə hədiyyə.
Bizə verəcəksən şəkli çəkən tək,
– Varağı hədiyyə etmədiz demək...

2

Rəssam mənə baxıb gülümsəyirdi,
Dalğın baxışları nələr deyirdi...
Yanında keşikçi... nə danış, nə din...
Görəsən sağmıdır Məhəmməd Əmin?
İşıqlı kəlamı beynimdə sönməz –
Bir yüksələn bayraq bir daha enməz!

3

Bir məktub yetişdi mənə Azərdən,
Hücrəmə çəkilib oxudum bərkdən.
"Salam, Mərdəkanın Zöhrə ulduzu!
Böyük Hacımızın sonbeşik qızı.
Əksini çəkəndə lal idim... ancaq
Bu namə səninlə hey danışacaq.
Qısası budur ki, sözümün canı,
Azər qardaşını yaxından tanı.
Novxanı bağında göz açanda mən,
Deyirlər öpübdür atam üzümdən.
Adı Azər olsun, - deyib anama,
Qayıda bilməyib bir də yanıma.
Atamı həmişə axtarıb gözüm,
Rəsmini çəkmişəm xəyalən özüm.
Qohum-əqrəbadan yoxdur xəbərim,
Bir təlaş içində ötür günlərim.
Bizə toy tutdular, toybaşı məchul...
İyirmi dörd yaşlı qardaşım Rəsul
Neçin güllələndi, günahı nəydi?
Bulla adasında qaldı meyidi.
Əziz Bakımızdan düşdük didərgin,
Yarası sağalmaz oldu bu dərdin.
Yadımdan çıxmayır o yük qatarı,
Haraya gedirik, havaxt çatarıq?!
Çimkəndə gələndə qarlı qış günü,
Nənəm dünyamızdan çəkdi yükünü.
Anam üzüyünü satıb tar aldı,
O tar gəncliyimdən yadigar qaldı.
Zaman divan tutdu arzularıma,
Sığındım fırçama, bir də tarıma.
Tarın simlərindən qopdu gileyim,
Hər təzə rəsmimi satdım, neyləyim?!

Anamın qəribə xisləti vardı,
Yaxşılıq etməyə fürsət arardı.
Yanına gələrdi qocalar hər gün,
Məktublar yazardı dustaqlar üçün.
Kalinin yoldaşa bəlliydi xətti,
Hamının yanında əzizdi xətri.
Fəqət zəhər qatdı zaman aşıma,
Fırçayla, mizrabla döydüm başıma.
Hələ görəcəkli günlərim varmış,
Kədərin üstündən kədərim varmış.
Kimlərə üz tutum, nə çarə edim,
Gedən anam idi, ölən mən idim.
Yəqin Tanrıdandı insanda dözüm,
Ana məzarını qazdım mən özüm.
O zərif vücudu kəfənə bükdüm,
Yumulu gözünə göz yaşı tökdüm.
Hanı Axund Vəli, Molla Sümuzər?
Axund da, molla da yarandı Azər.
Bacım Xalidə də söndü qəfildən,
Qaldıq ər-arvad biz - Şölə ilə mən.
Ana olacaqdı o, kam almadı,
İyirmi üç yaşı tamam olmadı.
Tək qaldım... Halıma göylər ağladı,
Dadıma yetmədi Yerin övladı.
Düşdüm səhralara, macəram uzun...
Fəqət Məcnunuyam öz yurdumuzun.
Sən də Leylisisən Azərbaycanın,
Vüsal ümidində əriyər canın.
Munis yadigarı böyük Hacının,
Yetim qardaşıyam sən tək bacının.
Hacı Zeynalabdin, Məhəmməd Əmin –
Birisi sənindir, birisi mənim.
Mən də sonbeşiyəm, sən də sonbeşik,

Şəkərdən doymamış qəhər yemişik.
Taleyimiz qoşa, bunu bilən yox,
Fəqət sən atanı görmüsən, mən yox...
Mənə şeir yazıb bir vaxtlar atam,
Əzbər söyləyirəm mən onu müdam.
Könlünə yatarsa, əzbərlə sən də,
Söylə öz-özünə, vəcdə gələndə.
Azad olacağıq, varsa ədalət...
Məktubu oxuyub, cırıb oda at."

4

...Bir göz qırpımında yandı sətirlər,
Şeirsə yarandı dilimdə əzbər.
Məhəniməd Əminin əsəri idi,
Elə bil atamın sözləri idi.
"Ömür dəftərimi varaqlayanda,
Çox sətri atsan da, üç-dörd xət saxla.
Babana, nənənə, ata-anana
Etibar, nəvaziş, mərhəmət saxla.
Mən sənin atanam - ev müəllimi,
Göz yum nöqsanıma, düzəlt səhvimi.
Mən palıd gövdəsi, sən pöhrə kimi,
Kökümə, rişəmə sədaqət saxla.
Sən çıxan günəşsən, mən batan günəş,
Sən qalxan günəşsən, mən yatan günəş,
Sən oğul günəşə mən atan - günəş,
Sönsəm də, nurumu əmanət saxla."

5

Yenə bağrım başı od tutub yandı,
Gözlərim önündə Azər dayandı.
Gəldi röya kimi, gözdən çəkildi,
Şəklimi çəkənin özü şəkildi...

Azər yaxşı bilər, bilər ki, nədən –
Sel kimi yaş axar hey gözlərimdən.
"İyirmi dörd yaşlı qardaşım..."
Demək,
Bir yaşda imişlər Rəsul, Zeynalbəy.
Birisinin kiçik qardaşı qalmış,
Birisinin ömür yoldaşı qalmış.
Onun da, bunun da məzarı Xəzər,
Nakam matəminə dəryalar dözər...
Mənimsə göz yaşım heç vaxt azalmaz,
Ürək damarlarım – Kür ilə Araz.
Rütbəli hakimlər, sinəmi yarın,
Görün mənbəyini bu qaynaqların!

Azəri Çimkənddə görmədim daha,
Dedilər köçübdür Karaqandaya...

2002

DRAM

BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ

(26 şəkildən ibarət tarixi dram)

İŞTİRAKÇILAR

Məhəmməd Əmin Rəsulzadə
Atatürk
Nərimanov
Stalin
Orconikidze
Mikoyan
Qriqoryan
Markaryan
Hitler
Fon Mende
Meyer
Məhəmmədəli
Fətəlibəyli
Azər
Rəsul
Balıqçı
Tacir
Baş dəstə rəhbəri
Məhəmməd Əminin köməkçisi
Stalinin köməkçisi
Xidmətçi

Hadisələr Bakı, Moskva, Türkiyə, Polşa, Finlandiya və Almaniyada cərəyan edir.

PROLOQ

Qırmızı ildırım çaxır. Bolşevik marşı eşidilir. Səhnəni sanki qırmızı alov bürüyür. Bu qırmızı buludların arasını yararaq bizə doğru gələn, əlində üçrəngli bayraq olan Məhəmməd Əmini görürük. İldırım səsi ilə bolşevik marşı bir-birini əvəz edir.

Məhəmməd Əmin (*inamla*): - Sapından qırılıb əlimdə qalan milli bayrağımız torpağa deyil, millətin vicdanına enmişdir. Hər kəsin bu bayrağı ruhunda, qəlbində və bağrında mühafizə edəcəyinə inanıram. İnanıram ki, bir kərə yüksələn bayraq bir daha enməz!

(Qırmızı alov şiddətlənir: Məhəmməd Əmin tüstünün arasında görünməz olur. Haradansa uzaqdan bolşevik marşını üstələyən əks-səda eşidilir)

Əks-səda: - Ah, Azərbaycan! Biz sənin haqqını tələb etmək üçün nə qədər maneələrə rast gəldik, nə qədər töhmətlərə məruz qaldıq.

(İldırım çaxır. Səhnəyə sükut çökür)

1-ci ŞƏKİL

N.Nərimanovun iş kabineti. Məhəmməd Əminlə onun arasında ciddi söhbət gedir.

Məhəmməd Əmin: - Biz ikimiz də bir millətin oğluyuq. İkimiz də milləti xoşbəxt görmək istəyirik. Sən bunu Rusiyadan gözləyirsən. Mən isə Azərbaycanın xoşbəxtliyini onun tam müstəqilliyində görürəm.

N.Nərimanov: - Biz Rusiyanın tərkibində olsaq da, bu heç də o demək deyil ki, əsarətdə qalacağıq. Yox, biz azad, şən, böyük bir ölkədə bir ailənin bərabərhüquqlu üzvü kimi yaşayacaq, öz milli varlığımızı bütün dünyaya tanıdacağıq.

Məhəmməd Əmin: - Yox, Nəriman! Dünya Azərbaycanı

deyil, yalnız və yalnız dediyin nəhəng ölkəni tanıyacaq...

N.Nərimanov: - Yadımdadır, Nəsibbəylə birlikdə sən də Azərbaycanın xəritəsini göstərib deyirdiniz ki, bu yaşıl ləkələr Azərbaycan əraziləridir. Heç bilirsən bu nə deməkdir?

Məhəmməd Əmin: - Bəli, ləkə adlandırdığımız yaşıl zolaqlar qədim Azərbaycan torpaqları olaraq qalır.

N.Nərimanov: - Bu, millətləri qarşı-qarşıya qoymaq, milli savaş yaratmaqdır. (*Pauza*) ... Mən Bakıya varid olanda əhali tərəfindən təntənə ilə qarşılandım. Əhvali-ruhiyyə inqilabi idi. Qızıl Ordu özünü olduqca yaxşı aparırdı. Mənim şəxsimdə əhali Sovet Rusiyasını səmimiyyətlə alqışlayırdı. Mən inanıram ki, Sovet Rusiyası gənc Sovet Azərbaycanının möhkəmləndirilməsinə həlledici kömək edəcəkdir.

Məhəmməd Əmin: - Görürəm, Moskvada Lenindən yaxşı dərs almısan... (*Əsəbi*) Xahiş eləyirəm göstəriş ver, məni həbs etsinlər...

N. Nərimanov: - Mən səni bura həbs etməkdən ötəri çağırtdırmamışam.

Məhəmməd Əmin: - Bəs nə üçün çağırmısan?..

N.Nərimanov: - Bilirsən...

Məhəmməd Əmin: - Heç bir şey bilmək istəmirəm... Əmr elə məni tutub aparsınlar.

N.Nərimanov: - Səni mən özüm aparacağam. Amma həbsxanaya yox...

Məhəmməd Əmin: - Anlamadım? Bəs hara?

N.Nərimanov: - Stalin xüsusi qatarda Bakıdadır.

Məhəmməd Əmin: - Stalin Bakıdadır?

N.Nərimanov: - Bəli, bir neçə saatdan sonra siz onunla bir vaqonda getməlisiz.

Məhəmməd Əmin: - Mən öz vətənimdən heç bir yerə getmək istəmirəm. Mənim burada ailəm var.

N.Nərimanov: - Stalinin əmri qətidir. Səni mən anlayıram. Amma onu bil ki, biz başqa-başqa adamlar olsaq da, mən

həmişə sənin xətrini istəmişəm. Nə etməli, məni öz əqidəmdən, səni də öz yolundan döndərmək çox çətindir. Nə isə, anandan, arvad-uşaqdan nigaran qalma... Nə qədər sağam, onların başından bir tük də əskilməz.

Məhəmməd Əmin: - Nəriman, elə bil ürəyimə dammışdı ki, evdən birdəfəlik gedirəm. Ona görə hamıyla görüşdüm. Təkcə sonbeşik oğlum gözünü açıb mənə baxmadı, qırışmal dərin yuxuya getmişdi...

N.Nərimanov: - Daha vaxtdır, qardaş...

Məhəmməd Əmin: - Nə gözəl dedin "qardaş" sözünü...

N.Nərimanov: - Biz "Hümmət"çi olmuşuq...

Məhəmməd Əmin: Çox inanmaq istərdim ki, sənin təzə hökumətin xalqa xoşbəxtlik gətirsin...

N.Nərimanov: - Mən var gücümlə buna çalışacağam.

Məhəmməd Əmin: - Allah sənə yar olsun.

N.Nərimanov: - Rəsulunu da, Azərini də oğlum Nəcəf kimi istəyirəm. Leninlə görüşən kimi ona deyəcəyəm ki, sənə öz yanında münasib iş versin. Sonra ailəni də Moskvaya apararsan... Sağlıq olsun.

Məhəmməd Əmin: - Sağ ol, Nəriman... Amma mən Leninlə işləmərəm...

2-ci ŞƏKİL

Stalinin xüsusi vaqonunda kupe. Məhəmməd Əmin və Stalin söhbət edirlər.

Stalin: - Mən dostluqda möhkəməm...

Məhəmməd Əmin: - Sənin dostluğun məni öz vətənimdən çıxarmaqdırsa...

Stalin (*Onun sözünü kəsir*): - Düz tapmısan... Əgər mən sənə dost əlimi uzatmasaydım, səni yerli bolşeviklər millətçi kimi güllələyəcəkdilər...

Məhəmməd Əmin: - Mən heç vaxt millətçi olmamışam. Bizim partiya bu ideyalardan uzaq olub...

Stalin: - Bunu sən onlara başa salana qədər artıq ölüm hökmünü verəcəkdilər...

Məhəmməd Əmin: - Koba, sən nahaq yerə qoymadın mən ölənədək vətəndə qalam...

Stalin: - Vətən qaçmır ki, sakitlik olar, qayıdarsan ailənin yanına.

Məhəmməd Əmin: - Onlara mənim harada olduğum barədə kim məlumat verəcək?

Stalin: - Hələ bir Moskvaya sağ-salamat çataq, sonra sənin iş yerini müəyyən edərik... Ailənə isə bütün məlumatı Nəriman çatdırar...

Məhəmməd Əmin: - Nəriman yaman dəyişib...

Stalin: - Nəriman havaxt müsavatçı olub ki?

Məhəmməd Əmin: - Onun Azərbaycanın müstəqilliyi haqda çox ciddi fikirləri var idi...

Stalin (*Bic-bic gülərək*): - Sizin Azərbaycan Rusiyanın tərkibində azad və müstəqil respublika kimi inkişaf edəcək.

Məhəmməd Əmin: - Mən buna inanmıram...

Stalin (*Gülüşün tonu güclənir*): - Çünki sən burjua millətçisisən...

Məhəmməd Əmin: - Koba, gəl, biz səninlə siyasətdən danışmayaq.

Stalin: - Siz müsavatçıların siyasəti baş tutmadı... Amma bizim qurduğumuz böyük Sovetlər birliyi, vaxt gələcək, dünyaya hökm oxuyacaq... Buna görə də, bu yeni cəmiyyətin qədrini bilmək lazımdır.

Məhəmməd Əmin: - Koba, qoy yaxın stansiyaların birində düşüb geriyə qayıdım...

Stalin: - Deyəsən, mən səni başa saldım axı?

Məhəmməd Əmin: - Vətən torpağında ölməkdən böyük xoşbəxtlik ola bilməz...

Stalin:- Sən ölə bilməzsən, yaşamalısan, köhnə dost!

(Qatarın təkərlərinin səsi pauzanı doldurur. Stalin vaqonun pərdəsini aralayıb baxır)

Stalin: - Sənin kəndin buradan görünmür ki?

Məhəmməd Əmin: - Novxanı bu yerlərdən çox uzaqda qaldı... (*Pərdəni aralayıb baxır*) Biz indi Siyəzəni keçirik.

Stalin: - Demək, bir neçə saatdan sonra Dərbəndə çatarıq, beləliklə, Azərbaycan qalar arxada.

Məhəmməd Əmin: - Dərbənd də Azərbaycandır, Koba.

Stalin (*Bu söz onun xoşuna gəlmir*): - Sən bayaq dedin ki, siyasətdən danışmayaq...

Məhəmməd Əmin: - Mən siyasətdən danışmıram. Dərbənd tarixən Azərbaycanın olub. Bu bir həqiqətdir.

Stalin: - Biz sənlə inqilab dostu olmuşuq. Mən sənin atanın çörəyini yemişəm. Sən müsavatçıların fikrini bir tərəfə at... Gəl yol yoldaşlığı edək. İndi şam yeməyi gətirəcəklər... İkilikdə şam edək. Olar?

Məhəmməd Əmin: - Nə üçün olmur?

Stalin: - Gör neçə illərdir görüşmürük. Bu görüşü "Xvanq-kora" çaxırı ilə qeyd etməliyik.

(Kupeyə əlində məcməyi, qəşəng qadın daxil olur. O, çaxır və yeməkləri düzür,çaxırı götürüb açmaq istəyir)

Stalin: - Ver bura, çaxırı özüm açmağı xoşlayıram.

Qadın: - Buyurun, yoldaş Stalin...

Stalin (*Şərabı açaraq*): - Sənin adın nədir?

Qadın: - Klavdiya Petrovna.

Stalin: - Klavdiya Petrovna, aşpaza deyin ki, yaxşı çay dəmləsin. Anladın, Azərbaycan çayı!

Qadın: - Anladım, yoldaş Stalin. Olar mən gedim?

Stalin: - Gedin, bir də aşpaza deyin ki, çayın dəmini qaynatmasın.

Qadın: - Oldu, yoldaş Stalin (*Gedir. Stalin şərab süzür*)

Məhəmməd Əmin: - Çayı mən dəmləyərəm.

Stalin: - Sənə təmiz Azərbaycan çayı verəcəyəm.

Məhəmməd Əmin: - Sağ ol, Koba...

Stalin: - Köhnə dost, qaldır bunu içək Leninin sağlığına.

Məhəmməd Əmin: - Leninin?

Stalin: - Bəli, Leninin sağlığına...

(*Stalin bic-bic baxır. Məhəmməd Əmin fujerə əlini uzatmır*)

Stalin - Sən Leninin sağlığına içmək istəmirsən?

Məhəmməd Əmin: - Koba, mən çayımı içim, sən də içirsən iç kəsdiyimiz duz-çörəyin sağlığına.

Stalin: - Sən və sənin məsləkdaşların Lenin ideyalarının qəti düşmənisiniz və barışmaq da istəmirsiniz. Nə olar, duz-çörəyin sağlığına. (*İçir*)

Məhəmməd Əmin: - Məni Pankratovun otağına çağırtdıranda, ölümü gözümün qabağına gətirdim...

Stalin: - Əgər Allah məni bura yetirməsəydi, bayaq dediyim kimi, yerli bolşeviklər səni güllələyəcəkdilər...

Məhəmməd Əmin: - Koba, mən özümə söz vermişdim ki, sənlə siyasətdən danışmayacağam, amma bacarmıram. Sən mənə de görüm...

Stalin: - Mən sənə nə desəm, hamısı əleyhinə olacaq. Emin, sən özün yaxşı bilirsən ki, biz əqidəcə başqa-başqa insanlarıq...

Məhəmməd Əmin: - Yox, Koba... Sən həmişə mənə azadlığın gözəlliyindən, xalqların taleyində mühüm rolundan danışmısan. Məgər sən azadlıq adı ilə inqilaba qoşulmamısan?

Stalin: - Mən bilmirəm "azadlıq" deyəndə sən nə anlayırsan?

Məhəmməd Əmin: - Milli istiqlala malik olmayan bir millət tərəqqi edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal vermək lazımdır.

Stalin: - Sən düz deyirsən, Emin, bizim inqilabın məqsədi məhz elə bundan ibarətdir.

Məhəmməd Əmin: - Yox, Koba... Sizin qurduğunuz cəmiyyətdə insanların azad yaşamasına inanmıram...

Stalin (*Guya zarafat edir*): - Ona görə də sən bolşevizmin qatı düsmənisən. Mən bilirəm ki, sizin kimi millətçilər bizim qurduğumuz cəmiyyətə inanmırsınız. Bir də ki, Emin, sən inandın və ya inanmadın, böyük rus inqilabının qırmızı təkəri artıq hərəkətdədir. Onu geriyə hərlətmək mümkün deyildir...

Məhəmməd Əmin: - Sənin dediyin bu qırmızı təkəri azərbaycanlı bolşeviklər milli hökumətimizi yıxıb, vətənlərini işğalçı XI Orduya təslim edəndən sonra gətirdilər.

Stalin: - Bilirəm, sizi ən çox Nərimanov narahat edirdi, o biri bolşeviklər Nərimanovdan çox aşağıda dayanırdı. Elə ona görə də, Lenin Nərimanı Həştərxandan yanına gətirdi... Axı, Nəriman həm təcrübəli, həm də geniş siyasi mübarizə məktəbi keçmiş bir adam idi.

Məhəmməd Əmin: - Lenin yaxşı bilirdi ki, Nərimanov öz əqidəsindən əl çəkən deyil.

Stalin: - Nəriman sənin kimi burjua millətçisi deyil. O, böyük Leninə inanır. Azərbaycanda sovet sosialist respublikasının çiçəklənməsini Sovet Rusiyası olmadan təsəvvür edə bilmir.

Məhəmməd Əmin: - Mən Nərimanovla yaxın olsam da, onun mövqeyini səhv kimi qiymətləndirirəm. Biz Rusiya hökumətinin həqiqi rus demokratiyası əlinə keçməsi tərəfdarıyıq. Çünki Qafqaz dağlarının şimalında təşəkkül edən müstəbid və təcavüzkar bir hökumətə laqeyd qala bilmərik.

Stalin: - Yetər, Emin... Sən mənim münasibətimdən istifadə edib, həddini aşırsan...

Məhəmməd Əmin: - Mən səninlə köhnə bir dost kimi fikirlərimi bölürəm...

Stalin: - Mən yaxşı bilirəm ki, sən bizim ideyalarla barışan deyilsən. Əgər mənə vaxtında yaxşılıq eləməsəydin, öz tapançam ilə vurardım səni. Nə etmək olar, bayaq "duzçörəyin" sağlığına içdim axı... (*Qədəhi qaldırır*) İndi də ata-anaların sağlığına... (*O, qədəhini qaldırıb içir. Dərindən nəfəs alır, sonra əlini Məhəmməd Əminin çiyninə qoyur*)

Məhəmməd Əmin: - Mən yola düşəndə anam ağır xəstə idi.

Stalin: - Mənim anam yadıma düşəndə ürəyim kövrəlir, uşaqlıq illəri alır məni qoynuna... Eh, Emin, sizdə bir mahnı var... Sən də onu oxumağı çox sevirdin...

(*Məhəmməd Əmin dərindən nəfəs alaraq "Ay bəri bax, bəri bax" mahnısını mızıldayır. Sonra Stalin ona qoşulur. Birdən Stalin gürcü mahnısına keçir. Mahnı qurtaran kimi ikisi də gülümsünür.*)

Stalin: - Emin, sənin atan axund, mənim atam pinəçi. Bəlkə də ona görə sən millətçisən, mən isə beynəlmiləlçi. Çünki axund ancaq islamı təbliğ edir, onun yanına ancaq müsəlmanlar gəlir. Pinəçi isə hamının, rusun da, yəhudinin də, ermənisinin də ayaqqabılarını yamayır. Mənim üçün bütün millətlər birdir.

Məhəmməd Əmin: - Bizim üçün də millətlər birdir. Lakin Rusiyanın qulu olan Şaumyanı "Bakı proletariatının xilaskarı" kimi qələmə verənlər yaxşı bilirdilər ki, o, azəri türklərinin qaniçən cəlladı idi. O, rusun xoşuna gələn mövqedən çıxış edərək, Bakıda milli qırğın saldı. Lenin onun bu siyasətini alqışlayırdı.

Stalin: - Emin, erməni məsələsi elə bir çamurluqdur ki, ora düşən boğulub ölər.

Məhəmməd Əmin:-Yox, Koba, bu məsələ çox aydındır. Tarixən Azərbaycan torpaqlarında yurd salmış ermənilərin torpaq iddiaları xam xəyaldır. Mən yaxşı başa düşürəm ki, daşnaklar dünyanın hər yerində öz tülkü siyasətlərini təbliğ edib, utopik fikirlərini həyata keçirməyə can atırlar...

Stalin: - Emin, biz istəyirik ki, ermənilər, azərbaycanlılar dostluq şəraitində yaşasınlar...

Məhəmməd Əmin: - Bizim bolşeviklər də buna inanırlar. Amma ilandan adama dost olmaz.

Stalin: - Görünür, onlar da sizə ilan deyir...

Məhəmməd Əmin: - Düşmən, aydındır ki, xoş söz deməz...

Stalin: - Sizin şəhərdə erməni yaman çoxdur. Nə etməli? Gərək dostlaşıb yaşayasız.

Məhəmməd Əmin: - Bunu bilmək olmaz...

Stalin: - Cəhənnəm olsun bu ermənilər. Mən Bakını və bakılıları çox istəyirəm.

Məhəmməd Əmin: - Sənə Bakıda pislik edən olmayıb.

Stalin: - Olub, Emin, olub. Balaxanıda məni quyuya atmısız. Bax, onları çıxsaq, bütün bakılıları istəyirəm...

Məhəmməd Əmin: - Necə deyərlər, meşə çaqqalsız olmaz.

Stalin: - Eyb etməz, Emin, vaxt gələr məni quyuya atan o çaqqalların nəinki özündən, hətta nəslindən belə intiqam alacağam.

Məhəmməd Əmin: - Kinli olmaq nəyə lazımdır, Koba?

Stalin: - Kişi yaxşılıq etdiyi kimi, düşməninin başını da əzməyi bacarmalıdır. Nə isə... Bax, Bakıda sən bilirsən ki, bir neçə dəfə həbsə düşmüşəm. Ancaq pulun gücünə xilas olmuşam, Bu pulu isə mənə siz azərbaycanlı dostlarım veribsiz. (*Gərgin pauza*) Amma bizim qurduğumuz yeni cəmiyyətdə pul gücünə sən xilas ola bilməzsən.

Məhəmməd Əmin: - Koba, sən demək istəyirsən ki, Sovet Rusiyasında elə qayda-qanun olacaq ki, rüşvət alana rast gəlməyəcəksən?

Stalin: - Belələri olsa, onların atalarını yandıracağıq.

Məhəmməd Əmin: - Nə deyim...

Stalin: -Mən deyirəm və içirəm sənin sağlığına...

Məhəmməd Əmin: - Mən istərdim millətimizin şərəfinə içəsiniz.

Stalin: - Elə isə gəl bütün Rusiya müsəlmanlarının şərəfinə içək! (*Stalin içir, ləzzətlə yeyir*) Emin, mən əminəm ki, bizim aramızdakı söhbətlər elə burada da dəfn olunmalıdır.

Məhəmməd Əmin: - Bu aydın məsələdir...

Stalin: - Deyirəm birdən ürək açıqlığı edib, Nərimanla söhbət edəndə ağzından qaçırdarsan.

Məhəmməd Əmin: - Koba, bir Allah bilir ki, sirr açan deyiləm.

Stalin: - Mən Allaha inanmıram. Allahlar yalnız məscid və kilsə ucalda bilərlər. Biz bolşeviklər isə zavod və fabriklər tikəcəyik. Kasıblara çörək verəcəyik. Əlbəttə, bunlar sonrakı işlərimizdir. Sözümün canı başqadır. Bax, indi mən səninlə ikilikdə söhbət edirəm. Müsavatçılar bolşeviklərin rəqibi olsalar da, biz dostuq. Bax, bunun sirri nədir? Niyə mən gənclik dostuma düşmən kimi baxmıram?

Müsavatçıların başına Bakıda Əliheydər Qarayev kimilər oyun açır, mən isə onun liderini özümlə bolşevizmin mərkəzinə aparıram. Təzad deyilmi?

Emin, sənin Lahıcdan gətirilib Bayıl türməsinə salındığını eşidəndə çox mütəəssir oldum. O türmədə mən də yatmışam. Ancaq mən oradan qaçırılıb salamat qalmışam. Bu qaçışda sən mənə kömək etmisən. İndi isə yaxşılığın əvəzinə mən səni Pankratovun əlindəh alıb qaçırıram. Bizim dostluğumuzu heç bir kəs poza bilməz. Dostluğun sağlığına! (*Stalin badəni başına çəkir. Məhəmməd Əmin çay içir*)

Emin, əziz dost, Azərbaycanın gələcəyi barədə nə düşünürsünüz?

Məhəmməd Əmin: - Bu, müvəqqəti məğlubiyyətdir. Azərbaycan gec-tez müstəqil, demokratik dövlət olacaqdır. Mən buna inanıram.

Stalin: - Nahaq yerə inanırsan. Bizim inqilab möhkəm dirəklər üzərində qurulub. Nəriman da, bildiyin kimi, bu fikirdədir.

Məhəmməd Əmin: - Nərimanov da öz müəllimi Lenin kimi səhv edə bilər.

Stalin: - Bəs sənin müəllimin kimdir?

Məhəmməd Əmin: - Ən böyük müəllim tarixdir, Koba.

Stalin: - Zamanı da özündən uydurub insan. Elə tarixin özünü də hara istəsən fırlatmaq olar. (*Pauza*) Emin, Mikoyan deyir ki, Qarabağ ermənilərinə muxtariyyət verək.

Məhəmməd Əmin: - Koba, məni hövsələdən çıxarma. Siz əgər Azərbaycan ərazisində ermənilərə muxtariyyət versəniz, dostluğumuz qarşısında ən böyük cinayət törətmiş olacaqsınız. Bu bala erməni dövləti yaradılsa, elə Gürcüstanın da başına gələcəkdə bəlalar gətiriləcəkdir.

Stalin: - Emin, əziz dost, mən allahsızam, gürcülər öz din qardaşları olan ermənilərlə yola gedərlər.

Məhəmməd Əmin: - Axı siz bolşeviklər nə haqla Azərbaycan ərazisini bölüb, yadlar üçün cənnət yaradırsınız!?

Stalin: - Emin, əziz dost, bolşevizm və inqilab hərəkatında ermənilərin rolu müsəlmanlardan böyükdür.

Məhəmməd Əmin: - Yəhudilərin xidməti daha çoxdur. Bəs onda yəhudi dövləti niyə yaratmırsınız?

(*Stalin tutulur, fikrə dalır*)

Stalin: - Bunun da vaxtı var. Sabah müsəlmanlar Ərəbistanda müstəqilliyə can atsalar, bolşeviklər İsrail dövlətini də yaradacaqlar. Qaldı ki, Qarabağ məsələsi... Buna Lenin başda olmaqla hamı razıdır. Bircə Nərimanov etiraz edir.

Məhəmməd Əmin: - Koba, əlindən gələn köməyi elə. Nərimanovu bu məsələdə tək qoyma.

Stalin: - Artıq Lenin öz qərarını verib. Nə Nəriman, nə də mən heç bir şey edə bilmərik.

Məhəmməd Əmin: - Leninin bu qərarı gələcəkdə nahaq qanlar tökülməsinə səbəb olacaq.

Stalin: - Leninin fikrinə əks getmək partiyanın əksinə getməkdir.

Məhəmməd Əmin (*ani sükut*): - Koba, yorulmuşam, hücrəmə çəkilib yatmaq istəyirəm.

Stalin: - Necə istəyirsən, Emin.

(*Məhəmməd Əmin ayağa qalxır*)

Məhəmməd Əmin: - Gecən xeyrə qalsın.

Stalin: - Xeyrə qarşı! (*Məhəmməd Əmin kupedən çıxır. Stalin qəlyanını doldurub tüstülədir. Kupenin qapısı döyülür*) Kimdir, içəri gəlin... (*Polkovnik rütbəli hərbçi Stalinə ərz edir*)

Polkovnik: - Yoldaş Stalin, Serqo Orconikidze yanınıza gəlmək istəyir.

Stalin: - Gəlsin.

(*Orconikidze həyəcanlı halda kupeyə daxil olur*)

Orconikidze: - İosif Vissarionoviç, Mikoyandan təcili məxfi xəbər gəlib.

Stalin: - Nə xəbər?

Orconikidze: - Xəbər verir ki, Müsavatın başçısı Bayıl türməsindən yoxa çıxmışdır və nə qədər təəccüblü olsa da, bizim getdiyimiz bu qatarın sərnişinləri arasındadır.

Stalin: - Mikoyan bu məlumatı görəsən hansı mənbədən almışdır?

Orconikidze: - Yəqin ki, Bakıdakı daşnak partiyasından.

(*Stalin Serqonu mənalı baxışlarla başdan-ayağa süzür*)

Stalin: - Nə çaşıb qalmısınız? Rəsulzadədən belə qorxursunuz? Bu gün gecədən səhərədək qarşıdakı stansiyalardan bir nəfəri də qatara buraxmayın. Sərnişinləri birbə-bir yoxlayın. Rəsulzadəni tapsanız, yanıma gətirin. Tapmasanız, Mikoyana məlumat verin ki, bir də belə şayiələrlə başımızı qatmasın.

Orconikidze: - Oldu, yoldaş Stalin...

(*Serqo çıxır. Stalin qədəhi ağzınacan doldurub içir*)

3-cü ŞƏKİL

Məhəmməd Əminin kupesi. O, *narahat halda əyləşib. Təkərlərin səsi sükutu pozur. Köynəyini çıxaranda onun bədəninə sarılan üçrəngli bayraq görünür. O, bayrağın ucunu qaldırıb öpür və gözünün üstünə qoyur. Başını qaldıranda xəyalında Nəriman canlanır. Onun çiyinlərinə qırmızı bolşevik bayrağı salınıb.*

Məhəmməd Əmin: - Sən xalqının səadətinə inanırsan?

Nəriman: - Mən bu səadəti əldə eləməkdən ötəri bütün ömrümü qurban vermişəm.

Məhəmməd Əmin: - Qurban sözünü düz dedin, Nəriman... Sən bolşevik diktaturasının qurbanısan.

Nəriman: - Mənim xalqım azad və şən həyat sürməlidir. Bu yolda ölmək lazım olsa, canımdan belə keçməyə hazıram. Mənim istək və amalım Azərbaycanı azad və müstəqil görməkdir.

Məhəmməd Əmin: - Lenin səni yalan vədlərlə aldadıb. Sən də onun sözlərinə inanmısan. Bir də o, sizin hamınızı elə bil tilsimləmişdi. Onun sözü qarşısında hamınız farağat dursuz. Onun güclü diplomatiyası Yer üzünə fəlakət gətirdi. Bu fəlakətin Azərbaycana gəlişində sənin çox köməyin oldu. Siz yalançı azadlıq bayrağı altında birləşdiniz.

Nəriman: - Mən çalışacağam ki, Rusiya Azərbaycana kömək əlini kəsməsin.

Məhəmməd Əmin: - Nəriman, Leninə bizim neftimiz gərəkdir.

Nəriman: -Mən nefti Rusiyaya qızıl pula satacağam...

Məhəmməd Əmin: - Neft satacaqsan, Nəriman? Axı siz "sovet" deyilən bir dövlət yaradırsınız.

Nəriman: - Lenin bütün respublikalara müstəqillik verəcək...

Məhəmməd Əmin: - Mən bütün varlığımla inanıram ki, siz aldanmısınız.

Nəriman: - Emin, mən Leninə inanmışam, inanıram. Azərbaycan respublikası müstəqil yaşayacaq və xarici hücumlardan qorunmasında Rusiyanın böyük köməyi olacaq.

Məhəmməd Əmin: - Ona görə xalqa deyirdin ki, "Azərbaycan Sovet Rusiyası olmadan yaşaya bilməz".

Nəriman: - Emin, mən başqa cür edə bilməzdim. Bu sözlər siyasət idi.

Məhəmməd Əmin: - Siyasət oyun deyil, Nəriman.

Nəriman: - Demək istəyirsən mən Leninin əlində bir oyuncağam?

Məhəmməd Əmin: - Sən bunu bir neçə ildən sonra yaxşı dərk edəcəksən. Amma geriyə yolun olmayacaq. O vaxt ki, Lenin neftimizi Rusiya üçün istifadə edəcək, qalanını isə xaricə satacaq. Bax, onda sən özünü danlayacaq və bir daha aldandığını başa düşəcəksən.

Nəriman: - Yox, Emin, yox... Qoymaram Azərbaycanı talan eləsinlər.

Məhəmməd Əmin: - Mən sənə inanmaq istərdim.

Nəriman: - Mən inanıram ki, sən tezliklə vətənə qayıdacaqsan.

Məhəmməd Əmin: - Yox, Nəriman, vətən nahaq qanlar içində boğulur. Qırmızı təkərlərin səsindən səadət nəğməsi yaranmaz.

(Nərimanın kölgəsi yox olur. Məhəmməd Əmin bayrağı bədəninə sarıyıb yerinə uzanır)

4-cü ŞƏKİL

Məhəmməd Əminin kupesi. Qapı döyülür

Stalin: - Emin, oyaqsan?

Məhəmməd Əmin: - Buyurun, Koba.

(Stalin kupeyə daxil olur. Məhəmməd Əminin alt köynəyin üstündən üçrəngli bayrağı bədəninə sarıdığını görüb, bir anlıq yerində donub qalır)

Stalin: - Emin, bu nədir, bayrağını köynək əvəzi edirsən?

Məhəmməd Əmin: - Koba, bu bayraq dünyamın qövsiqüzehidir. Onun rəngləri varlığıma hopmuşdur. Lahıcda da, Bayılda da o, mənimlə olmuşdur. Yalnız və yalnız vücuduma ağ kəfən sarınanda onu məndən ayırmaq olar. Bir kərə yüksələn bayraq bir daha enməz!

Stalin: - Emin, bil ki, o bayrağın ancaq qırmızı parçası yüksələcəkdir.

Məhəmməd Əmin: - Dedim ki, bu bayraq mənim üçün qövsi-qüzehdir. Onun rənglərini bir-birindən ayırmaq olarmı? Bir də, atalar demişkən, cücəni payızda sayarlar.

Stalin: - Sənin sayılan cücələrinin aqibəti məlumdur. Əsəblərini ələ al. Sinfi mübahisəyə başlamayaq. Sənin indi məndən başqa müdafiəçin yoxdur, Emin. Bu, həqiqətdir. Bundan qaça bilməzsən.(*Söhbətdən bezir*) Di yaxşı. Gəl şahmat oynayaq.

(*Onlar fiqurları düzürlər*)

Məhəmməd Əmin: - Dünən qəribə bir yuxu görmüşəm. Yəqin çox yatmaqdandır.

Stalin: - İllər boyu yuxusuz gecələrinin əvəzini qatarda çıxırsan?

Məhəmməd Əmin: - Çox yorğunam, Koba. Bəlkə elə ona görədir tez-tez yuxu görürəm.

Stalin: - O nə yuxudur elə?..

Məhəmməd Əmin: - Görürəm ki, Tiflisdə gürcü çarı Tamaranın sarayındayam. Birdən hamı ayağa qalxır. İçəriyə Səttarxan daxil olur. Tamara onu öz yanında əyləşdirir.

Stalin: -. Sənin Səttarxanın nahaq yerə Tamaranın yanına gedib...

Məhəmməd Əmin: - Bu sadəcə olaraq yuxudur.

Stalin: - Yox, Emin, bu adicə yuxu deyil. Demək istəyirsən ki, Gürcüstanda demokratik hərəkatı mən boğmuşam?

Məhəmməd Əmin: - Mən elə demək istəmirəm...

Stalin: - Gürcülər də başqa xalqlar kimi Rusiyanın tərkibində yaşayıb-yaradacaq...

Məhəmməd Əmin: - Bağışla məni, Koba, sən özünü gürcü xalqından ayırırsan...

Stalin: - Mən bayaq sənə dedim ki, bütün millətlər mənim üçün birdir. Bir də ki, məni nahaq gürcü kimi qəbul edirsiz.

Mənim millətimin adı "beynəlmiləlçidir"...

Məhəmməd Əmin: - Əgər Gürcüstanın müstəqilliyinə kömək etsəydin, bizim qurduğumuz demokratik Azərbaycanla yanaşı, azad dövlətlər yaradardıq. Bizə Leninin və Şaumyanın gücü çatmazdı...

Stalin: - Bilirəm, Şaumyan Bakıda böyük qırğının törədilməsində iştirak edib.

Məhəmməd Əmin: - Şaumyan bütün əmrləri Lenindən alıb.

Stalin: - Yox, Emin. Sən Lenini mənim gözümdən sala bilməzsən. O, böyük bir proletariat dəstəsinin lideridir. Onun ideyaları xalqlara azadlıq və səadət gətirəcək.

Məhəmməd Əmin: - Nəriman da sizin bu ideyalara fanatikcəsinə inanır...

Stalin: - Elə ona görə də Nərimana Şərqin Lenini deyirlər.

Məhəmməd Əmin: - Qoca Şərq oyanacaq, bolşevik bayrağı endiriləcək.

Stalin: - Enən sizin üçrəngli bayrağınızdır. Özü də həmişəlik enib.

Məhəmməd Əmin: - Bunu bilmək olmaz...

Stalin: - Bilmək olar, Emin. Kommunizm Yer üzündə elə kök salmayacaq ki, sizin bayrağınız bir də ucalsın.

Məhəmməd Əmin: - Yox, Koba, sizin qurduğunuz dövlətin heç bir elmi əsası yoxdur.

Stalin: - Marksı, Engelsi unutmaq lazım deyil... Emin, sən bizim qurduğumuz cəmiyyətə inansan, daha doğrusu, köhnə dostunu anlasan, sənə Şərqin Stalini deyərlər. (*Ürəkdən gülür. Məhəmməd Əmin özünü itirir və birdən ələ alır*)

Məhəmməd Əmin: - Sən mənim sözlərimdən incimə, Koba, siz yaxşı bilməlisiz ki, bəşəriyyət gec-tez marksizm-leninizm deyilən allahsızlıqdan əzəli və bəşəri yoluna qayıdanda, Leninin və sənin qərarlarını qəbul etməyəcək. Məni əqidəmdən döndərməyə çalışma. Heç vaxt sizin ideyaların

tərəfdarı ola bilmərəm.

Stalin: - Olmursan-olma... Daha bunu açıq-aydın nə üçün deyirsən? Axı, divarın da qulağı var.

Məhəmməd Əmin: - Mən həqiqəti deyirəm...

Stalin: - Bu fikirlər sənin üçün həqiqət ola bilər, mənim üçün isə yalan, iftira, cəfəngiyatdır..

Məhəmməd Əmin: - Yox, Koba, sənə boş-boş görünən sözlər mənim üçün böyük bir həyatdır.

Stalin: -Sənin həyatın indi mənim əlimdədir.

Məhəmməd Əmin: - Yox, Koba. Mənim həyatım o böyük Yaradanın əlindədir...

Stalin (*birdən*): - Emin, sən uduzdun, "mat". Yaxşı, mən gedim öz kupemə, bir azdan gələrsən yanıma.

(*Stalin gedir. Məhəmməd Əmin əlləri ilə başını tutur və narahat halda öz-özü ilə danışır*)

Məhəmməd Əmin: - Fəqət azadlıq şərbətindən bir qurtum içən millət bir daha yadlara boyun əyməyəcək. Bu müstəqilliyi Azərbaycana yeni türk gəncliyi gətirəcək. Bu yeni nəslin içərisindən boylanan şəxsiyyətlər dərk edəcəklər ki, millət parçalanmış halda öz ərazisinin bütövlüyünü qoruya bilməz və milli dövləti olmayan xalqı müstəmləkə əzabı gözləyir.

(*O, diqqətlə şahmat fiqurlarına baxır və fiqurun birini irəli çəkir*)

5-ci ŞƏKİL

Stalinin kupesində işıq yanır. O, əlyazması üzərində işləyir.

Stalin (*öz-özünə piçıltı ilə*): - Müsəlman Şərqində proletariatın vəzifələrinə ayrıca yer ayırmalıyam. (*Sonra ayağa durub, pəncərənin qabağına gəlir*) Şərq məsələlərində Lenin məndən çox Nərimanova inanır. Demək, Nərimanov Qafqazdan olan şəxsiyyət kimi Rusiya üçün Şərqdə mötəbər şəxs olar.

Bu Müsavat sərkərdəsinə gəldikdə isə o, mənim üçün və bütün dünya proletarları üçün qorxulu deyildir. Havası çalınıb, kitabı bağlanıb. Başlıca təhlükə Nərimanovdur. Onu Azərbaycandan nə qədər tez ayırsaq, haqq-hesabı da tez çürüdərik. Əfsuslar ki, arada Lenin var... (*Məhəmməd Əmin kupeyə daxil olur. Stalin mehribanlıq göstərir...*) - Emin, de görək, ömründə heç adam öldürmüsən?

Məhəmməd Əmin: - Adam nədir, heç qarışqa da tapdalamamışam.

Stalin: - Bax, bolşeviklərə görə müsavatçıların zəifliyi bir də bundadır.

Məhəmməd Əmin: - Bəs sən necə, Koba?

Stalin: - Öz əlimlə ən azı yüzünü gəbərtmişəm. Ancaq onların arasında sizinkilərdən olmayıb. Volqaboyu tatarlar idilər... Emin, sən Müsavatın təşkilatçısı kimi bu sahədə "Daşnaksütyun"dan çox şey öyrənə bilərdin. Terrorçuluqda misilsizdirlər və ona görə də qıra bilirlər. Sənin isə əlin bir erməni üstünə də qalxmaz?

Məhəmməd Əmin: - Koba, əvvəla, sənin öz dostların barədə belə söyləməyin təəccüb doğurur. İkincisi, Azərbaycan türklərinin düşməni bolşevik Rusiyasının fitva verib yardım etdiyi ermənilərdir. Əgər Ermənistan dövlətini möhkəmlətsəniz, gələcəkdə Rusiyanın da başı ağrıyacaq. Mikoyan və Şaumyan sənin arxadaşlarındır. Mən Şaumyanın Müsavatla əməkdaşlıq etməsi hiyləsinin qarşısını vaxtında aldım. Siz isə o vaxt Bakıya Şaumyanın adına, müsəlmanların qəsdinə duran avantüristə on milyon manat göndərdiniz.

Stalin: - Emin, bu barədə mənə Lenin göstəriş vermişdi.

Məhəmməd Əmin: - Lenin də Qafqazda türklərin deyil, ermənilərin mənafeyini güdür. Ona da bakılılar yox, Bakı nefti gərəkdir. Mən isə Leninsiz, Stalinsiz müstəqil Azərbaycan arzulayıram. Rusiya və bütün qonşu dövlətlərlə qardaşcasına iqtisadi əlaqələri olan, fəqət azad türk cümhuriyyəti!

Stalin: - Emin, belə bir Azərbaycan ancaq yuxu olaraq qalacaqdır, boş xülyadır. Çünki Avropa demokratiyasına əsaslanırsınız. Terroru inkar edirsiniz. Sən dərk edə bilmirsən ki, müsavatçı dostum, kütləvi terroru qəbul və tətbiq etmədən Rusiyada və Qafqazda sabit dövlət yaratmaq olmaz. Biz bolşeviklər bütün digər partiyalardan fərqli olaraq, Rusiyada, eləcə də Azərbaycanda vətəndaşları tərbiyə etmək üçün ona kütlə halında təlim verəcəyik, bu təlimata asanlıqla uymaları üçün milləti lazım bildikdə kütlə halında cəzalandıracağıq.

Məhəmməd Əmin: - Koba, 1917-ci il noyabrın 15-də elan olunan "Xalqların hüquq Bəyannaməsi"ni Leninlə birlikdə sən də imzalamısan.

Stalin: - Bəli, imzalamışam. Emin, əziz dost, bu, o zamanın siyasətindən irəli gəlirdi. Rusiya ərazisində milli dövlətlər yaradılmasına güclü meyl olduğu vaxtda bolşeviklər belə də etməli idilər...

Məhəmməd Əmin: - Xalqı aldatmaqmı?

Stalin: - Lazım gəldikdə, bütün dünyanı da aldatmaq olar. Ali məqsədimiz isə, Rusiyanı dünya proletariatının mərkəzinə çevirməkdir. Bundan ötrü mən, millətlər komissarı kimi Rusiya Federasiyasını möhkəmləndirəcəyəm. Yerlərdə proletariat içərisindən çıxmış adamlar rəhbər vəzifələrə irəli çəkiləcəklər. İnqilaba savadlı millətçilərdən daha çox bisavad fayda verər, Sizin Mirbəşir Qasımov kimi...

Məhəmməd Əmin: - Vay millətimizin halına.

Stalin: - Vay yox, toy millətinizin halına! - söylə. Köhnə, Avropaya addımlayan Rusiyadan əsər-əlamət qalmayacaq. Bir Vətən yaranacaq, bolşevizm və kommunizmin beşiyi - Sovetlər İttifaqı! Və nə qədər mən sağam, bu ittifaq var olacaqdır.

Məhəmməd Əmin: - Lakin tarixin məhvərini çox da saxlaya bilməyəcəksiniz. Koba, sənin qurduğun Sovet İttifaqı gec-tez milli dövlətlərə parçalanacaq. İmperiyanın bundan savayı sonluğu yoxdur!

Stalin (*bığlarını buraraq ona baxır*)- Lenin Müsavat liderinin mənimlə dost olduğunu bilsə...

6-cı ŞƏKİL

Moskva. Vağzal. Stalin və Məhəmməd Əmin perronda vargəl edə-edə söhbət edirlər.

Stalin: - Gecədir, şəhər şirin yuxudadır.

Məhəmməd Əmin: - Görəsən, yatanları hansı səhər gözləyir?

Stalin: - Günəşli bir səhər... Eh, Emin, bir qədər qeyri-adi və idealist olsan da, nə etmək olar? Mən səni özümə dost bilmişəm.

Məhəmməd Əmin: - Sən məni Pankratovun əlindən qurtarmasaydın, Allah bilir indi hansı türmədə idim.

Stalin: - Onlar səni türmədə yatmağa qoymazdılar. Çoxdan axırına çıxmışdılar.

Məhəmməd Əmin: - Məni sən xilas etdin, Koba!

Stalin: - Ağlın nə kəsir, Emin, sənin Moskvada olmağın barədə Nərimanov Leninə xəbər verməz ki?..

Məhəmməd Əmin: - Doktor Nərimanov sözü bütöv adamdır. O yaxşı bilir ki, Lenin bu səfərdən xəbər tutmamalıdır.

Stalin: - Emin, ancaq o doktorunuz da sənin kimi millətçidir.

Məhəmməd Əmin: - O, bolşevizmin gələcəyinə inanır, Lenin onun ürəyinin ən dərinliyinə yol tapıb...

Stalin: - Nərimanov Leninin dostudur, sən isə mənim. Fərq bundadır ki, o, materialistdir, sən isə idealist. Açığı, mən onu xoşlamıram...

Məhəmməd Əmin: - Nərimanov sizin ideyaları Şərqdə təbliğ edən bir insandır.

Stalin: - O, daxilən millətçidir. Lenin bunu duya bilmir, mən isə hər şeyi aydın görürəm.

Məhəmməd Əmin: - Düzdür, Nərimanov öz xalqına səadət gətirmək istəyir, amma bu cəmiyyətdə o, heç bir iş görə bilməz.

Stalin: - Nə isə, bu söhbəti cilovlayaq. Tapşırıq vermişəm, sənin üçün yaxşı bir ev tutublar, özü də mənim evimə yaxın olacaqsan. Səni köhnə dost kimi gözüm üstə saxlayacağam ki, nəzərimdən qaçmayasan. Yoxsa millətçiləri başına yığıb bir əngəl açarsan.

Məhəmməd Əmin: - Mən harada oluramsa-olum, Azərbaycan mənimlə olacaq. Onun azadlığı yolunda canımdan keçməyə hazıram.

Stalin: - Azərbaycan bizim şəxsimizdə artıq azaddır. (*Maşın səsi eşidilir. Stalin Məhəmməd Əminlə qucaqlaşır*) İndi isə gəl xudahafizləşək. (*Stalin maşına tərəf gəlir, birdən ayaq saxlayır*) Emin, səndən bir xahişim var. Bədəninə sarıdığın o bayrağı evə çatan kimi oda at yandır...

Məhəmməd Əmin: - Yox, Koba, bu xahişinə əməl edə bilməyəcəyəm.

7-ci ŞƏKİL

Məhəmməd Əminin otağı. O, narahat halda pəncərədən baxır...

Məhəmməd Əmin: - Bayıl türməsində, heç olmasa, soydaşlarımla idim. Doğma yurdun dustaqxanası qürbətin istirahət evindən yaxşıdır. Təklik faciədir. Koba mənim hər addımımı izləyir. Yanıma gəlib-gedənləri güdürlər. Yox, mən ruhdan düşməməliyəm. Əl-qolumdakı zənciri qırmalıyam. Bəsdir ev dustağı oldum, yetər.

(*Cəld çamadanını götürür. Bəzi şeyləri ora atır, sonra ayaq saxlayıb, fikrə dalır. Birdən qapı açılır, içəriyə Məhəmməd Əminin əmisi oğlu Məhəmmədəli daxil olur*)

Məhəmmədəli: - Əmioğlu, xoş gördük.

Məhəmməd Əmin: - Əmioğlu, xoş gəlmisən. Gələndə səni güdmürdülər ki?

Məhəmmədəli: - Deyəsən, güdürdülər. Ona görə Bakı haqqında sonra söhbət edərik. Onu deyim ki, uşaqlar yaxşıdır, hamının gözləri yoldadır ki, sən nə vaxt qayıdacaqsan. Azər dil açıb danışır, "ata" sözünü tez-tez təkrar edir.

Məhəmməd Əmin: - Azərimin dilinə qurban. O, bizim qurduğumuz azad Azərbaycanın yadigarıdır.

Məhəmmədəli: - Azərbaycan mütləq azad olacaq. Xalq 23 ay da olsa, azadlığın nə olduğunu görüb.

Məhəmməd Əmin: - Ürəyim partlayır, əmioğlu, işsiz dayana bilmirəm. Dostlarımızdan heç bir xəbərim yoxdur.

Məhəmmədəli: - Əmioğlu, mən burada çox qala bilmərəm, amma bir neçə bəd xəbər var, gərək sənə deyəm.

Məhəmməd Əmin: - Xoş xəbər çoxdan mənə yaddır.

Məhəmmədəli: - Rica edirəm, soyuqqanlı olasan. Nəsibbəy Yusifbəyli Kürdəmirdə satqınlar tərəfindən qətlə yetirilmişdir. Fətəlixan Xoyski Tiflisdə erməni qatili tərəfindən güllə ilə vurulmuşdur. Həmən qatil bir ay sonra Həsənbəy Ağayevi də qətlə yetirmişdir.

Məhəmməd Əmin: - Bütün bunlar buradan, Moskvadan idarə olunur. Görünür, növbə mənimdir.

Məhəmmədəli: - Ona görə Bakıda mənə tapşırılıb ki, səni Moskvadan Helsinkiyə yola salım. Bu planı həyata keçirmək üçün gəlmişəm.

Məhəmməd Əmin: - Onu düz deyirsən, artıq Moskvada qalmaq təhlükəlidir.

Məhəmmədəli (*Ona göy qovluq verir*): - Bax, sən elmi-tədqiqat işi aparmaq üçün Leninqrada ezam olunacaqsan. Orada tatar dostumuz Musa Cərullah səni qayıqla Fin körfəzindən keçirib Helsinkiyə aparacaq. Bir qədər tatarların koloniyasında qalacaqsan. Sonra mən Bakıda işlərimi qurtarıb

gələcəyəm Helsinkiyə. O biri işlər barədə orada görüşəndə deyəcəyəm.

Məhəmməd Əmin: - Sən buradan çıxanda əynini dəyiş. Qoy izinə düşə bilməsinlər.

(*Məhəmmədəli torbasından bir kostyum çıxarıb göstərir*)

Məhəmmədəli: - Bu barədə fikirləşmişəm... sənin əlindəki qovluqda bütün sənədlərin hazırdır. (*Məhəmmədəli geyinməyə başlayır*)

8-ci ŞƏKİL

Kreml. Stalinin iş otağı. Mikoyan içəri daxil olur.

Stalin: - Yenə nə bəd xəbərlə gəlmisən?

Mikoyan: - İosif Vissarionoviç, bu səfər xoş xəbər gətirmişəm.

Stalin: - Nə olub ki?..

Mikoyan: - Sizin və şəxsən mənim düşmənim Rəsulzadə bu gün səhər alaqaranlıqda Leninqraddan qayıqla Fin körfəzini keçəndə bir neçə müsavatçı tatar yoldaşları ilə vurulmuşlar. Gözünüz aydın olsun!

Stalin: - Bizə lazım olan Müsavat rəhbərləri öldürülmüşdür. Məhəmməd Əmin bizim üçün qorxulu deyil. O, köksüz budaqdır.

Mikoyan: - Yox, İosif Vissarionoviç, köksüz budaqlara yaxşı qulluq edəndə, yarpaq açır.

Stalin: - Siz ermənilər azərbaycanlılardan yaman qorxursuz. Görünür, onların gücü qarşısında acizsiz.

Mikoyan: - Bizim "Daşnaksütyun" partiyasının dünyada artıq özəkləri fəaliyyət göstərir. İndi azərbaycanlılardan qorxmağa heç bir lüzum yoxdur.

Stalin: - Deməli, sən də "Daşnaksütyun" partiyasının üzvüsən?

Mikoyan (bic-bic): - Xeyr, İosif Vissarionoviç. Mən Kommunist partiyasının üzvüyəm.

Stalin: - Bəs nə üçün belə fəxrlə "Daşnaksütyun"un adını çəkirsən?

Mikoyan: - Yəni demək istəyirəm ki, Müsavatın xaricdə fəaliyyəti kimi, "Daşnaksütyun" da öz işindədir.

Stalin: - Sən tülkü olsan da, unutma ki, yanındakı canavardır. Müsavatı susdurmaq siz fikirləşdiyiniz qədər də asan iş deyil...

Mikoyan: - Məhəmməd Əmin onların sonuncu lideri idi. Əgər o da məhv oldusa, demək...

Stalin: - Demək, artıq ermənilər Bakıya doldurmaq olar!

Mikoyan: - Bakıda ermənilər onsuz da çoxdur. Biz ərazi tələblərimizi artıq yavaş-yavaş həyata keçirməliyik.

Stalin: - Əlindəki bağlama nədir?

Mikoyan: - "Ararat" konyakı, icazə versəydiniz, içərdik bugünkü şad xəbərin sağlığına.

Stalin: - Konyakı özün içərsən. Mənim əla "Xvanqkora" çaxırım var.

Mikoyan: - Rəsulzadənin ölümü heç sizi sevindirmir?

Stalin: - Sən sevinirsən də...

Mikoyan: - Deyirsiz konyakı tək içim?

Stalin: - Nə üçün, Kremldə erməni konyakını xoşlayanlar çoxdur...

Mikoyan: - Bunu düz deyirsiz, İosif Vissarionoviç...

Stalin: -Xəbərə görə sağ ol. İndi gedə bilərsən... (*Mikoyan pərt halda çıxır. Stalin qəlyanını yandırır*)

9-cu ŞƏKİL

Fin körfəzinin sahili. Bir balıqçı tilovunu uzadıb suya diqqətlə baxır. Məhəmməd Əmin onunla söhbət edir.

Məhəmməd Əmin: - Hər gün balıq tutmaq sizi təngə gətirmir?

Balıqçı: - Balıq tutmaqdan gözəl iş yoxdur. Ov tilova gələnə qədər elə hey xoş fikirlərə dalırsan. Necə deyərlər, dünyanın bütün dərdindən azad olursan.

Məhəmməd Əmin: - Dünyanın dərdini balıq tutmaqla unutmaq olsaydı, nə vardı ki...

Balıqçı: - Dünyanın dərdini çəkmək sizə tapşırılıb?

Məhəmməd Əmin: - Dünyanı dəyişmək bizə tapşırılıb.

Balıqçı: - Mən qocayam, başım bu torpaqda çox bəlalar çəkib. İndi bu yaşımda özümə balıq tutmağı məşğuliyyət eləmişəm.

Məhəmməd Əmin: - Siz heç azadlıq uğrunda vuruşmusuz?

Balıqçı: - O yaxınlıqdakı şəhidlər qəbristanlığında qardaşım və iki oğlum yatır.

Məhəmməd Əmin: - Mən sizin ölkədə bir aydan çoxdur ki, yaşayıram. Həmişə də bu şəhidlər xiyabanı adamlarla doludur. Mən də hər gün yolumu buradan salıram. Sizin xalqın müstəqilliyi yolunda həlak olmuş şəhidlərə baş əyirəm.

(*Balıqçı bu sözləri eşidən kimi ayağa qalxır. Onlar bir anlıq sükutla şəhidlərin ruhunu yad edirlər*)

Balıqçı: - Eh, sən məni yaman kövrəltdin...

Məhəmməd Əmin: - Mənim xalqım da öz azadlığı uğrunda çox şəhidlər verib. Sən Azərbaycan barədə bir şey eşitmisən?

Balıqçı: - Yalan nə deyim, yox...

Məhəmməd Əmin: - Mən səni başa düşürəm, qoca, biz tanınmağa başlayanda qırmızı terror öz işini gördü. Hər bir xalq dünyada öz azadlığı ilə tanınar, o isə əlimizdən zorla alındı.

Balıqçı: - Sizin də azadlığınızı bolşeviklər boğdular?

Məhəmməd Əmin: - Çünki bizə hərbi qüvvə ilə kömək edəcək ölkə yox idi.

Balıqçı: - Bizim azadlığımıza isə Rusiyanın gücü çatmadı. Çünki qardaş alman xalqı arxamızda mərd-mərdanə durdu.

Məhəmməd Əmin: - Şükür Allaha ki, bu məmləkətdə istiqlal odu sönmədi.

Məhəmmədəli tələsik gəlir.

Məhəmmədəli: - Xoş gördük, əmioğlu! Arxadaşlarımız sənin yerini söyləyən kimi şeyləri orada qoyub, cumdum bura. (*Qucaqlaşıb öpüşürlər*)

Məhəmməd Əmin: - Nə gec gəlib çıxdın?

Məhəmmədəli: - Məndən asılı olmadı. Sən qayıqla Fin körfəzini keçmisən, mən Xəzər dənizini. Rusiyanın yolları üzümüzə bağlıdır. Bizləri yaman güdürlər. Bir də Bakıda sayiələr gəzir ki, səni və dostlarını qayıqda olanda vurublar.

Məhəmməd Əmin: - Xəzərdən bura necə keçmisən?

Məhəmmədəli: - Uzun söhbətdir, sonra danışaram. Yolçu yolda gərək.

Məhəmməd Əmin: - Bura bir azdan səfirlikdən bir yaxın dostum gələcək. Səni onunla tanış edərəm. Çox maraqlı və etibarlı adamdır. Onun vasitəsilə Kobaya məktub çatdırmaq istəyirəm. Sabah Moskvaya yola düşür.

Məhəmmədəli: - Kobaya nə üçün məktub göndərirsən?

Məhəmməd Əmin: - Qoy onlar görsünlər ki, bizi öldürüb, balıqlara yem eləyə bilməyiblər.

Məhəmmədəli: - Aldığımız məlumata görə, Mikoyan Kremldə yaman oyun çıxardır.

Məhəmməd Əmin: - İlahi, görəsən Azərbaycan nə vaxt Şaumyanlardan, Mikoyanlardan canını qurtaracaq?!

10-cu ŞƏKİL

Moskva. Kreml. Stalinin iş otağı. O, Məhəmməd Əminin məktubunu oxuyur. Məhəmməd Əmin onun gözü önünə gəlir – səhnənin başqa bir yerində işıq zolağında görünür.

Stalin: - Eh, Emin, əziz dost. Mikoyan üçün balıqlara yem olan düşmən. (*O gülür. Sonra şkafdan çaxır götürüb qədəhə süzür*). Emin, Anastas sənin ölüm xəbərini eşidəndə erməni konyakı içib, mən də sənin sağ qalmağına görə gürcü şərabı içirəm.

Məhəmməd Əmin: - Möhtərəm Stalin... Qurtuluşum dostlarımı heyrətləndirmişdir. Onlar, təbii, haqlıdırlar. Çoxlarını müsavatçı olduqları üçün güllələdilər.

Stalin: - Sən isə balıqlara yem olmusan. Ha-ha-ha... İyirmi bir dəfə həbsxanadan göz görəsi qaçan Stalinə "fin əməliyyatı"nı həyata keçirmək şərab içmək kimi bir şey idi. (*İçir*) Bax belə...

Məhəmməd Əmin: - Bu saatlar daxilində, adı çəkilən partiyanın rəisi olmaq hesabı ilə mənim qurtuluşum bir növ möcüzə imiş. İnsaf tələb edir, qeyd edim ki, bu möcüzənin səbəbi - kəraməti Sizsiniz, çünki keçmiş dostluğu unutmayaraq, məni Bakı zindanından çıxarmağa lüzum gördünüz.

Stalin: - Sən "Siz" sözünü böyük hərtlə yazmısan. Məni yaşca yox, başca böyük sayırsan? Bax, bu dostluğa varam. İndi icazə ver, bu badəni şəxsən sənin sağlığına içim.

Məhəmməd Əmin: - Moskvadan ayrılarkən sizinlə görüşə bilmədim. Çünki Rusiyanı gizlincə tərk etməyi qərar vermişdim. Bu hərəkətimdə sizə qarşı hörmətsizlik görməyəcəyinizə ümid edirəm. Mən bilirdim ki, Rusiyadan getməyimə icazə verməzdiniz. Qalmağım da mənim üçün mümkün olan iş deyildi. Çünki bu, özümü rədd etmək və əbədi olaraq tam bir fəaliyyətsizliyə məhkum etmək demək idi.

Stalin: - Əziz dost, mən sənə, sovet dövlətinin və bolşevik partiyasının ən barışmaz və qatı düşməninə rəsmən icazə verə bilməzdim. Mən sənə ehtiram bəsləyirəm. Ancaq həyat dostum, əqidə düşmənimsən... Emin, onsuz da Azərbaycanda bir nəfər olsun belə tərəfdarın qalmayacaqdır. Sən Azərbaycandan kənarda qanadsız bir quşsan, göylərə qalxa bilməzsən.

Məhəmməd Əmin: - Yox, Koba, səma üçün yarananların qanadlarını qırmaq olmaz. Mən inanıram ki, yaxın gələcəkdə istək və arzularım ağ göyərçinə dönüb Bakının mavi səmasında uçacaq.

Stalin (*onun məktubunu yandırır*) -Yox, Emin, sənin o ağ göyərçinin qırmızı alovda yanıb kül olacaq.

Məhəmməd Əmin: - Həmən o qırmızı alovun içində özünüz yanacaqsınız.

Stalin: - Çəkil gözümün qabağından. Mən elə edəcəyəm ki, müsavatçıların yer üzündə izi-tozu qalmasın. Buna biz bolşeviklərin gücü çatar...

11-ci ŞƏKİL

Novxanı kəndi. Səlat səsi gəlir. Səlatçı damdan nərdivanla düşür. Məhəmmədəli səhnənin bir küncündə dayanıb əllərini göyə qaldırır.

Məhəmmədəli: - Axund molla Ələkbər, Allah sənə rəhmət eləsin. Bu dünyadan "oğlum Məhəmməd Əmin" deyə-deyə getdin. Nə etməli? İblislər sənin oğlunu vətəndən uzaqlara atdılar. İlahi, bu necə zəmanədir ki, oğul öz atasını son mənzilə ötürə bilmir. İlahi, sən özün bu qədim torpağa nicat yolu göstər, onu bu cəhənnəm əzabından xilas et.

(*Azər ona yaxınlaşır, Məhəmmədəli onu qucaqlayır)*

Azər: - Məhəmmədəli əmi, atam nə üçün belə uzun səfərə çıxıb?

Məhəmmədəli: - Azər, sən indi hər şeyi başa düşən uşaqsan. Ona görə sənə demək istəyirəm ki, biləsən: Atan bu şəhərdə qala bilməzdi, onu düşmənlər öldürərdilər. Ona görə o buradan getməli oldu.

Azər: - Daha kəndimizə qayıtmayacaq?

Məhəmmədəli: - Nə üçün qayıtmayacaq? Qayıdacaq.

Amma qoy bir az sakitlik olsun.

Azər: - Babam həmişə atamı soruşurdu...

Məhəmmədəli: - Allah bu zəmanənin üzünü qara eləsin, atanı oğuldan, oğulu atadan ayırıb.

Azər: - Bəs demişdiz bu səfər gələndə atamla birgə gələcəksiniz, nə oldu?

Məhəmmədəli: - Deməyinə demişdim, Azər, amma atan bura gəlsəydi, onu tutardılar.

Azər: - Atam nə günahın sahibidir?

Məhəmmədəli: - Atan bu ölkəni azad görmək istəyir...

Azər: - Bəs müəllimimiz bizə deyir ki, yaşadığımız ölkə dünyada ən azad ölkədir. Özü də bu azadlığı bizə dahi Lenin gətirib... Dünən müəllim bizə bütün dərsi bu şeiri əzbərlədib:

Böyük ad aldı Lenin,
Dağ tək ucaldı Lenin.
Hər yoxsulun, məzlumun
Dərdinə qaldı Lenin.

Məhəmmədəli (*Nə isə fikirləşir*): - Hə, Azər, sən düz deyirsən. Müəllim nə deyir, ona qulaq as... (*Ah çəkir, sonra gözü yaşlı Azərə baxır*). Nə üçün ağlayırsan?

Azər: - Mənim atam çox uzaqlardadır... Demək, onu görmək bizim üçün çətin olacaq...

Məhəmmədəli: - Atan vətənə qayıdacaq. Onun qaldırdığı bayraq bizim ürəyimizə sancılıb. Eh, nə isə, gedək, tabutu qaldırmaq vaxtıdır...

Azər: - Məhəmmədəli əmi, onda məni atamın yanına apararsan?

Məhəmmədəli: - O əzablı yolları sən gedə bilməzsən. Allah qoysa, bu yaxında atan özü gələr, görərsən.

Azər: - O düşmənlər atamı bura buraxmayacaqlar...

Məhəmmədəli: - Səndən xahiş edirəm, məktəbdə artıq-

əskik danışma. Onsuz da sizin ailənin adı ağırdır.

Azər: - Babamın ruhu qoy şad olsun, atamın da canı sağ olsun. Qoy böyüyüm, özüm gedəcəyəm yanına, deyəcəyəm, ata, mənimlə qayıdaq Novxanıya. Nənəmin, anamın, bacı və qardaşlarımın gözü yoldadır. Sonra üzündən öpüb deyəcəyəm: Ata, bir daha bizdən uzağa getmə...

Məhəmmədəli: - Yaxşı, əmioğlumun sonbeşik balası, gedək babanı son mənzilə tapşıraq...

(*Azər və Məhəmmədəli asta addımlarla səhnədən çıxırlar*)

12-ci ŞƏKİL

İstanbul, "Yeni Qafqaziya" jurnalının redaksiyası. Məhəmmədəli buradadır.

Məhəmmədəli: - Bakıda sənin əleyhinə böyük kampaniya başlayıb. Yaman tuthatutdur. Qorxularından əminin ilinə şəhərdən kəndə heç kəs gəlməmişdi.

Məhəmməd Əmin: - Nə əcəb səni tutmadılar?

Məhəmmədəli: - Tez ayıldım. Gördüm ki, həriflər məni qaralayıblar. Gecəynən İran tacirlərinə qoşulub aradan çıxdım.

Məhəmməd Əmin: - Ürəyim uşaqları yaman görmək istəyir. Ələlxüsus Azəri. Mən evdən çıxanda o yatmışdı. Onun yuxulu gözləri heç vaxt mənim gözümün önündən çəkilmir. Sonbeşik balam necədir?

Məhəmmədəli: - Azər həmişə səni soruşur. Tez-tez ağlayır. Məni də, əmidostunu da haldan salıb ki, atam nə vaxt gələcək.

Məhəmməd Əmin (*halı dəyişir*): - Yaman kövrəltdin məni. Azər balamdan ötəri burnumun ucu göynəyir. (*Birdən*) Bircə onları yanıma gətirə bilsəydim, heç dərdim olmazdı.

Məhəmmədəli: - Sən yaxşı bilirsən ki, bu mümkün məsələ deyil. Qaçaq yolu ilə onları bura gətirmək olmaz.

Məhəmməd Əmin: - Əmioğlu, hər gecə Novxanını yuxuda görürəm. Anamın bişirdiyi təndir çörəyinin ətrini xatırlayanda, quş olub ora uçmaq istəyirəm.

Məhəmmədəli: - İnşallah, qoy sakitlik olsun, gedərik kəndimizə, əncirdən, üzümdən doyunca yeyərik.

Məhəmməd Əmin: - Eh, əmioğlu, bizim qaldırdığımız bayraq Azərbaycana qayıdacaq. Amma Allahdan istəyim budur ki, heç olmasa, tezliklə o günü görək. Balaca Azərim də azad Azərbaycanda yaşasın.

Məhəmmədəli: - İnşallah arzumuza çatarıq.

Məhəmməd Əmin (*ah çəkib*): - Deyirəm, əmioğlu, bir yol tapıb arvad-uşağı bura gətirə bilsəydim... (*Xəyala dalır*) Rəsulu, Azəri Almaniyaya oxumağa göndərərdim. Qızlar da Türkiyədə sənət sahibi olardılar. Sonra isə yenə Bakıya qayıdardıq. Bolşeviklərsiz Bakıya.

Məhəmmədəli: - Eh, əmioğlu, qürbətdə xəyalpərəst olmusan.

13-cü ŞƏKİL

Novxanı. Rəsul atasına məktub yazır. Müsavatçılardan olan cavan bir tacir çay içə-içə gözləyir ki, Rəsul məktubu qurtarsın.

Tacir: - Şəhərdə yaman tuthatutdur. Müsavatçıları bir-bir dənləyirlər. Bu gün axşama qədər gərək qaçım. Yoxsa keçərəm o cəhənnəm çarxının dişlərinə. Deyirəm, nə yaxşı ki, Məhəmmədəli Bakıdan vaxtında getdi.

(*Rəsul məktubu yazıb qurtarır*)

Rəsul: - Belə getsə, şəhərin yarısını tutacaqlar.

Tacir: - Bu bolşeviklər nə qəddar adamdılar... Mən müsavatçı olmuşam, arvad-uşağımın buna nə dəxli var. Deyirlər, guya, müsavatçıları dənləyəndən sonra başlayacaqlar onların ailələrini tutmağa.

Rəsul: - Stalin belə ədalətsiz işlərə yol verməz.

Tacir: - Deyirlər Stalinin biz türklərdən acığı gəlir.

Rəsul: - Biz Stalinə nə etmişik ki?

Tacir: - Bu işdə ermənilərin barmağı var.

Rəsul: - Ermənilər elə tayfadırlar ki, ilanı da yuvasından cıxardarlar. Amma Stalin kimi adam, deyirsən, o dığaların sözünə inanar?

Tacir: - Mən savadsız adamam, nə eşitmişəm, onu da deyirəm. Necə deyərlər, neçəyə almışam, o qiymətə satıram.

Rəsul: - Atama deyərsiz ki, biz bu yerləri qoyub qaça bilmərik. Yol çox əzablıdır. Nənəm xəstədir, qızlar o çətinliyə dözə bilməzlər. Allah qoysa, sakitlik olar, atam özü qayıdar vətənə. Hamımızın adından onu öpərsən. Bir də deyərsən ki, babamızın qəbrini Novxanıda qoyub ayrıla bilmərik. Siz sağ-salamat gedib ora çatın. Bizim sevgilərimizi atama çatdırsaz, xoşbəxt olarıq. Nənəmin, anamın da fikri budur ki, kənddə qalıb onun yolunu gözləyək.

Tacir: - Bizi öz torpağımızdan didərgin salan o iblislərin Allah bəlasını versin. Əşi, biz bu təzə hökumətə nə pislik eləmişik axı?

Rəsul: - Pis günün ömrü az olar. (*Məktubu ona uzadır*) Xahiş edirəm, bu məktubu atama şəxsən çatdırın.

Tacir: - Görək də, tapsalar atamı yandırarlar.

Rəsul: - Necə, deyirsiz ki, axtararlar?

Tacir: - Nə isə, Allah kərimdir, birtəhər keçirərəm.

Rəsul: - Bağışlayın, öyrətmək olmasın, rus pullarının arasında aparın. Onda elə keçməz.

Tacir: - Haradan bilirsən? (*Gülür*) Onlar yerin altını da görür, üstünü də. (*Məktubu alıb cibinə qoyur. Sonra öpüşüb ayrılırlar. Azər əlində tar səhnəyə daxil olur*)

Azər: - Qonaq hara getdi?

Rəsul: - Onlar bu şəhərdən qaçırlar.

Azər: - Belə getsə, Bakıda ruslardan və ermənilərdən başqa

adam qalmayacaq.

Rəsul: - Sən belə işlərə qarışma.

Azər: - Nə üçün qarışmayım? Məgər görmürəm ki, camaat necə əziyyət çəkir. Qaqaş, deyirəm, görəsən, bu gecələrin bir gündüzü olacaq, ya elə əbədi zülmətdə yaşayacağıq?

Rəsul: - Zülmətlər işıqdan qorxur. Atamızın arzuladığı azadlıq günəşi mütləq mavi dənizin bağrından qalxacaq. Onda biz yenə həmişəki kimi Üzeyir bəyin Əhməd Cavadın sözlərinə yazdığı marşını oxuyacağıq. (*Azər asta-asta tək simdə həmən himni çalır. Rəsul özünü itirir*)

Rəsul: - Sən bu himni haradan bilirsən?

Azər: - Anam oxuyanda eşitmişəm.

Rəsul: - Qaqaş, sən Allah, bunu daha heç yerdə çalma. Yoxsa...

14-cü ŞƏKİL

İstanbul. Məhəmməd Əmin əlində məktub Məhəmmədəliyə yaxınlaşır.

Məhəmməd Əmin: - Əmioğlu, mən bu məktubda Rəsulun göz yaşlarının damlalarını gördüm. Ürəyim daha tab gətirmir. Onların yanında olmalıyam.

Məhəmmədəli: - Sən Bakıya gedə bilməzsən. NKVD sənin kölgəni axtarır. Deyirəm, bəlkə mən Almaniyaya yox, İrana qayıdım. Sonra birtəhər Bakıya gedərəm. Əmidostu, uşaqlar məni görəndə, bir az təskinlik taparlar.

Məhəmməd Əmin: - Mən də istərdim ki, sən Bakıya gedəsən.

Məhəmmədəli: - Sən bir dəhşətə bax, bizim vətəndə yadlar at oynadır.

Məhəmməd Əmin: - Əmioğlu, bizim mübarizə davam

edir. Azərbaycan davası hələ gedir. Biz Odlar yurdunu yadların əlində qoymayacağıq...

Məhəmmədəli: - Müsavat Bakıda ürəklərdə yaşayır. Onu əzib ayaqlar altına atsalar da, işığını söndürə bilməyəcəklər.

Məhəmməd Əmin: - Müsavatı qaranlıq zindanlara saldıqca, düz deyirsən, əmioğlu, onun işığı daha çox parlayacaq.

Məhəmmədəli: - Dərd burasındadır ki, yollar get-gedə bağlanır. Bütün İran sərhədlərində Araz boyu tor qururlar. Rus soldatlarının sayı çoxalır. Bakıya isə getmək, orada iş aparmaq çox zəruridir.

Məhəmməd Əmin: - Əlbəttə, sənin Bakıya gedib, orada iş aparmağın yaxşı olardı. Amma nə etməli? Bilərəkdən qırmızı təkərin dişlərinə keçmək də ağılsızlıqdır. Sən bir zəmanəyə bax, Allah! Bu zalım bolşeviklərin əlindən atamın dəfninə belə gedə bilmədim. Xəstə anamın dərdi bağrımı yarır. Qızlarım, oğlanlarım üçün, ömür-gün yoldaşım üçün, kəndimiz üçün hicran əzabına dözürəm.

Məhəmmədəli: - Məni yandıran budur ki, utanmaz-utanmaz da bəyan edirlər ki, biz bolşeviklər Azərbaycan xalqına azadlıq vermişik...

Məhəmməd Əmin: - Budur onların azadlığı, atanı baladan, balanı atadan ayırmaq. İlahi, Yer üzündə bu nahaq işlərə sən necə dözürsən?

Məhəmmədəli: - Azadlıq sözü döndü fəryada. Bu fəryad səsimizi eşidib ana torpağımıza səadət gətir, ilahi...

15-ci ŞƏKİL

Mustafa Kamal Atatürk Sarayı. Məhəmməd Əmin, Məhəmmədəli frak və sürtukda əyləşib, Azərbaycan dərdi barədə söhbət edirlər.

Atatürk: - Azəri torpaqları qədim türk torpaqlarıdır. Biz bir xalqıq. Mən çox sevinirəm ki, siz Bakı ilə sıx əlaqədəsiniz. Qurtuluş çarələrini sizin kimi ziyalılarla birgə aramağa, təmin etməyə çalışacağıq.

Məhəmməd Əmin: - Mənim İstanbulda nəşr etdiyim "Odlar yurdu" dərgisi xalqımın ağrıları, onların yalançı demokratiya bayrağı altında necə əzab çəkmələri barədə məqalələr, sənədlər ilə çıxış edir.

Məhəmmədəli: - Bu qəmli səsləri biz bütün türk dünyasına çatdırmaqla, inanırıq ki, istiqlal günü çox da uzaqda deyil. Xalq bolşeviklərin yalançı vədlərinin puça çıxdığını görəndən sonra onun qarşısını almaq olmaz.

Məhəmməd Əmin: - Şimalın soyuq buzları Müsavatın haqq səsini dondura bilməyəcək.

Məhəmmədəli (*Cibindən qəzet çıxarıb Atatürkə oxuyur*): - Budur, Bakıda bolşevik qəzetləri görün nə yazır: "Müsavatçıların lideri Məhəmməd Əmin Rəsulzadə İstanbul küçələrində qohumu Məhəmmədəli ilə birgə qışqırırlar ki, guya Azərbaycanın həqiqi müstəqilliyinin müdafiəçiləri olublar və hələ çar dövründən bu ideyanı irəli sürüblər".

Məhəmməd Əmin: - Biz böyük türk xalqının səadətinə və şəxsən sizin himayənizə inanırıq.

Atatürk: - Buna əmin ola bilərsiniz... Türk xalqı əsrlərdən bəri azad və müstəqil yaşamışdır. Türklər istiqlaliyyəti bir yaşayış zərurəti hesab edən millətin qəhrəman övladlarıdır. Azəri türkləri də öz azadlığı uğrunda Azərbaycan davasını əzablı yollarla da olsa aparmalıdır.

Məhəmməd Əmin: - Nə qədər ki Azərbaycan yaşayır, deməli, onun davası da gedəcəkdir.

Atatürk: - Emin əfəndi, mən inanıram ki, Türkiyənin Sovetlər Birliyi ilə imzaladığı dostluq müqaviləsi böyük türk xalqına olan inamınızı zəiflətməz.

Məhəmməd Əmin: - Mən heç bir vaxt sizdən narazı qala bilmərəm. Hər bir ölkənin öz siyasəti var.

Məhəmmədəli: - Gör bolşeviklər bizdən nə qədər qorxur ki, bu müqaviləyə Türkiyədəki mühacirlərin ölkədən çıxarılmasını da salıblar...

Atatürk: - Dövrün, şəraitin mürəkkəbliyini nəzərə alaraq Sovetlər Birliyi ilə yaxınlığa hələlik məcburuq. Bu yaxınlıq heç də mənim Rusiyaya, yaxud kommunist rejiminə məhəbbətimdən irəli gəlmir. Yox, Emin, mən kommunist rejiminə nifrət edirəm. Mənim mövqeyim həmişə türk milliyyətçiliyinin keşiyində dayanmaqdır. Türk şərəfi, türk heysiyyəti hər şeydən yüksəkdir.

Məhəmməd Əmin: - Sizin bolşeviklərə münasibətiniz bizə çoxdan məlumdur.

Atatürk: - Sovet diktatoru Stalinin ünvanına rus səfirliyində mən öz fikrimi bildirib demişəm: "Bunu unutmaq lazım deyil ki, böyük türk millətinin düşməni kommunistlikdir".

Məhəmmədəli: - Bolşeviklər türk qapısını üzümüzə bağlamaqla bizi susdurmaq istəyirlər. Amma taleyin bu acı hökmünə də dözmək lazımdır.

Atatürk: - Bir ulu Tanrı bilir ki, mən sizləri Türkiyədən yola salmaq istəməzdim.

Məhəmməd Əmin: - Bunu biz bilirik...

(*Xidmətçi məcməyidə qəhvə gətirir. Hər üçü kiçik dəyirmi stol arxasında əyləşirlər*)

Atatürk: - Emin bəy, mən dünyaya səndən üç sənə erkən göz açmışam. Ancaq bütün türk aləmində türkün istiqlal bayrağını sən qaldırmısan. Enməz demisən bu bayraq, enməyəcəkdir! Millətlərin dustaqlığı üzərində qurulmuş dövlətlər hər yandan yıxılmağa məhkumdur.

Bayaq qeyd elədiyim kimi, rus səfiri ilə çoxlu mübahisələrim olub. O, Emin bəy, sənin köhnə kommunist dostun Stalinə əsaslanıb iddia edirdi ki, Azərbaycanda müstəqil türk cümhuriyyətinin qalması qanunauyğun deyildi. Çünki Türkiyə

dövləti vardır. Mən ona tarixi faktlarla başa saldım ki, demokratik müstəqil dövləti millətin özü təşkil edir. Dünya türkləri arasında Azərbaycan türklərinin, sənin təbirincə, azərbaycanlıların öz şərəfli yeri vardır. Dünya mədəniyyətini azərbaycanlılarsız təsəvvür etmək olmaz. Bunu göstərmək kifayət deyilmi ki, ilk türk dramaturqu azərbaycanlı, ilk türk bəstəkarı azərbaycanlı, Rusiya türkləri arasında ilk qəzet yaradıcısı azərbaycanlı, əlifba islahatını ilk düşünən azərbaycanlı, nəhayət, İslam aləmində ilk dəfə cümhuriyyət elan edən də azərbaycanlılardır. Ona görə də, Emin bəy, sənin kommunist dostunun (*gülümsünürlər*) başçılıq etdiyi Rusiya kommunist rejimi Azərbaycanın millət bayraqdarından və onun arkadaşlarından indi də qorxmaqdadır. Lakin Türkiyədə sizlərin başından bir tük də əksilməz. Mən sizləri Türkiyəyə dost olan bir ölkəyə - Almaniyaya yola salıram.

Məhəmmədəli: - Əfəndim, bəzi qəzetlərin araqızışdıran yazılarına fikir verməyin. Biz sizdən incimirik. Bayaq qeyd olunduğu kimi, Rusiyanın siyasətini başa düşürük.

Atatürk: - Ancaq türk millətini dustaq etmək istəyən hər hansı bir millətin bu arzusundan vaz keçincəyə qədər amansız düşməniyəm. (*Telefon zəng çalır. Atatürk dəstəyi qaldırır*) Eşidirəm. Almaniyaya uçan hərbi təyyarə hazırdır? Mühafizəni gücləndirin.

Məhəmməd Əmin: - Himayənizə görə çox minnətdarıq.

Atatürk: - Emin bəy, səndən bir qardaş kimi şəxsi xahişim vardır. Mən vaxtilə Türkiyənin Sofiyada attaşesi olanda, Hilda adında bir alman qadınının evində kirayənişin qalmışam. Avropa savadı almış bu dul xatunun babası türk olmuşdur. Leanda adlı bir qızı Sofiya Universitetinin türkşünaslıq fakültəsində oxuyurdu. Türklərin vurğunudur.

Mən o çocuğu Leyla deyə səsləyirdim... Hazırda Polşada yaşayırlar. Ünvanı bu zərfin üstündə alman dilində yazmışam. Yolun Polşaya düşsə, bu zərfi onlara çatdırarsan. İçərisində

mənim əksim, məktubum vardır. Bu iki boyunbağını da onlara hədiyyə edərsən, biri mənim, o biri sənin adından...

(*Boyunbağıları Məhəmməd Əminə verir. Qucaqlaşırlar və sanki bir-birlərindən qopub ayrılmaq istəmirlər*).

16-cı ŞƏKİL

Novxanı. Axşamdır. Azər həyətlərində bir küncdə tarda çalır. Rəsul onun qəmli-qəmli tar çalmağına qulaq asır.

Rəsul (ona yaxınlaşır): - Qaqaş, son günlər tarı ağlatmaq istəyirsən?

Azər: - Tarzən qəmli olanda, simlər nalə çəkməzmi? Qonşumuzun atasını gecə gəlib apardılar NKVD-yə... Ora düşən, deyirlər, çətin bir də qayıda. Deyirəm, a qaqaş, bu nə zəmanədir biz yaşayırıq? Hamı bir-birindən qorxur. Hətta bu tarı da qorxa-qorxa çalıram... Babalardan bizə yadigar qalan tarı nə üçün yasaq eləyirlər?

Rəsul (*istehza ilə*): - Deyirlər keçmişin qalığıdır... "Oxuma, tar! Oxuma, tar! Səni sevmir proletar".

Azər: - Proletar yazığın tarla nə işi var, bunu ancaq kommunistlər belə deyə bilər... Qaqaş, o gün müəllimimiz qorxa-qorxa bizə dedi ki, Sovet hakimiyyəti əleyhinə artıq-əskik danışmayın. Sonra üzünü mənə tutdu: Sənin atan Müsavatın lideri olub, sən heç məktəbə gəlməsən yaxşıdır. Uşaqlar qorxur sənlə danışmağa, ağzından od yağır.

Rəsul: - Qələt eləyir sənin müəllimin. Stalin yoldaş deyib ki, oğul ataya cavabdeh deyil. Atamızın əqidəsinə görə bizi tuta bilməzlər.

Azər (*sakitcə*): - Rəsul, nə qədər gec deyil sən gəl anamı, nənəmi başa sal, buradan İrana, oradan da bir təhər keçərik Türkiyəyə, atamın yanına.

Rəsul: - Stalinin gizli göstərişinə görə Türkiyədə olan azərbaycanlılar oradan çıxmalıdır.

Azər: - Bəs onda atam hardadır?

Rəsul: - Hələlik bir xəbər yoxdur. Məhəmmədəli çoxdandır susur.

Azər: - Bəs türk hökuməti öz qardaşlarını nə üçün orada saxlaya bilmir? Axı bizim qanımız bir, kökümüz birdir.

Rəsul: - Asta danış, Azər. Sən bilməlisən ki, hər dövlətin öz siyasəti var. Bu da bir siyasətdir. Atatürk heç bir vaxt biz azəriləri köməksiz qoymaz. Görünür, bu, müvəqqəti haldır.

Azər: - İndi, görəsən, atam hardadır?

Rəsul: - Məhəmmədəlidən mütləq bu yaxınlarda bir xəbər gəlməlidir.

Azər: - Rəsul, deyirəm, sən yaman xoşbəxtsən.

Rəsul: - Hansı xoşbəxtlikdən danışırsan?

Azər: - Sənin, heç olmasa, atam yadına gəlir. Mən isə heç onun şəklini belə görməmişəm.

Rəsul: - Nə eləyəsən, anamız bolşeviklərin qorxusundan atamızın bütün şəkillərini yandırdı...

Azər: - Bilirsən ən böyük arzum nədir?

Rəsul: - Allah səni bütün arzularına çatdırsın.

Azər: - Amin! İstəyirəm atamın portretini çəkim. Neçə dəfə anama demişəm ki, sən onun görkəmini təsvir et, mən də xəyalımda onun şəklini canlandırım...

Rəsul: - Anam nə deyir?

Azər: - Həmişə atamdan danışanda hönkür-hönkür ağlayır... Ona görə atam barədə ondan daha heç bir şey soruşmuram.

Rəsul: - Yaxşı eləyirsən. Onsuz da bu dərdlər onu vaxtından tez qocaldıb.

Azər: - Rəsul, sən bilən bizi tutmazlar?

Rəsul: - Axı bizim nə taxsırımız var ki, tutsunlar?

Azər: - Qonşularımız da artıq bizə düşmən kimi baxırlar. Adama salam verməkdən də qaçırlar.

Rəsul: - Hər iş düzələr, sən fikir eləmə.

Azər: - Yox, qaqaş, mən səndən kiçik olsam da, onu demək istəyirəm ki, bu işlər heç düzələnə oxşamır.

Rəsul: -Sən ümidini itirmə...

(*Birdən darvaza qapısı döyülür*)

Azər: - Görəsən, belə gec kimdir bizə gələn?

Rəsul: - Aç, bəlkə, Allah kərimdir, Məhəmmədəli əmimizdir...

(*Azər qaçaraq gedir. Rəsul onun dalınca baxır. Birdən Azər özünü itirmiş halda daxil olur*)

Azər: - Qaqaş... Qaqaş, səni istəyirlər.

Rəsul: - Kimdir?

Azər: - Soruşdum, demədilər. Qapının ağzında səni gözləyirlər.

Rəsul: - Nənəmə, anama hələlik heç nə demə.

Azər: - Görəsən, bunlar səndən nə istəyirlər?

Rəsul: - Ağlama, söhbət edib buraxacaqlar. Burda nə var ki?

Azər: - Qorxuram, qaqaş, onlar ikisi də bayquşa oxşayırlar.

Rəsul: - Görünür, nə isə bir vacib işləri var. Tez gedib qayıdaram. Dediyim kimi elə, evdəkilər bilməsinlər. Bir azdan qayıdaram.

Azər: - Qoy mən də gedim səninlə.

Rəsul: - Sən evdə qal, dedim ki, qorxma... Hələlik...

Azərin gözləri yaş içindədir. O, birdən özünü itirmiş halda qapıya tərəf qaçır. İşıq zolağı tənha tara tərəf yönəlir. Biz həmən tarın simlərindən qopan fəryad səsini eşidirik.

17-ci ŞƏKİL

Bakı. Azərbaycan SSR Xalq Daxili İşlər Komissarığında. Qriqoryanın kabineti. Markaryan daxil olur.

Markaryan: - Yoldaş komissar, Novxanı əməliyyatı artıq başa çatdı. Rəsulzadənin ailəsinin və qohumlarının Qazaxıstanda qəbirləri qazılacaq və sonra da (*gülür*) müsəlman olduqlarından yerlə-yeksan olacaqlar.

Qriqoryan: - Şaumyanın ideyalarını həyata keçirmək bizim üzərimizə düşüb, baş leytenant. Biz böyük Ermənistanı yaratmaqdan ötrü türkləri diplomatik yolla yer üzündən silməliyik. Hər bir erməni bu barədə fikirləşməlidir. Daşnaksütyunun ideyaları həyata keçəcək. Amma bir az gözləmək lazım gələcək.

Markaryan: - Ermənistan dünyada ən qüdrətli ölkə olacaq.

Qriqoryan: —Baş leytenant, gəl onda bu sağlığa içək.

Markaryan: - Nə içək?

Qriqoryan: - Əlbəttə, Ermənistanın şöhrəti olan konyak. (*Şkafın gözündən konyak götürüb, Markaryana verir*)

Markaryan: - Bunu içək, komissar, siz deyən sağlığa.

Qriqoryan (içir): - Hə... Anastas İvanoviç sənə şəxsən salam göndərib. Arzusu budur ki, xalq düşmənlərinin kökünü Azərbaycandan tez bir zamanda kəsək.

Markaryan: - Bu cəhənnəm təkərinin açarı bizdədir. Sallaqxanaya minlərcə qoyunu yola salan kimi bu müsəlmanları bıçaq altına göndərməyə hazıram...

Qriqoryan: - Bunu da içirəm sənin cəsarətinin şərəfinə, baş leytenant!

Markaryan: - Ermənistan quluyam, onun yolunda canımdan keçməyə hazıram.

Qriqoryan: - Baş leytenant, Avropada müsavatçılar sən bilən nə qədər olar?

Markaryan: - Xeyli var. Amma ən qorxulusu Rəsulzadədir.

Qriqoryan: - Sən demək istəyirsən ki, müsavatçıların lideri Avropada dinc dayanmır?

Markaryan: - Aldığımız məlumata görə əmisi oğlu ilə birlikdə Azərbaycan davasını davam etdirirlər.

Qriqoryan: - Bu onların xam xəyalıdır. Azərbaycan yoxdur. Ona görə belə bir davanı aparmaq ağılsızlıqdır.

Markaryan: - Düz buyursunuz, yoldaş komissar.

Qriqoryan: - Rəsulzadənin əmisi oğlunun da ailəsini bu yaxınlarda yola salmaq lazımdır.

Markaryan: - Baş üstə, yoldaş komissar.

Qriqoryan: - Rəsulzadənin murdar oğlu Rəsul barəsində ayrı bir planım var. Bizim kilsənin yanında olan evlərini ələ keçirmək istəyirəm.

Markaryan: - Üzr istəyirəm, yoldaş komissar, ev sizin nəyinizə gərəkdir?

Qriqoryan: - Mən onu məşuqəm Emma üçün düzəltmək istəyirəm. Bir də orada, kilsənin yanında musurmanın nə ölümü var. Elə eləmək lazımdır ki, Bakının mərkəzində yalnız ermənilər yaşasın. Anastas İvanoviçin əsas tapşırıqlarından biri də budur. Qoy yaxşılıqla taxsırını boynuna alsın. Rəsul canını sürgünlə qurtara bilməz. Onu daha şiddətli cəza gözləməlidir. Onu - müsavatçı liderinin murdar toxumunu cücərməyə qoymaq olmaz.

Markaryan: - Hər şey aydındır, yoldaş komissar.

Qriqoryan: - Gedin işləyin, yoldaş baş leytenant.

Markaryan: - Oldu, yoldaş komissar...

(Markaryan gedir. Qriqoryan konyak süzüb içir)

18-ci ŞƏKİL

Qazaxıstan. Kiçik bir otaq. Divarda Azərin çəkdiyi şəkillər asılıb. O, dəstə rəhbəri Marinanın şəklini çəkir.

Azər: - Marina, yorulmadın ki?

Marina: - Yorulmağına yorulmuşam. Amma heç vaxt işsiz bu qədər oturmamışam.

Azər: - Bir az da döz, bəlkə bu gün qurtardım.

Marina: - Hə, bicin biri bic. Elə bilirsən mən başa düşmürəm. Sən bilə-bilə portreti uzadırsan ki, mən tez-tez sizə gəlim.

Azər: - Düz tapmısan. Həm ona görə, həm də istəyirəm sənin portretini Bakıya qayıdanda muzeydə nümayiş etdirim.

Marina: - Deməli, sən mənim portretimi muzey üçün işləyirsən?

Azər: - Çox tərpənmə. Hə, bax belə... Mən sənin gözəl xasiyyətini də gözəl çöhrənlə birləşdirmək istəyirəm.

Marina: - Adi xaxol qızıyam. Mənim haram qəşəngdir ki?

Azər (*Fikirləşmədən*): - Bizim Xəzər dənizi kimi mavi gözlərin var...

Marina: - Elə istəyərdim Xəzərdə çiməm...

Azər: - Qoy bəraət qazanaq, səni kəndimizə qonaq aparacağam. Bizim bağda bal kimi əncir-üzüm var. Doyunca yeyəndən sonra gedərik dəniz qırağına.

Marina: - Deyirəm belə dərd olar, atalarımıza görə biz əziyyət çəkirik.

Azər: - Əgər mən doğrudan da atamı düşmən bilsəydim, ölümə də razı olardım. Eh, mən də sənin kimi anlamıram ki, axı bizim atalarımızın nə günahı olub?

Marina: - Sənin atanı nə üstündə tutublar?

Azər: - Onu tutmayıblar, Bolşeviklərin əlindən qaçıb xaricə.

Marina: - Azər Mamedoviç, siz, bolşeviklər barədə xahiş edirəm, pis sözlər danışmayın.

Azər: - Sənin atanı kim güllələyib? Onun taxsırı nə idi?

Marina (*Gözləri yaşarır*): - Bilmirəm...

Azər: - Heç bilməyəcəksən də... Onlar azadfikirli hər bir adamı yox eləməyə hazırdılar. Ancaq unudurlar ki, zorakılıqla dövləti idarə etmək olmaz.

Marina: - Azər, xahiş edirəm, sakit danış. Deyirlər, divarın da qulağı var.

Azər: - Nə qədər ki, biz belə qorxu içərisində yaşayacağıq, divarların qulaqları çoxalacaq, Marina, kommunistlərin qəddar qərarları məni sarsıdır. İstəyirəm özüm Stalinə məktub yazam. Yazam ki, mənim qoca nənəmin, xəstə anamın, bacılarımın taxsırı nədir ki, bizi bu səhraya sürgün etmisiniz?!

Marina: - Sən düz deyirsən, Azər, Stalinin bəlkə də bu dəhşətlərdən xəbəri yoxdur.

Azər (*Fikrə gedir*): - Amma inanmıram ki, belə böyük ölkənin ulu rəhbəri heç bir şey bilməsin.

Marina: - Azər, bilmirəm, nədənsə Stalini çox istəyirəm, inan ki, onu görsəm, qucaqlayıb boynuna sarılaram.

Azər: - Mənim də Stalinə hörmətim var, bəs o nə üçün bu haqsızlığın qabağını ala bilmir?

Marina: - Görünür, onu da aldadırlar.

Azər: - Stalin kimi dahi rəhbəri aldatmaq olar? Yox, Marina, SSRİ deyilən bu böyük ölkə çox mürəkkəb, anlaşılmaz bir üsuli-idarə üzərində qurulub. Mənə elə gəlir ki, yaxın gələcəkdə xalq hər şeyi anlayacaq və öz azadlığı uğrunda mübarizə aparacaq.

Marina: - Siz səhv edirsiniz, Azər Mamedoviç. Bizim ölkə Yer üzərində yeganə azad, bəxtiyar ölkədir.

Azər: - Ona görə biz bu səhrada kimsəsizlər kimi qohum-əqrəbadan uzaq düşmüşük?

Marina: - Mən səni başa düşürəm. Görünür, bizi səhvən bura sürgün ediblər. Amma çoxusunun taxsırı var. Baxarsan, Stalin yoldaş bu yaxında hamımıza bəraət qazandıracaq. Onda mən də sənlə birlikdə Bakıya qonaq gedəcəyəm, sonra sən ananı götürüb bizə qonaq gələrsiz.

(*Qapı döyülür. Azər gedib qapını açır. Marina oğrun-oğrun baxa-baxa şəklə yaxınlaşır. Birdən Azərin hönkürtü səsi eşidilir*)

Azər: - Ana... Ana...

Marina: - Azər, sənə nə oldu?

Azər (*Dəlicəsinə, geyinərək*): - Anam evə gələndə qəflətən vəfat edib. (*Azər cəld otaqdan çıxır. Marina əlini göyə qaldırır*)

Marina: - İlahi, belə qəşəng, kövrək oğlanın başına niyə görə belə bəlalar gəlsin? Yalvarıram sənə, İlahi, özün ona kömək ol. Bizlərə bu boş səhrada bir səadət bəxş eylə, sənin unutduğun bu yerlərdə onsuz da yaşamaq olmur... Ey ulu Tanrı, bu xata-bəladan bizi hifz elə. Azərə səbr ver...

19 - cu ŞƏKİL

Markaryanın kabineti. İçəriyə işgəncələr verilmiş Rəsul daxil olur.

Markaryan: - Xoş gördük, demokratik respublikanın varisi. Atan Azərbaycan xalqına azadlıq istəyirdi. Onun müstəqil Azərbaycan ideyası sizin xalqın əksər oğlan və qızlarını qaranlıq zindanlara atdı.

Rəsul: - Mənim atam xalqıma əsl azadlıq istəyirdi. Sizin isə qurduğunuz cəmiyyət bütün xalqları kölə halında zorla öz ətrafında birləşdirib.

Markaryan: - Sən böyük Stalinin ideyalarını zorakılıq kimi qiymətləndirirsən?

Rəsul: - Siz Stalini tez-tez əlinizdə bayraq edib, öz bəd əməllərinizi həyata keçirirsiniz.

Markaryan: - Biz qurbanlar bahasına qurduğumuz bu ölkəni sizin kimi xalq düşmənlərinin əlinə heç bir vaxt verməyəcəyik. Əksinə, sizi bu torpaqda bir-bir dənləyəcəyik.

Rəsul: - Dimdiyiniz qırılar, biz çoxuq və nəhəngik. Sərçələrə dən olmarıq. İradəmizi qıra bilməyəcəksiniz. Qəlbimizin dərinliyində azadlıq günəşi parlayır. Çox keçməz ki, onun şüaları sizin gözünüzü kor edər və üçrəngli bayrağımız yenə də Azərbaycan göylərində dalğalanar.

Markaryan: - Rəsul Mamedoviç, siz bu dediklərinizi yalnız kamerada yatanda yuxuda görə bilərsiniz.

Rəsul: - Bu yuxu çin olacaq...

Markaryan: - Bədbəxt atan da yəqin ki, Avropada sən deyən nağılları yuxuda görür.

Rəsul (*hirsli*): - Əvvəla, bədbəxt mənim atam yox, sizlərsiniz. O heç olmasa, azadlığın nə olduğunu bilir. Siz isə rusun qab dibi yalayan nökərlərisiniz.

(*Markaryan ona yaxınlaşıb var gücü ilə yumruq vurur. Rəsul döşəməyə yıxılır*)

Markaryan: - İlanın balası elə ilan olar.

Rəsul (*Başını qaldırır*): - Elədir, siz azadlığa ilan kimi baxırsız. Amma gec-tez bu ilan hamınızı birdən çalacaq!

Markaryan: - Sən atandan da dəhşətlisən.

Rəsul: - Ot kökü üstə bitər. Atamın ideyaları mənimlədir. Məni onlardan ayıra bilməzsiniz.

Markaryan (*Gülərək*): - Nənən, anan, qardaşın, bacıların Qazaxıstan çöllərində şaxtadan donub ölüblər. Allah onların hamısına rəhmət eləsin. Allah sənə də ağıl versin.

Rəsul: - Mənim ağlım başımdadır.

Markaryan: - Mən bunu görmürəm...

Rəsul: -Siz kor və zəlilsiniz. Mənim sizə yazığım gəlir...

Markaryan: -Ara, yazığın zırpısı sənsən. Qulaq as. Sən bu kağıza qol çək, mən sənə kömək eləyim, çıx get Çimkəndə. Onların hamısını orada basdırıblar. Nə qədər istəsən ağla... Hə, onu sənə çatdırım ki, Bakıdakı sonuncu qohumun Şəhrəbanu dünən ürək xəstəliyindən ölüb.

Rəsul: - Siz bizi qırmaqla öz bəd əməllərinizi gizlədə bilməyəcəksiniz.

Markaryan:- Onu da bil ki, atanı bu gün və ya sabah aradan götürəcəyik.

Rəsul: - Buna sizin gücünüz çatmaz.

Markaryan (*qışqırır*): - Çatar, ilan balası...

Rəsul: - Əgər səndə bir balaca insanlıqdan nə isə varsa, öldür məni.

Markaryan: - Yox, Rəsul, sən yaşamalısan. Amma bir şərtlə.

Rəsul: - Sizin şərtiniz mənə lazım deyil.

Markaryan: - Bu sənədlərə qol çəkməlisən, Rəsul, sənin başqa çıxış yolun yoxdur.

Rəsul: - Əgər siz məni indicə burada güllələməsəz, mən aclıq elan edib özümü öldürəcəyəm.

Markaryan: - Ölmək nəyinə gərəkdir? Bu sənədə qol çəksən, komissar səni yaxşı bir erməni qızı ilə evləndirər, kefə baxarsan.

Rəsul: - Siz nə qədər rəzil adamsız!

Markaryan (*yumşaq*): - Rəsul, istəyirsən oxuyum, qulaq as.

Rəsul: - Lazım deyil, oxumayın. Onsuz da qol çəkən deyiləm.

Markaryan: - Qulaq as: "Mən, Rəsulzadə Rəsul Məhəmməd Əmin oğlu Azərbaycanda əksinqilabçı ünsürlərin ilhamçısı, Müsavat lideri Rəsulzadəyə lənət yağdırıram, ata kimi ondan imtina edirəm. Xahiş edirəm ki, Kommunist partiyası sıralarına keçməyimə, həmçinin NKVD orqanlarında fəaliyyət göstərməyimə şərait yaradasız". Hə, burada nə pis şey yazılıb ki? Hə, gəl, bax burdan qol çək.

(*Rəsul asta-asta ona yaxınlaşır. Kağızı götürür. Sonra birdən cırıb, qırıntılarını Markaryanın sifətinə çırpır*)

Rəsul (*onun üzünə tüpürərək*): - Tfu sənə, alçaq!

(*Markaryan tapançasını çıxarıb, onu vurur. Sonra dəstəyi qaldırır*)

Markaryan: - Gəlin, bu ilan balasının meyidini aparıb dənizə atın, ölüm hökmünü sonra hazırlayarsınız. (*Hirsli halda dəstəyi asır*)

20-ci ŞƏKİL

Qazaxıstan. Azərin otağı. O, çəkdiyi ana portretinə baxır. Göz yaşları onu boğur. Marina da buradadır.

Azər: - Ana, səni, nənəmi qürbətdə torpağa tapşırmaq məni yandırıb yaxır. Görəsən, bu nahaq qanlar tökən cəlladlar öz əməllərindən qorxmurlarmı? Yad torpaqlar bizə məskən olub. Öz doğma torpağımız isə özgələrin qismətinə çevrilib. Vətənimdə vətənsiz olub bu səhralara atılmışam. Ana, mən sənin laylanla böyüdüm. Mənim dayağım, ümidim olan anam, artıq səni də itirdik.

Marina: - Azər Mamedoviç, özünüzü ələ alın. Çox dərd çəkməyin, yoxsa, Allah eləməsin, bir xəstəlik taparsız.

Azər: - Bu, sonu qaranlıq dünyada yaşamağın nə mənası, Marina?

Marina: - Hər bir qaranlıq gecənin sonu səhərdir. Mən günəşli səhərin gələcəyinə inanıram.

Azər: - Bu cəhənnəmdə bizə təsəlli sənin dediyin səhərdir. Görəsən, nə vaxt açılacaq o səhər?

Marina: - Azər Mamedoviç, bilirəm, bu günlər fırça götürüb işləmək sənə ağırdır. Ancaq nə etmək olar, həyat davam edir. Dirilər gərək elə yaşasınlar ki, ölülərin ruhu şad olsun.

Azər: - Marina, sən bununla nə demək istəyirsən?

Marina: - Azər Mamedoviç, raykomun birinci katibi mənə tapşırdı ki, sən onun kabineti üçün Stalinin portretini çəkəsən.

Azər: - Məktəbdə direktorun kabineti üçün çəkdiyimi verin ona.

Marina: - Direktorumuz heç bir vaxt o portreti çıxarıb verməz.

Azər: - Məktəb üçün təzəsini çəkərəm...

Marina: - Mən onu da katibə demişəm ki, beş-on günə

hazır olar.

Azər: - Yaxşı, Marina, qoy sən deyən olsun.

(*Kiçik pauza*)

Marina: - Azər Mamedoviç, dünən məktəbdə kənd sovetinin sədri dedi ki, köhnə müsəlman qəbristanlığının yerində park salacaqlar. Kim istəyir, ölüsünü başqa yerə aparsın.

Azər (*özünü itirmiş halda*): - Mən əzizlərimi hara apara bilərəm?

Marina: - Bəlkə xristian qəbristanlığına köçürək? Mənim babamın yanında yer var.

Azər: - Axı müsəlman adət-ənənəsinə görə bu, günahdır.

Marina: - Allah birdir, məncə burada heç bir günah iş yoxdur. Yaxşı, mən gedim, məktəbdə işim var. Siz isə Stalinin portretini tez çəkin. Raykom sizə yaxşı pul verəcək.

Azər: - Oldu, Marina, bu gün başlayaram.

Marina: - Sağ olun... (*gedir*)

(Azər nənəsinin, anasının şəkillərinə həyəcanla baxır və sonra hələlik heç bir şey çəkilməyən boş ramkaya yaxınlaşır)

Azər: - Allah sizə rəhmət eləsin. Bircə atamın da fotosunu tapa bilsəydim, portretini nənəmin portretinin yanından asardım... Sənin gözlərin nə rəngdə idi, ay ata? Qaşların çatmaydımı? Saçların qıvrımdımı, ay ata? Necə gülürdün, ay ata? Bizim başımıza gələn bu müsibətləri görsəydin, neynərdin, ay ata? Nənəm rəhmətlik deyərdi ki, sən son dəfə evdən gedəndə mən yatmışdım. Ey mənim gözümün nuru, əgər mən bilsəydim ki, sənin o gedişin son gedişindir, səhərəcən yatmazdım, ay ata. Heç olmasa, bir dəfə səni görərdim, ömürlük bəsimdi. Ay ata, nə olar, yalvarıram sənə, yuxularıma gəl. Gəl ki, adını Azər qoyduğun biçarən sənin də portretini çəkə bilsin. Ata, mən rəssam möcüzəsi yaradacağam. Sənin şəklini ürəyimin döyuntüsünə qulaq asa-asa xəyalımın fırçası ilə çəkəcəyəm. Çəkəcəyəm... (*Gözləri yaşarır. Sonra fırçanı götürür və boş ramkada işləməyə başlayır*)

21-ci ŞƏKİL

Varşava. Polşa hökumətinin binası. Məhəmməd Əmin burada köməkçisi ilə bir otaqda, masa arxasında professor Fon Mende ilə söhbət edir.

Fon Mende: - Sizin əsərlərinizi Şərq Nazirliyində çoxları oxumuşlar. Rozenberq deyir ki, fürer də bu kitablardan xəbərdardır. Stalinizmin qəddar düşməni kimi Almaniyanın yüksək dairələrinin hörmətini qazanmısınız. Mən rəsmən göndərilmişəm ki, sizi Almaniyaya işləmək üçün dəvət edim. Siz Berlini tərk edəndən sonra bizimkilərin başı ruslara elə qarışmışdı ki, ilk böyük qələbələrimizi bayram etməyə aludə olmuşduq. İndi sizin köməyinizə Almaniyanın ehtiyacı vardır. Razı olsanız, mən Rozenberqin adından Polşa hökumətinin icazəsini alaram.

Məhəmməd Əmin: - Möhtərəm professor, indi Polşada Azərbaycan legionunda yetmiş mindən çox adam vardır. Onların yerləşdirilməsi, güzəranı ilə məşğulam. Berlin gözləyə bilər. Millətimin övladlarını hələlik tərk edə bilmərəm. Onların yanında olmalıyam.

Məhəmməd Əminin köməkçisi: - Emin bəy, məlumat almışam ki, yenə də azərbaycanlı əsirləri yəhudilərə qatıb güllələyirlər.

(*Məhəmməd Əmin əsəbiləşir. Professora üz tutur*)

Məhəmməd Əmin: - Bir tərəfdən məni əməkdaşlığa dəvət edirsiniz, o biri tərəfdən millətimi qırırsınız.

Fon Mende: - Bu ola bilməz, Emin bəy. Türklər biz almanların dostudur. (*Ayağa durur, qovluğundan bir kitab çıxarır*) Baxın, fürerin kitabıdır. Burada nə yazılmışdır?! Söhbət yəhudilərdən gedir. Həm də yəhudilərin seçilməsi prosesində bizim nümayəndə iştirak edir.

Məhəmməd Əmin: - Xahiş edirəm, o nümayəndənizi buraya dəvət edəsiniz.

Fon Mende: - Bu dəqiqə, Emin bəy, qoy əvvəlcə Berlinlə danışım. (*Dəstəyi götürür*) Allo, allo, Berlin, Rozenberqlə calaşdırın. Salam, Fon Mendedir. Azərbaycan liderinin yanından danışıram. (*Dəstəyi yana tutur*) Rozenberqin salamı var. Burada bir anlaşılmazlıq yaranıb. Ayırd edib qayıdacağam. Nəzərə alın, ona görə gecikirəm. (*Dəstəyi qoyub, təzədən götürür*) Əsir düşərgəsində Meyerə xəbər çatdırın, hökumət binasına, Fon Mendenin yanına gəlsin. Otaq (*Emin bəydən nömrəni soruşur*) nömrə 215. İkinci mərtəbədə, solda.

(*Söhbət edirlər. Fon Mende Məhəmməd Əminin nəşr etdiyi qəzet və jurnalların yeni nömrələrinə baxır*)

-Bu üçrəng bayrağınıza aypara necə gözəllik verir! (*Köməkçi içəri daxil olur*)

Köməkçi: - Cənab Meyer gəlmək istəyir.

Məhəmməd Əmin: - Deyin buyursun.

Meyer (*Daxil olur*): - Xoş gördük, Emin bəy...

Məhəmməd Əmin: - Buyurun, əyləşin...

Fon Mende: - Cənab Meyer, siz rus əsirləri içərisindən yəhudiləri necə ayırırsınız?

Meyer: - Sünnət olunanları güllələyirik. (*Məhəmməd Əmin qəzəblənir*)

Məhəmməd Əmin: - Gördünüz, professor!

Meyer: - Bəs nə edək? Yəhudi sağ qalsa, fürer bizim hamımızı güllələyər.

Məhəmməd Əmin: - Bunun çarəsi asandır. Qoy cənab Meyerin yanında bizim Azərbaycan legionunun başçılarından biri olsun.

Fon Mende: - Bu kiçik məsələ deyildir. Gərək fürer ilə razılaşdırılsın. Mənə elə gəlir ki, fürer azərbaycanlılara hörmət eləyir. Sizin təklifinizlə o razılaşar.

Meyer: - Bu gün yarım milyon əsir gəlib. Vaxt gözləmir. Türk nümayəndəsini mənimlə tanış edin. Onun adı rəsmi qeydiyyatdan keçməlidir, and içməlidir.

Məhəmməd Əmin: - Vəsiqəsini yaza bilərsiniz: Fətəlibəyli Düdənginski. And içmiş hesab edin. Bu gündən bir nəfər azərbaycanlı güllələnsə, məsuliyyət sizin boynunuza düşəcəkdir.

22-cü ŞƏKİL

Moskva. Kreml. Stalin iş otağındadır. Köməkçini çağırır.

Stalin: - Anastas İvanoviç yanıma gəlsin! (*Masanın üstündəki kitab, jurnal və qəzetlərə göz gəzdirir*) Elə çıxır ki, mənim Hitlerdən də sərsəm düşmənim Emin bəy imiş. Köhnə dost, hamının başını yedim, sən axıra qalmısan. Bu günsabahlıqsan, avara müsavatist...

(*Mikoyan daxil olur. Stalin onu çox soyuq qarşılayır*)

Stalin: - İyirmi yeddinci komissar, müharibənin ağır vaxtında nə işlə məşğulsan?

Mikoyan: - Cəbhəni ərzaqla təmin edirəm, yoldaş Stalin!

Stalin: - Müsavatçılara da erməni konyakı içirdirsən?

Mikoyan: - Nə danışırsınız, yoldaş Stalin?! Müsavatçıların hamısı: bizdəkilər, İrandakılar, Türkiyədəkilər, Fransadakılar, Amerikadakılar... məhv edilmişlər.

Stalin: - Saxla, saxla! Sən bədəni öldürmüsən, başı saxlamısan.

Mikoyan: - Güllə onların başına çaxılır, yoldaş Stalin.

Stalin: - Utanmaz, çərənləmə. Gəl bunlara bax.

(*Mikoyan Məhəmməd Əminin Almaniyada çap olunmuş kitablarını, "Azərbaycan" qəzetinin nüsxələrini bir-bir götürüb baxır*)

Stalin: - Oxu, qulaqlarınla eşit, küt beyninə batsın.

Mikoyan: - 1943-cü il noyabrın 6-da Berlinin Kayzerhof mehmanxanasında Azərbaycan Milli Birlik Məclisi çağırıl-

mışdır. Məclis Azərbaycan xalqının milli-azadlıq hərəkatının rəhbəri kimi öz qarşısına bu vəzifələri qoymuşdur: bolşevizmin məhv olunması və Azərbaycanın müstəqilliyinin bərpa edilməsi.

(*Stalin var-gəl edir*)

Stalin: - Bolşeviksiz Azərbaycan olar?

Mikoyan: - Ermənistan heç olmaz, yoldaş Stalin!

Stalin: - Elə "Ermənistan, Ermənistan" deyirsən, amma ermənilər üçün ən çox iş görən mənəm. Müharibə başlayanda Qafqazdan bütün azərbaycanlıların çıxarılması barədə qərara mən imza atmaq istədim. Heyf ki, Bağırov saqqızımı oğurladı. Yadda saxlayın ki, bütün azərbaycanlılar Rəsulzadənin səcdə etdiyi o Dağıstan lotusu, Rusiyanın Qafqaz düşməni Şeyx Şamil kimi millətçilərdir.

Mikoyan: - Azərbaycanın bütün rəhbər işçiləri türkdür. Bağırov bizim kadrları irəli çəkmir. Etibarlı dostlarım olan Qriqoryanı Ermənistana, Markaryanı Dağıstana sürgün etmişdir.

Stalin: - Bağırov bunu mənim razılığımla etmişdir.

Mikoyan: - Yoldaş Stalin, Bağırov kimdir ki, cəsarət edib sizə dünya daşnakları barədə məlumat yazmışdır. Bilmir ki, daşnaklarsız dünyada kommunizm qurula bilməz. (*Pauza*) Yoldaş Stalin, mən bilirəm ki, bir gün gələcək, dünya ermənilərini əl-ələ verib, Bağırovun axırına çıxacaqlar. (*Pauza*) Mən işi elə təşkil edəcəyəm ki, Azərbaycan xalqı ona nifrət edəcək!

Stalin: - İyirmi yeddinci komissar, həddini aşma! (*Pauza*) Bir nömrəli vəzifən nədir?

Mikoyan: - Sizə xidmət etmək, yoldaş Stalin!

Stalin: - Yox, ay axmaq, Emin bəyi Berlindən yox eləmək!

23-cü ŞƏKİL

Məhəmməd Əmin Varşavadakı iş otağında Fətəlibəyli ilə söhbət edir.

Fətəlibəyli: - Əgər mən dünən Meyerin yanında olmasaydım, azərbaycanlıları güllələyəcəkdilər. Hələ bir gülməli əhvalat da oldu, Emin bəy. Qarabağ ermənilərindən bir dəstə yanıma gəldi ki, bəs biz neçə gündür bığ saxlamışıq, azərbaycanlıya oxşayırıq. Bizi də öz legionunuza yazın. Qarabağ Azərbaycan deyil? Mən cavab verdim ki, bəs oranızı yoxlayacaqlar, sünnətiniz yoxdur. Nə cavab versələr yaxşıdır? İstəyirlər lap dibindən kəssinlər... Onları yoxlatdırdım. Sovet kəşfiyyatının agentləridir.

Məhəmməd Əmin: - Bəs nə etdin?

Fətəlibəyli.-Cənab Meyerə dedim ki, onları tualetdə işlətsin.

Məhəmməd Əmin: - Sən, hərbi akademiya bitirmiş bir mayor kimi azərbaycanlı əsirlərin gələcəyi barədə nə düşünürsən?

Fətəlibəyli: - Biz burada milli ordumuzu yaradaraq, əsirlərdən savadlı olanları Almaniyanın hərbi məktəblərində oxudarıq və Milli Azərbaycan Ordusu kimi Azərbaycana qayıdarıq. Sən Novxanıya baş çəkərsən, mən də Naxçıvana, Düdəngə kəndinə...

Məhəmməd Əmin: - Bəs Stalin qələbə çalsa?

(*Fətəlibəylini bu söz açmır*)

Fətəlibəyli: - Emin bəy, bu ola bilməz. Rusiyanın beli artıq qırılmışdır.

Məhəmməd Əmin: - Stalin nəyin bahasına olursa-olsun bu müharibəni udmaq naminə hər şey edəcəkdir. Rus qoşunları çox ciddi hücumlar edir.

Fətəlibəyli: - Rusiyada aclıq baş götürüb gedir.

Məhəmməd Əmin: - Aclıq hələ məğlubiyyət demək deyildir.

24-cü ŞƏKİL

Berlin. Hitlerin iqamətgahı. Məhəmməd Əmin qəbul otağında, yanında iki alman zabiti. O, kabinetə daxil olur. Hitler Məhəmməd Əmini ehtiramla qarşılayır.

Hitler: - Sizi, stalinizmin dönməz qənimini alman xalqı adından salamlayıram.

Məhəmməd Əmin: - Minnətdaram, cənab fürer!

Hitler: - Bilirsinizmi ki, Stalin sizi yox eləmək üçün Almaniyaya neçə casus göndərmişdir? Dünən iyirmi ikincisini o dünyaya göndərmişik. Nə qədər mən sağam, siz də var olacaqsınız. Stalinlə əlbəyaxa döyüşdə sizin qədər möhkəm dayağım yoxdur. Əgər Ruzveltin və Çörçilin ağlı başlarında olsaydı, kommunizmi bir saata məhv edərdim. Gec də olsa, axırına çıxırıq. Stalini Berlin küçələrində meymun kimi oynadacağam.

Məhəmməd Əmin: - Tələsməyin, cənab fürer!

Hitler: - Qələbəmizə şübhən var?

Məhəmməd Əmin: - Müharibə qurtarmamış qələbədən danışmaq sadəlövhlük deyilmi? Birinci Dünya müharibəsində almanlar Parisi tutdular. Berlində toy-bayram idi... Ancaq Almaniya məğlub oldu...

(*Bu sözlər Hitlerin xoşuna gəlmir*)

Hitler: - O zaman Almaniyanın başında Hitler durmamışdı, Emin bəy. Bir də, Almaniyanın Şərqdə apardığı müharibə Qərbdəkindən kəskin surətdə fərqlənir. Şərqdə amansızlıq gələcəyin xeyrinədir. Söhbət məhv etməkdən gedir. Əgər biz Rusiyada məsələni bu cür qoymasaq, o zaman düşməni əzsək belə, otuz ildən sonra kommunist təhlükəsi yenidən baş qaldıra bilər, dünyanı bürüyər və bəşəriyyət onun qarşısını ala bilməz...

Məhəmməd Əmin: - Fəqət bu müharibədə alman ordusu günahsız adamları güllələyir, nahaq qana batır. Buna yol

vermək olmaz. İnsana törətdiyi cinayətə görə cəza verilə bilər, mənsub olduğu millətinə görə yox. Təkcə Belorusiyada iki milyondan çox adam məhv edilmişdir. Lvov şəhərində eybəcər hala salınmış insan cəsədləri divar boyunca düzülmüş, bu dəhşətli sərgi bir qadın meyiti ilə açılmışdır. Bu qadının körpə balası süngü ilə onun bədəninə mismarla pərçimlənmişdi. Bu, vəhşilik deyilmi?

Hitler: - Bəs Lenin, Stalin adamları bundan mədəni qırırdılar?

Məhəmməd Əmin: - Onda, stalinizmlə hitlerizmin nə fərqi? (*Hitler cavab vermir*) Silah gücünə, zor gücünə yaranan dövlət millətin ürəyindən ola bilməz. Çünki bəşərin ürəyi zorla alınmaz. Müharibə zor və amirliyin mayasından qidalanır. Bizim yolumuz mübarizə yoludur. Millət demokratik seçki yolu ilə öz dövlətini yaradacaqdır. Bu bəşəri yol İngiltərədə, Fransada, Amerikada... və sonra da Azərbaycanda sınandı.

Hitler: - Fəqət bolşevizmə, Emin bəy, biz almanlar dözə bilmədik. Dözə bilmədik ki, Almaniya arabasının bir təkəri Marks, o birisi Engels olsun və bu arabaya Lenin və Stalin adında iki at bağlansın. Alman xalqı bu arabada haraya gedəcəkdi?

Məhdmməd Əmin: - Kommunizmə doğru!

Hitler: - Bəs fürer arabasında?

Məhəmməd Əmin: - Diktatura zirvəsinə doğru!

Hitler: - Bunun nəyindən xoşunuz gəlməyir?

Məhəmməd Əmin: - Çünki kommunizm də, diktatura da nəticə etibarilə eynidir. Millətin istiqlal yolunda qanlı istehkamdır.

Hltler: - Milli istiqlaldan danışırsan, onda niyə Azərbaycan legionu ilə rus qoşunlarına qarşı vuruşmursunuz, Mozdokdan Bakıya nə var ki?

Məhəmməd Əmin: - Cənab fürer, azərbaycanlılar nə ruslara, nə polyaklara, nə də digər millətlərə qarşı silah qaldırmayacaqlar. Biz öz torpağımızda düşməni əzə bilərik.

Hitler: - Emin bəy, əsas mətləbə keçək. Bir-iki günə Qafqaz tamamilə əlimizdə olacaq. Mən qərara gəlmişəm ki, orada canişinlərimiz yerli xalqların rəhbərlərindən olsun. Bu məqsədlə gürcülərin və ermənilərin nümayəndələrini yanıma çağırmışam və heç birini bəyənməmişəm. Onlardan heç birisi almanca danışıb yaza bilmir. Bir də Qafqazda biz ancaq və ancaq azərbaycanlılara, yəni yerli türklərə arxalana bilərik. Türkiyə bizə qardaş dövlətdir.

(*Hitler yerindən qalxıb, stolun üstündəki ordeni götürür və Məhəmməd Əminə yaxınlaşır*)

Hitler: - Mən sizi böyük alman imperiyasının Qafqaz canişini vəzifəsinə təyin edirəm və təltif edirəm.

(*Məhəmməd Əmin sağ əliylə Hitlerin orden tutmuş əlini saxlayır*)

Məhəmməd Əmin: - Mən Almaniyanın Qafqaz canişini yox, Müstəqil Azərbaycanın rəhbəri ola bilərəm.

Hitler (*hiddətlə*): - Onda xudahafiz! Bəxtinizdən küsün!

Məhəmməd Əmin: - Xudahafiz, cənab fürer! (*Otaqdan çıxır*)

Hitler (*dəstəyi qaldırır*): Emin bəy təcili Almaniyadan qovulsun! (*Bir az dayanır*) Amma təhlükəsizliyini təmin edin.

25-ci ŞƏKİL

Moskva. Kreml. Stalin iş otağında.

Stalin: - Avropa bayrağımıza and içir. Yaxın vaxtlarda Kurçatov bu bayrağı bütün qitələrə sancacaq... (*Qəzetləri, jurnalları və üstündə Məhəmməd Əminin şəkli və üçrəngli bayraq olan kitabı qaldırıb masanın üstünə vurur*) Bu yenə Müsavat davası aparır. Onu bu dəfə Türkiyədən buraya gətirib öz əlimlə boğmasam... rahat ölə bilməyəcəyəm... Əfsus, iyirminci ildə onu sağ buraxdım... Bilsəydim Avropa-

da çekistlərimiz onu cəhənnəmə vasil edə bilməyəcəklər, o zaman... Nə isə, səhv etdim. Bu da mənə baha başa gəldi... Belə çıxır ki, bütün dünyanı dizüstə çökdürən Stalinin bir bu köhnə dostuna gücü çatmır... Gülməli deyilmi? (gülür)

(*Mikoyan gəlir. Stalin ayağa durur. Masaya yaxınlaşır*)

Stalln: - İyirmi yeddinci komissar, nəzərə al ki, müharibədən sonra müsavatçılar yenə də baş qaldırıb. Sən iyirmi yeddinci komissar kimi, 26-ların işini zəif davam etdirirsən. Budur, bu məktubu Avropadan çekistlərimiz mənə çatdırıblar. Oxu, gör Emin bəy Türkiyədən Avropadakı azərbaycanlılara nə yazır.

Mikoyan (*Oxuyur*): - "Antikommunist aksiyalarda iştirak ediniz. Fəqət iç qayəmizin əsl istiqlal qayəsi olduğunu da unutmayın".

Stalin: - Bu qəzetdəki məktubuna bax. Müsavat partiyasının bəyannaməsini dünyaya yaymaq istəyir.

Mikoyan (*Oxuyur*): - "Müsavat partiyasının bir deklorasionunu göndərirəm. Türkcə və ruscasını. İngiliscəsini də bu günlərdə göndərəcəyəm".

Stalin (*Əsəbiliklə*): - Gözləyirsən ki, ermənicə də yayılsın, sonra ayılasan?

Mikoyan: -Tədbir görərik, yoldaş Stalin!

Stalin: - Tədbir görərik... Bu "Azərbaycan" qəzetinə bax. (*Götürür*) Burada qəzetin adının yanında nə yazılıb? "Türkləşmək, islamlaşmaq, müasirləşmək". Bəs bu hansı Azərbaycanın xəritəsidir?

(*Mikoyan qəzetdə Azərbaycanın xəritəsinə baxır, təəccüblənir*)

Mikoyan: - Bu nədir? Sovet Ermənistanı da Azərbaycana qatılıb ki?! Dağlıq Qarabağ... muxtar vilayət kimi göstərilməyib...

Stalin: - Sovet Azərbaycanının ən böyük bayramı hansıdır?

Mikoyan: - Oktyabr bayramı!

Stalin: - Sonra?

Mikoyan: - Bir May və 28 Aprel!

Stalin: - Bəs 28 May nədir? Emin bəy yenə 28 Maydan dəm vurur. Öz gözlərinlə bax, oxu.

Mikoyan (*Oxuyur*): - "Velikorusiya daxilində cərəyan edən daxili hərbdən müzəffər çıxan bolşeviklər Yaxın Şərqdəki qarışıq durumdan və hərbsonu Avropasındakı vəziyyətdən istifadə edərək Qızıl Ordunun üstün qüvvətləri ilə sərhədi keçib 27 aprel 1920-ci ildə Azərbaycanı işğal edərək qanlı üsullarıyla cümhuriyyəti sovetləşdirdilər"(*gözü kəlləsinə çıxır*) Cəsarətə bax bu türk tulasında, yoldaş Stalin, verin bu qəzeti, öz əlimlə sobaya atıb yandırım.

Stalin: - Bu qəzeti, iyirmi yeddinci komissar, mətbəəyə getməmişdən, Avropada yayılmamışdan yandırmalıydın. (*Özözünə*) Sizin özünüzü hamılıqla yandırmaq lazımdır. (*Keçib kresloda əyləşir. Əllərini alnına dayayır*)

Stalin: - Deyəsən, təzyiqim artıb...

Mikoyan: - Nə deyirsiniz, yoldaş Stalin. Allah eləməsin, siz sabah xəstələnməli olsanız, mən bu gündən yatağa düşərəm.

Stalin: Mən sabah xəstələnməli olsam, sən bu gün məni sağaltmalısan. Yoxsa... gec olar... mənsiz, kapitalistlər bir yana, təklikdə Emin bəy axırınıza çıxar. (*Ayağa durur, şərab içir*). Həkimlərə inanmıram, mənim dərmanım elə budur. Hə, iyirmi yeddinci komissar, Bağırov Bakıda səni çıxmaqla, komissarların hamısına heykəl qoyub?

Mikoyan: - Yox, yoldaş Stalin? Bağırov 26-ların düşmənidir. Təcili iş görmək lazımdır.

Stalin: - Yaxşı, Bakıda ana dilində danışanların sayı nə qədərdir?

Mikoyan: - Ermənilərin hamısı, yoldaş Stalin!

Stalin: - Azərbaycanlıları deyirəm.

Mikoyan: - Onun hesabı aparılmayır.

Stalin: - Hesablayın və müsavatçıların siyahısına əlavə edin. Ümumiyyətlə, 1920-ci il aprelin 28-dək doğulan azərbaycanlıların siyahılarını Bağırovun əliylə imzaladın. Müsavat tör-töküntülərini Sibirə sürgün edin. Bu şərtlə ki, alman əsirlərindən kənarda olsunlar.

Mikoyan: - Yoldaş Stalin, icazənizlə mən gedərdim. Vazgen həzrətlərinin Fransadan qonaqları gəlib...

Stalin: - Get, amma onu bil ki, bizə Sovet Azərbaycanının yeni nəsli lazımdır. Əsl beynəlmiləlçi kommunistlər. Sirsifətlərindən də türklərə oxşamasınlar. Bu nəsil Emin bəyi Türkiyədən Bakıya gətirib öz əlləri ilə dar ağacından asacaqdır. Mən o zaman Bakıya bir də qayıdacaq və onun meyitini bir vaxtlar məni Azərbaycan lotularının atmaq istədiyi neft quyusuna atacağam. Quyuya da od vurub yandıracağam ki, onun külü də yer üstünə çıxmasın.

(*Mikoyan bu sözlərdən ləzzət alır*)

Mikoyan: - Yoldaş Stalin, sonra da Türkiyəni türklərdən azad edib Sovet Ermənistanı ilə birləşdirərik.

26-cı ŞƏKİL

Ankara. Məhəmməd Əmin kresloda əyləşib. Hiss olunur ki, xəstədir. Məhəmmədəli onun başı üstündə dayanıb.

Məhəmmədəli: - Əmioğlu, həkimə get, xəstəliklə zarafat etmək olmaz,

Məhəmməd Əmin: - Daha dözə bilmirəm, Bakıya dönmək istəyirəm.

Məhəmmədəli: - Əmioğlu, Rusiya səfirliyində danışırlar ki, Xruşşov Stalinə qarşı ittiham irəli sürüb. Repressiya qurbanlarına bəraət veriləcək...

Məhəmməd Əmin: - Əmioğlu, nə Stalin, nə də onu tənqid edənlər millətimizə azadlıq verməyəcəklər. Milli istiqlalı millətin özü qazanır. O ki qaldı bəraət verilənlərə, sənin və

mənim hansı qohumumuz sağdır ki, Bakıda görüşəsən. Sibirdə, yəqin ki, məzarları da qalmamışdır.

Məhəmmədəli: - Bakıdan xoş xəbərlər gəlir, əmioğlu.Bir az da döz. Azərbaycana birlikdə qayıdarıq.

Məhəmməd Əmin *(Ayağa qalxır, pəncərə qabağına gəlir. Uzaqlara baxır):* - Ey mənim xalqım! Mən haqqı tapıb göstərdim və dedim ki, bir kərə yüksələn bayraq bir daha enməz. Əgər siz, gələcək Azərbaycanın cəngavər nəsilləri, günlərin bir günündə şəhidlərin qəbristanlıq yerində yüksələn qəsbkar abidəsini yerə endirsəniz, Bakının küçə və xiyabanlarını millət düşmənlərinin heykəllərindən təmizləsəniz... yox, yox, mənə heykəl yapmayın... Novxanıya gedin... tabutunu oğul kimi çiynimdə apara bilmədiyim, məzarını görmədiyim atam Axund Ələkbərin ruhunu şad eləyin. O zaman mənim sümüklərim də qürbətdə sızıldamaz.

... Yox, əgər belə olmasa, yenə haqqı nahaq tapdasa, xalq milli hissi ölmüş kütlə kimi qalmış olsa... onda Novxanıda bütün bağlardakı meynə və ağacların quru budaqlarından bir tonqal qalayın... Sonra da Türkiyəyə gəlib Azərbaycan torpağına dönmək vüsalındakı sümüklərimi çıxarın... Sonra da... *(çarpayıda əyləşir, yanındakı üçrəngli bayrağı açır)* sümükləri bax bu bayrağa bükün... Sonra da... Novxanıda qaladığınız o nəhəng tonqala atın, yansın, külü çıxsın... Sonra da o külü dəniz qırağına aparın və Xəzərə səpin ki, dalğalarda ürəyimin çırpıntısı yaşasın, sahilə gələnlər səsimi eşitsinlər: Azər-baycan... Azər-bay-can... Azər-bay-can...

"Azərbaycan" sözü əks-səsdaya çevrilib ətrafa yayılır. Həmin səsdaların altında müstəqil Azərbaycanın himni səslənir. Himn qurtarandan sonra uzaqdan yaxınlaşan üçrəngli bayraq görünür. Məhəmməd Əminin gur və inamla dolu səsi eşidilir:

- Bir kərə yüksələn bayraq bir daha enməz!

(Təntənəli musiqi səsdaları altında pərdə bağlanır)

1994

MƏQALƏLƏR

"MÜTLƏQ BAKIYA QAYIDACAĞAM"

– Məhəmmədəmin Rəsulzadənin oğlu sizsiniz?

– Elədir ki, var – onun gözlərinin yaşardığını gördüm. Səsi yavaşıdı:

– İlk dəfədir ki, qapımı Azərbaycandan gəlmiş tanımadığım bir adam döyür... Arvad bu gün növbədədir. Evdə təkəm. Emalatxanada işləyirəm.

Onun emalatxanası kiçik otaqdan ibarət idi. İçəri girən kimi nəzərimi baş tərəfdə divara vurulmuş lövhə cəlb etdi: lövhənin yuxarısında sağ tərəfdə Məhəmməd Əmin Rəsulzadənin, aşağıda isə Azər Rəsulzadənin şəkli vurulmuşdu. Ev sahibi balaca fincanlardakı qəhvəni stolun üstünə qoyanda, ayağa durub bu lövhəyə diqqətlə baxdım. Təəccüblüsü bu idi ki, atanın şəkli altında od, oğulun şəkli altında isə qapqara gül şəkli çəkilmişdi...

Azər kişi sualımı baxışımdan sezdi:

– Atamın şəklini bir ay qabaq Bakıdan Axundov adına kitabxanada işləyən Ədilə xanım göndərib.

Özümlə apardığım "Ədəbiyyat və incəsənət"qəzetinin 1 dekabr 1989-cu il tarixli nömrəsini qovluğumdan çıxardım.

– Azər bəy, bax burada da həmin şəkil və atanızın "Azərbaycan paytaxtı" məqaləsi dərc olunub.

Azər kişi qəzeti alıb, atasının şəklinə baxdı və sonra eynəyini çıxarıb gözlərinin yaşını sildi. Masanın gözündən başqa bir eynək götürdü.

– Bununla daha yaxşı görürəm. Ancaq azərbaycanca çətin oxuyuram, səlis danışmıram.

– Niyə ki, yaxşı danışırsınız...

– Öz dilimi yaddan çıxarmamaqda mənə bu kitab çox kömək etmişdir – deyə, Seyid Hüseynin kitabını göstərdi.

– O, xalamın əri idi, kitablarını 37-də öz əlimlə yandırmışam. İndi isə bağrıma basıb, hər gün oxuyuram.

– Azər bəy, lövhədəki od və kül şəkilləri nə deməkdir?

– Mən indi dərindən dərk etmişəm ki, mənim atam necə böyük bir insan olub. Xalqı üçün nələr etmişdir. Od kimi yanıb. Mən ancaq onun külüyəm.

O, sözünə ara verdi. Kövrəldi. "Gərək bu sualı verməyəydim" – deyə özümü danladım. Könlünü almaq istədim:

– Azər bəy, elə deməyin, siz rəssamsınız, sənətkarsınız, yaşınızın bu vaxtında fırçanızdan ayrılmamısınız... – Nəfəsimi dərdim – Bir də, sizin nə təqsiriniz var ki... Mən bir azərbaycanlı kimi sizi tapdığıma çox şadam. Sizin həyatınızı bütün Azərbaycan oxucularına çatdırmağı özümə borc bilirəm.

* * *

...Azər bəy danışdıqca cib dəftərçəmin vərəqi qaralırdı.

– 1920-ci il iyulun 16-da Novxanıda, bağda anadan olmuşam. Anam nənnimi tut ağacından asıbmış. O nənni ki, məndən qabaq onda qardaşım Rəsul, bacılarım Lətifə və Xalidə yellənmişlər. O tut ağacı ki, babam Şüvəlandan gətirib əkmişdi və ağac düz otuz il bar verməmişdi. Babam rəhmətə gedən il isə bara düşmüşdü. Nənəm hər il onun barını qonşulara pay verirdi. Həm də o vaxt Novxanı bağlarında təkcə bizim bağda şahtut vardı. Kim bilir, indi o tut ağacının da, bağımızın da başına nə gəlib...

Atamı görməmişəm. Anam sonralar deyirdi ki, mən anadan olanda atam dustaq imiş. "Oğlunuz olub" xəbərini ona çatdıranda deyib ki, adını Azər qoyun.

Böyüyüb bacılarımın və qardaşlarımın oxuduğu məktəbə gedəndə, atamın Moskvada işlədiyini və Bakıya qayıdacağını

anam tez-tez deyərdi... Uşaqlıqdan şəkil çəkməyə və tar çalmağa sonsuz həvəsim vardı. Yayda dəniz qırağında qumun üstündə, başqa vaxtlarda ağ kağız tapan kimi cürbəcür şəkillər çəkərdim. Sonralar qohumlarımızın, sinif yoldaşlarımızın şəkillərini çəkib onlara bağışlayardım.

Sonbeşik olduğumdan anam hər nazımla oynayardı. Bax, o tar da həmin illərin yadigarıdır. 1932-ci ildə anam üzüyünü satıb almışdı. Tar çalmağı tez öyrəndim.

Orta məktəbdə ən yaxın dostum Hacı Məmmədov idi. Sonralar məşhur bir tarzən oldu. Ona tar çalmağı mən öyrətmişəm. Ancaq bir neçə aya məndən də yaxşı çalmağa başladı. Mən həvəskar, o, sənətkar oldu.

Azər kişi ayağa durdu. Masanın gözünü açıb ordan bir val çıxardı. Bax, bu valı Karaqandada bir azərbaycanlı qızı bağışlamışdır. Şəhərin baş həkimi idi. Adını unutmuşam. Bir dəfə onun portretini çəkdim. Pul verdi, almadım. Valı da almazdım, amma gördüm ki, üstündə "Segah" yazılıb. Bir də yazılıb ki, tarda çalır Azərbaycan SSR xalq artisti Hacı Məmmədov.

Mən astadan dedim:

– Rəhmətlik "Segah"ı gözəl çalırdı.

– Nə danışırsınız, bəyəm Hacı sağ deyil?

– Yox...

Azər kişi valı patefonda hərlətdi. Tar dilə gəldi. Hiss etdim ki, bu anda onun da başına dünya hərlənir. Onun ürək ağrıdan hönkürtüsü musiqiyə qarışmışdı.

Azər kişi haçandan-haçana özünə gəldi. Qəhvəni təzələdi.

– Heç yadımdan çıxmır, hərdən dərsdən sonra məktəbdə pəncərələri açardıq ki, tarın səsi küçəyə yayılsın. Sonradan tara da keçmiş mədəniyyətimiz, incəsənətimiz kimi hücum başlandı. Nənəm anama dedi ki, evimizdəki bütün qədim kitabları yandırmaq lazımdır. Təkcə Quranı götürüb məscidə apardı. Anam evimizdə ərəb dilində nə vardısa, Rəsulla bağa göndərdi. Nənəm bağda bir tonqal qurdu. Mən də kitabları oda

atırdım. Təkcə tarımı gizlətdim. Sarıqaya tərəfdə, bağımızdan kənarda. Bir neçə aydan sonra şəhərdəki evimizi, bağımızı ələk-vələk elədilər.

– Bəs bu tar Karaqandaya necə gəlib çıxıb?

– Bu tar mənimlə çox yerlərdə olub, Novxanıda gizlətdiyim yeri isə ancaq Hacı bilirdi. Tarı Hacı Qazaxıstana gələn bir rus qadını ilə göndərmişdi.

– Bəs nənən, anan, qardaş və bacıların necə oldu?

Azər tutulan kimi oldu. Halı dəyişdi:

– Qoy mən gedib qonşudan xahiş edim ki, nəvəsini bağçadan götürəndə bizim arvadı evə çağırsın. Desin ki, Bakıdan qonağı var. Sizi görməsə, inciyər.

O, nəfəsini dərdi:

– 1937-ci ildə Bakıdan həmişəlik ayrılmalı oldum. Arzularımın yerlə-yeksan olduğu ildə. Onuncu sinfi bitirmişdim. Avropa təhsili görmüş qardaşım Rəsul ixtisasca mühəndis idi. Mənim şəkil çəkməyə böyük həvəsimi görüb, Leninqrada, rəssamlıq məktəbinə getməyi məsləhət görürdü. Deyirdi ki, sən atamızın incəsənətə olan həvəsini davam elətdir. Mən də Azərbaycanın müstəqilliyi uğrunda çarpışacağam. Atamdan sonra Rəsulu özümə həm böyük qardaş, həm də ata əvəzi bilirdim.

Bir gün o evə çox dalğın qayıtdı. Anama heç nə demədi. Qulağıma pıçıldadı ki, gəl dəniz qırağına çıxaq. Limana yaxın bir yerdə dayandıq. Xəzər tələtümə gəlmişdi. Sanki dalğalar sahili bütünlüklə qoynuna almaq istəyirdi. Rəsul xeyli susduqdan sonra mənalı-mənalı düz gözümün içinə baxdı:

– Kişi kimi söz ver ki, indicə sənə deyəcəklərimi heç kəsə söyləməyəcəksən.

– İnana bilərsən, heç kimə deməyəcəyəm – dedim – heç anamıza da, nənəmizə də.

Rəsulun o gün dediyi sözlər indi də qulağımda səslənir:

– Dünən məni Markaryanın yanına apardılar. O dedi ki, əgər sağ qalmaq istəyirsənsə, yazıb qol çək ki, xalq düşməni kimi

atandan üz döndərirsən. Onda səni NKVD-yə işə götürərik, partiyaya keçərsən. Sonra dedi ki, fikirləşmək üçün sənə bir gün vaxt veririk.

İki gündən sonra gecə yarısı Rəsulu yuxudan oyadıb, qara maşına mindirib apardılar. Elə o gedən oldu...

Bir həftədən sonra yenə qapımız döyüldü. Yenə həmin adamlar.

– Hazırlaşın, hamınızı iki saatdan sonra aparacağıq – dedilər.

Yük qatarında bizdən, yəni nənəmdən, anamdan və bacım Xalidədən başqa çox adam var idi. Düz iyirmi səkkiz gün yol gəldik. Qazaxıstanın Çimkənd vilayətində məskən salmalı olduq. Bura gələn kimi bütün bu əzablara dözməyən nənəmiz vəfat etdi. Qəndi suya batırıb qidalanmaq onu əldən salmışdı. Başımıza gələnlərdən özümüzü itirmədik. Həyat yaşamağı tələb edirdi. Hardasa işləyib, bir loğma çörək pulu qazanmalı idik. Mən Çimkənd orta məktəbində rəsmxətt müəllimliyinə işə düzəldim. Bacım Xalidə tibb bacısı işləməyə başladı. Anam Ümbülbəni rus dilini mükəmməl bildiyi üçün yerli camaatın ərizə və məktublarını yazırdı. Çox çəkmədi ki, Çimkənddə hamı ailəmizi xeyirxahlığı və nəcibliyi ilə tanımağa başladı.

1939-cu ilin yayında anam məni evləndirdi. 19 yaşım vardı. Hələ yolda ikən ülfət bağladığım, taleyi bizim taleyə oxşar, bizim kimi Azərbaycandan sürgün olunmuş ibtidai sinif müəllimi Şölə ilə ailə həyatı qurduq. Keçirdiyimiz vahiməli, qorxulu günləri təzə-təzə unutmağa başlayırdıq ki, anam qəflətən vəfat etdi. Anamı da mollasız-yasinsiz dəfn etdik.

Müharibə başlayanda arxa cəbhəyə göndərildim. Sonra İrana daxil olmuş qoşun hissələrində xidmət etdim. 1945-ci ilin dekabrında yenə Qazaxıstana qayıtdım. Bakı həsrəti ilə, Bakı yanğısı ilə. Çimkənddə dedilər ki, həyat yoldaşın Taldı-Kurqan orta məktəbinə keçirilmişdir. Nənəmin, anamın və bacımın basdırıldığı yerə baş çəkdim. Məzarlarından heç bir nişan qalmamışdı...

Mən də Taldı-Kurqana gəldim. Şölə ilə birlikdə məktəbdə dərs deməyə başladıq. Bu dəfə tale mənə yeni bir qətl hazırladı. Həyat yoldaşım da bu dünyadan köçdü. Xeyli götür-qoy etdim. Başqa adam olsaydı, başına gələnlərdən dəli olardı. Lakin dözdüm. Bütün ağrılarımı, iniltilərimi fırça ilə kətana köçürməyə başladım. Lakin bu da mümkün olmadı. Ən məşhur rəhbərlərin, rüşvətxor məmurların, qəddar milis işçilərinin portretlərini çəkməli oldum.

...Şölənin vəfatından sonra xeyli vaxt tənha qaldım. Özümün də izsiz-tozsuz köçəcəyimdən qorxdum. Sonra mənimlə məktəbdə bir yerdə işləyən Marina ilə ailə həyatı qurdum. Budur, özü də gəldi.

Marina Yefremovna məni səmimiyyətlə salamladı. Azərbaycanca "xoş gəlmisiniz" dedi. Sonra yan otağa keçdi. Çox keçmədi ki, kartof qızartmasının ətri burnuma doldu.

– Marinanın əsli Sibirdəndir, ailəliklə Qazaxıstana sürgün olunublar.

... Azər əlində fotoaparat otağa qayıtdı:

– Xatirə üçün şəklinizi çəkmək istəyirəm.

Məndən qabaq Marina xala dedi ki, bir az gözləsin. Şəkli axırda çəkdirərik. Ayağa durub mizin siyirtməsindən kəbin kağızını gətirdi: "Baxın, Stepanenko –ukraynalı, Rəsulov – azərbaycanlı. Bəs qızımın milliyyəti nə olsa yaxşıdır?

– Əlbəttə, azərbaycanlı.

– Yox, oğul. Qulaq as. 1956-cı ildə qızım Qalina dünyaya gələndə, doğum şəhadətnaməsi almağa özüm getmişdim.

– Atası o söz. Anası o söz. Hə, uşağın milliyyəti rus yazılmalıdır, - dedilər.

Azər Marinanın əlindən sənədləri alıb bir kənara qoydu, mənə üz tutdu:

– Bu qızım Omskda yaşayır. İki qızım var. Bax, bu da onun yazdığı məktub.

... Məktubdakı bu cümlə diqqətimi cəlb etdi. "Ata, yanvarın

31-də babamın ad günüdür. Özün demişdin ki, gələcəyəm. Bir də, Türkiyəyə getmək üçün turist bürosuna ərizə vermişəm. Babamın məzarını Türkiyədə axtarıb tapacağam. Türk dünyasında, islam Şərqində ilk demokratik respublika yaratmış mənim babam Məhəmməd Əmin Rəsulzadə kimi böyük bir şəxsiyyətin qəbrini yəqin ki, Türkiyədə çox adam tanıyar ".

Marina xala söhbətə qarışdı:

– Qalina iyunun 16-da atasının ad günündə bizə gəlmişdi. Babasının şəklini ilk dəfə idi ki, gördü. Azər ona əsl həqiqəti danışdı. Qız o gündən elə bil tamam dəyişib. Deyir ki, Allah mənə iki oğul versəydi, birinin adını Məhəmməd, o birisinin adını Əmin qoyardım.

Eşitdiyim sözlərdən qəlbimə bir fərəh seli axdı. Ev sahiblərinə üz tutdum:

– Bəs Bakıya, Azərbaycana gəlmək məsələsi...

Azər kişi dedi:

– Bilirsiniz, Bakını dünyanın heç bir guşəsi mənə əvəz etməz. Novxanıda babam uyuyur. Eşitdiyimə görə, beşmərtəbədən yuxarıdakı ata-baba mülkümüz sökülüb. Yerində metro stansiyası tikilib. Ailəmizə bəraət verilərsə, gizlənməyin nə mənası... Qohum - əqrəbalarımın yanına getməyi kim mənə qadağan edə bilər?

Sağollaşanda üzümü Azər kişiyə tutdum:

– Azər bəy, sizi Azərbaycanda, Bakıda gözləyirik. Özü də hamımız.

O, gözlərini sildi :

– Gələcəyəm, mütləq gələcəyəm!..

"Respublika" qəzeti,
26 iyul 1990

ONUN HƏYATI – XALQIN HƏYATIDIR

M. Ə. Rəsulzadənin vəfatının 40 illiyi qarşısında

ÖN SÖZ

1984-cü ildə nəşr olunmuş Azərbaycan Sovet Ensiklopediyasının səkkizinci cildində M.Ə.Rəsulzadə haqqında qısaca məlumat verilmişdir: "Rəsulzadə Məhəmmədəmin (31.1.1884, Bakının Novxanı kəndi - 6.3.1955, Ankara) – publisist, milli burjuaziya ideoloqu; Müsavat partiyasının rəhbərlərindən biri. Gənc yaşlarında Bakıda gizli dərnəklərdə fəaliyyət göstərmişdir. 1904-cü ildən RSDFP Bakı Komitəsi yanında "Hümmət" sosial-demokrat qrupunun üzvü olmuşdur. Sonralar sosial-demokrat hərəkatından uzaqlaşmış, burjua millətçiliyinə yuvarlanmışdır. 1905-1908-ci illərdə "Həyat", "Füyuzat", İrşad", "Tərəqqi", "Təkamül", "Yoldaş" və s. qəzet, jurnallarda işləmiş və məqalələrlə çıxış etmişdir. 1908-1910-cu illərdə İranda inqilabi hərəkatın iştirakçısı, Tehranda "İrane-nov" ("Yeni İran") həftəlik qəzetinin naşiri olmuşdur. Çar hökumətinin tələbi ilə İranı tərk etmiş, 1911-ci ildə İstanbula gəlmiş və burada "gənc türklər"lə əlaqə yaratmışdır. 1913-cü ildə Bakıya qayıtmış, siyasi fəaliyyətini davam etdirmişdir. "İqbal", "Açıq söz" qəzetlərinin redaktoru olmuşdur (1914-1915). Ədəbi-tənqidi və publisist məqalələrində pantürkist, panislamist ideyalar təbliğ etmiş, proletar inqilabına və beynəlmiləlçiliyinə qarşı çıxmışdır. 1917-ci ildə Müsavatın I qurultayında partiyanın sədri seçilmiş, 1918-20-ci illərdə Zaqafqaziya seyminin, Azərbaycan Milli Şurasının və

parlamentinin üzvü olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Türkiyə, Almaniya, Polşa və Rumıniyada mühacirətdə yaşamışdır. 1939-cu ildən xaricdə müxtəlif jurnallar nəşr etdirmiş, Azərbaycanda fəhlə hərəkatına, Sovet Azərbaycanına qarşı düşmənçilik ideyaları yaymış, Azərbaycan legionunun təşkilatçılarından olmuşdur.1947-ci ildə Qərbi Almaniyadan Ankaraya qayıtmış, Müsavat mühacirəti dəstəsinə başçılıq etmnş, antisovet fəaliyyət göstərmişdir".

Ensiklopediyada M.Ə.Rəsulzadənin ünvanına qaralar yaxılmasına, "R" hərfi ilə başlayanlar arasında onun şəklinin olmamasına *dözmək olar. Çünki o vaxt başqa cür ola da bilməzdi. Lakin "R" ilə başlayanların hamısının adı, familiyası və atasının adı yazılmışdır. Təkcə M. Ə. Rəsulzadənin atasının adı göstərilməmişdir.*

I

Kim idi yanvar ayının zirvə günündə dünyaya göz açan oğul atası? Axund Hacı Molla Ələkbəri novxanılılar sadəcə olaraq "Axund" çağırırdılar. Axund kərpə "kişi"nin qulağına Ulu Peyğəmbərin ismini pıcıldadı: Məhəmməd Əmin.

Məhəmməd Əmin böyüdükcə daşıdığı adın məna dərinliyinə baş vurdu. Bir atanın övladından elin-obanın oğluna, sonra da böyük bir millətin atasına çevrildi. O, otuz səkkiz il ömür sürmüş Şah İsmayıl Xətaidən sonra ilk dəfə müstəqil Azərbaycanın otuz dörd yaşlı rəhbəri oldu. Dünya şeir aləminə Məhəmməd Füzulini bəxş edən millət dünya siyasət meydanına Məhəmməd Əmini çıxardı. O ki qaldı 1984-cü ildə ensiklopediyada yazılanlara... Artıq Məhəmməd Əmin Rəsulzadənin ömür salnaməsi xalqımıza məlumdur və heç şübhəsiz ki, gələn əsrin Azərbaycan ensiklopediyasında həyat həqiqəti öz yerini tapacaqdır.

II

Hər il biz 28 Apreli qara bayram əvəzinə böyük xalq bayramı kimi qeyd edəndə, şərəfinə nəğmələr qoşanda, Məhəmməd Əmin Sovet diktatura rejiminin mahiyyətini açmış və aqibətindən xəbər vermişdir:

"Sovet rejimindən daha totalitar bir rejim dünyada mövcud olmamışdır".

"Gələcək – millətləri süngü gücü ilə yapma rejimə boyun əydirmənin deyil, milli hakimiyyətə, haqqa və hürriyyətə dayanan istiqlalçılığındadır".

"Kommunizm nə yapırsa yapsın, Rusiya imperializmi hansı rəngə girirsə-girsin, meydanda bir həqiqət var: millətlər kəndilərini tanımışlar".

"Şərq millətlərinin xilas və nicatına aid şüarlar ilə bolşeviklər sözdə millətlərin hüququna, hürriyyətinə və istiqlalına hörmətkardırlar. İşdə isə digər imperialistlərdən heç də fərqli deyildirlər".

"Kommunizm rejimi süqut etmək məcburiyyətindədir".

"Diriliklərin ən qiymətlisi milli dirilikdir".

Əsrimizin əvvəllərində və ortalarında deyilmiş bu kəlamları zaman elə bu yüzilliyin sonlarında sübuta yetirdi. XX əsrdə tüğyan edən bir çox partiyaların odu əsrin sonuna çatmamış söndü. Yalnız və yalnız Məhəmməd Əmin partiyasının milli diriliyi yaşadan atəşi yanğısından qalmadı. Məhəmməd Əminin 1918-ci ildə dediyi sözlər 1990-cı illərdə bir daha qürurla səsləndi: "Müsavat partiyası birinci olaraq Azərbaycanın müstəqilliyi bayrağını yüksəyə qaldırmışdır. Beləliklə, müsəlman partiyaları arasında Azərbaycan ideyasında fikir ayrılığı yoxdur. Xalqın şüurunda Azərbaycan ideyası artıq möhkəmlənmişdir... Bir dəfə yüksələn bayraq bir daha enməz!".

Azərbaycanın Məhəmməd Əmin bayrağında millətimizin əbədi nicat yolu əks olunmuşdur: türkləşmək, islamlaşmaq,

müasirləşmək. Bu bayrağı imperiya rejimi millətin ürəyindən endirə bilmədi. 1988-ci ildə Azərbaycanın yenidən coşan xalq azadlıq hərəkatı düşmənlərimizə bir daha cübut etdi ki, azərbaycanlılar millətcə türk, dincə islam, mədəniyyətcə şərqlidirlər. Məhz buna görə də, 1920-ci ilin Lenin partiyası 1990-cı ildə Qorbaçov partiyası cildində "sapı özümüzdən olan baltaların" köməyi ilə Azərbaycanı içəridən parçaladı. Məhəmməd Əmin bayrağını qaldıranları DTK-nın zirzəmilərinə saldı, zor gücünə azadlıq hərakatını boğmağa çalışdı. Zahirən Məhəmməd Əminin adını hörmətlə çəkən rəhbər dairələr onun üçrəngli müqəddəs bayrağını dövlət bayrağı kimi qəbul etsələr də, siyasət meydanında yenidən atlarını yəhərləyib, Kremlə tərəf çapmaqda davam etdilər. Üzərində bu bayrağın dalğalandığı idarə binalarının daxilində yenə də totalitar rejimin amansız qanunları hökm sürdü. Divarından Məhəmməd Əminin portreti asılmış iş otaqlarında yenə də kommunist ideyaları işıq saçdı. Pencəyinin yaxalığına üçrəngli bayraq nişanı taxanlar bir-birilə Məhəmməd Əmin dilində deyil, Lenin dilində qonuşmaqda davam etdilər. 1992-ci ilin yanvarında Şəhidlər xiyabanında göz yaşı axıdanlar yenə də Məhəmməd Əminin doğum günüdə Novxanıya əvvəlki marşrutun qanqaraldan yazılarını oxuya-oxuya getdilər. "XI Qızıl Ordu" metro stansiyasından qatara əyləşib "28 Aprel" stansiyasında düşdülər, "26-lar" stansiyasına gedənə mindilər. Kirov prospektindən 28 Aprel küçəsi ilə Lenin prospektinə tərəf addımladılar. Yolda Marksla salamlaşıb, Binəqədi şossesinə üz tutdular. Görün, Məhəmməd Əmin yolunda nə qədər duşmən səngərləri qalmaqda idi. Yenə də ağa qara yaxanlar öz işlərini görürdülər. Yenə də düşmənə dost libası geyindirməyə çalışırdılar.

Məhəmməd Əmin Rəsulzadənin vaxtında, 1918-ci il iyulun 15-də Azərbaycan hökuməti Xüsusi İstintaq Komissiyası yaratmış və bu komissiyaya daşnakların törətdikləri cinayətləri aşkara çıxarmaq tapşırılmışdı. Əgər Azərbaycan Xalq Cüm-

hüriyyəti zor gücünə süquta yetirilməsəydi, yəqin ki, hələ o zaman erməni millətçilərinin havadarları təkzibolunmaz faktlarla dünya ictimaiyyəti qarşısında rüsvay ediləcəkdi.

Azərbaycanın hakim dairələri hətta 1988-ci ildən sonra da 1918-ci il faciəsinə "Kür, Araz, Ararat" mahnısını oxumaqda davam etdilər. Ermənistanda və Qarabağda azərbaycanlıların soyqırımına qarşı səsini qaldıranlar qara siyahıya alındı. İş o yerə çatdı ki, Azərnəşr tərəfindən 1992-ci ildə təkrar nəşr olunmuş "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabında onun müəllifinin də şahidi olduğu mart faciəsi "erməni-müsəlman qardaş qırğını" sözləri ilə səciyyələndirildi.

III

1989-cu ildə Azərbaycan tarixinə dair orta məktəb şagirdləri üçün "Maarif" nəşriyyatı tərəfindən buraxılmış dərslikdə iyirmi-iyirmi beş il bundan qabaq yazılmışlar təkrar olunurdu. 1990-cı ilin soyuq qışında Novxanıdan qayıdarkən Binəqədi rayonundakı 115 nömrəli orta məktəbə baş çəkmişdim. Tarix müəllimi Məmməd Sadıqovla birlikdə üçüncü mərtəbəyə - tarix kabinetinə qalxdım. Məmməd müəllim Azərbaycan tarixini şagirdlərinə burada kecirdi. Mən beşincilərin və doqquzuncuların dərslərində iştirak etdim. Müəllim beşincilərə M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsəri barədə danışırdı. O, əsərdəki bu sözləri uşaqlara təlqin edirdi: "Hər şeydən əvvəl, Azərbaycan Cümhuriyyətinin əsas idarəsi bütün vətəndaşların bərabər hüquqla yaşaması üzərində qurulmuşdu. Burada hər bir insanın möhtərəm şəxs, Azərbaycan vətəndaşı olduğu ucün hüququ saxlanılırdı. Kişi-qadın, müsəlman-xristian, türk-türk olmayan, cins və milliyyət fərqi qoymadan varlı-kasıb, sahibkar-işçi, torpaq sahibi-muzdur, öyrətmən-tələbə, möhtərəm-cahil sinif, məslək, təbəqə, rütbə, vəzifə, nəsil, bilgi imtiyazı aramadan bütün vətəndaşlar məmləkətin idarəsində

iştirak edir və qanun verən qurumlara girmək haqqına da sahib idilər. Burada bir sinif digər sinfə hakim deyildi. İnsan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız görünürdü".

Şagirdlər isə öz dərsliklərində Məhəmməd Əminin banisi olduğu Azərbaycan Xalq Cümhuriyyəti barədə ağ yalanları oxuya-oxuya dərslik hazırlamış alim əmilərin yerinə xəcalət çəkirdilər. Mən də uşaqların qarşısında özümü günahkar kimi hiss edirdim. Dərslikdə yazılmışdı: "Müsavatçıların ağalığı dövründə zəhmətkeşlərin vəziyyəti çox pisləşmişdi. Əhali ərzaq sarıdan bərk korluq çəkirdi. Aclıq başlanmışdı. Qiymətlər bir neçə qat qalxmışdı. Müsavat məmurlarının, əsgərlərinin özbaşınalığı həddini aşmışdı. Onlar evlərə soxulur, adamları qarət edirdilər. Bəylər, mülkədarlar kəndlilərin torpaqlarını özbaşına tuturdular. Azərbaycan zəhmətkeşləri yaxşı başa düşürdülər ki, onları müsavat zülmündən yalnız sovet hakimiyyəti azad edə bilər. Onlar sovet hakimiyyətinin nə demək olduğunu yaxşı bilirdilər." Dərslikdə uşaqlara belə bir tapşırıq da verilirdi: "Mətndən müsavatçıların zülmünü təsdiq edən faktlar gətirin".

Gətirilə biləcək faktlar müsavatçıların deyil, bolşeviklərin zülmünu təsdiq edirdi. Məhəmməd Əminin "Əsrimizin Səyavuşu" əsərinin "Qatil kimdir?" hissəsindəki bu cümlələr böhtançı dərslik müəlliflərinə ittiham kimi səslənirdi: "İllərdən bəri yığılan neft əvəzsiz olaraq Rusiyaya aparılırdı. Sarı bal, şirniyyat, çay, şəkər, qumaş – nə varsa, vaqonlara, gəmilərə yüklənərək Moskvaya götürüldü. Xalqın həqiqi sərvəti, varıyoxu qəsb edildi, "pul" - deyə bolşevik kağızları hər tərəfi sardı. Çörək istəyən ac xalqa top və çaxmaqlı tüfəng göstərdilər. Bir-iki "müsəlman" komissarın pərdəsi altında bütün idarə işləri rus agentləri və məmurlarının əlinə keçdi."

...Zəng çalındı. İndi doqquzuncuların dərsi başlanırdı. Məmməd müəllimi Elman müəllim əvəz etdi. Onun istifadə etdiyi dərslik 1990-cı ildə nəşr olunmuşdu. Bu dərslikdə yazılanlara görə, işğalçıların da müsbət və mənfisi vardır.

Məsələn, Azərbaycanı işğal eden I Pyotra münasibət müsbət olmalıdır, qalanlarına... nə desən olar. Dərsliyin 73 və 84-cü səhifələrində "I Pyotrun Xəzərsahili vilayətlərə yürüşü" və "Türk qoşunlarının Zaqafqaziyaya soxulması" bəhslərində oxuyuruq: "Türkiyə hökmranlığına qarşı mübarizənin gücləndiyi bir şəraitdə Zaqafqaziyanın azərbaycanlı və erməni əhalisi arasında dostluq əlaqələri daha da möhkəmlənirdi. Onlar türk işğalçılarına qarşı birlikdə çıxış edirdilər. Azərbaycanın bir sıra şəhər və vilayətlərinin əhalisi Rusiya hökumətinə və Xəzərsahili vilayətlərdə olan rus qoşunlarının komandanlığına məktublar göndərərək kömək göstərilməsini xahiş edirdilər... Türk feodalları Azərbaycanın işğal edilən torpaqlarında əhalini amansızcasına istismar edirdilər. Bütün bunlar əhalinin qəsbkarlara nifrətini artırırdı".

Deməli, 1990-cı ilin tarix dərsliyində doqquzuncu sinif şagirdlərinin beyninə belə bir hökm mismarlanırdı ki, ermənilər I Pyotr ilə birlikdə dostlarımız, türklər isə düşmənimizdir. Rusiya xilaskar, Türkiyə qəsbkardır. Elə bil ki, nə 1988-ci ilin Qarabağ hadisələri, nə Ermənistandan azərbaycanlıların məcburən köçürülməsi, nə də doxsanıncı ilin yanvar qırğını olmuşdu. Adama elə gəlirdi ki, bu dərsliyi Zori Balayan redaktə etmişdir...

Vaxtilə böyük Məhəmməd Əmin yazırdı: "Rusiyada rus vətənsevərliyinin Aleksandr Nevski, Minin, Pojarski kimi qəhrəmanları, Suvorov, Kutuzov, Baqration və sairə kimi rus imperatorluğunun tarixi sərkərdələri yüksək bir əda ilə öyülərək göylərə qaldırılarkən, Azərbaycanda vətən və milli istiqlal uğrunda unudulmaz mübarizəsilə tanınmış Dağıstanın böyük imamı Şamil ilə Gəncənin igid müdafiəçisi Cavaddan bəhs etmirlər".

Azərbaycan məktəblərində tədris edilən tarix dərsliklərinə Azərbaycanın o şəxsiyyətləri daxil edilirdi ki, onların fəaliyyətində beynəlmiləlçilik meylləri və ermənilərə qardaşlıq münasibəti təzahür olunsun. Doqquzuncu sinfin "Azərbaycan tarixi" dərsliyində "XIX əsrin ikinci yarısında Azərbaycan mə-

dəniyyəti" fəslində oxuyuruq: "M.F.Axundov N.Q.Çernışevskinin əsərlərinə böyük maraq göstərirdi. Onun şəxsi kitabxanasında Çernşevskinin 18 əsəri var idi". "Azərbaycan ədəbiyyatında ilk realist roman N.Nərimanovun "Bahadır və Sona" əsəri idi. Bu əsər Azərbaycan xalqı ilə erməni xalqının dostluq və qardaşlığını parlaq surətdə əks etdirmişdi. Əsər irtica qüvvələrinin böyük həyəcanına səbəb oldu. Onlar hətta az qala N.Nərimanovu öldürəcəkdilər".

M.F. Axundovun şəxsi kitabxanasında Çernışevskinin neçə əsərinin olmasını dəqiqliklə göstərənlər, N.Nərimanovu öldürə biləcək "irtica qüvvələrindən" dəm vuranlar dərslikdə Babəkin son günlərini belə təsvir edirdilər: "Qızğın vuruşlardan sonra Babək öz silahdaşları ilə birlikdə Bəzz qalasını tərk etdi. Bir müddətdən conra o, xəyanət nəticəsində ərəblərin əlinə keçdi. 838-ci il martın 4-də Babək Samirə şəhərində edam edildi".

Görəsən, niyə bu xəyanət və xəyanətkar barədə müfəssəl heç nə deyilmir? Çünki Babəkə xəyanətkarlıq edən ermənidir. Qarabağı Azərbaycanın köksündən qoparmaq istəyənlərin qarı əcdadı Səhl Sumbatdır. Müsəlman və ya türk olsaydı, yazardılar. Necə ki, Koroğlu haqqında yazıblar: "Türk işğalçılarına qarşı vuruşan dəstələrdən birinə xalq qəhrəmanı Koroğlu rəhbərlik edirdi." Başqa sözlə desək, işğalçılar türk olduğu üçün Koroğlu xalq qəhrəmanı olmuşdur, işğalçılar rus və ya erməni olsaydılar, Koroğlu da xalq qəhrəmanı deyil, xalq düşməni və millətçi kimi qələmə verilərdi.

IV

M. Ə. Rəsulzadə Azərbaycanı və azərbaycançılığı Azərbaycandan kənarda da yaşadan misilsiz şəxsiyyətdir.

Dünyanın hər yerində və hər zaman Məhəmmədəminçilər millətimizin fəqərə sütunu olmuşlar. Ona görə də, totalitar Sovet rejiminin qəniminə çevrilmişlər.

M. Ə. Rəculzadənin silahdaşlarını məhv etmək erməni qatillərin əməli iş planına düşmüş və qətlə yetirilmişlər.

Azərbaycan Demokratik Respublikasının xarici işlər naziri Fətəlixan Xoyski 1920-ci il iyunun 19-da Tiflisdə muzdlu erməni qatili tərəfindən güllə ilə öldürülmüşdur. Həmin qatil düz bir ay sonra – 1920-ci il iyulun 19-da Məhəmməd Əminin digər yaxın silahdaşını – Azərbaycan parlamenti sədrinin müavini işləmiş Həsənbəy Ağayevi qətlə yetirmişdir. Elə həmin il Azərbaycan Respublikası Nazirlər Şurasının sədri Nəsibbəy Yusifbəyli Kürdəmirdə quldurlar tərəfindən öldürülmüşdür.

Məhəmmədəminçilər öz bayraqdarları kimi son nəfəsədək Azərbaycan ideyasını yaşatmışlar. Onların hər birinin həyat və fəaliyyəti ensiklopediya yüklü kitab kimidir. Əfsuslar olsun ki, illər uzunu nəsillərimizə unutdurulanların əziz xatirəsini indi də layiqincə yaşatmırıq.

Fətəlixan Xoyski Tiflisdə, öz həmyerlisi M.F.Axundovun uyuduğu qəbiristanlıqda onun yanındaca basdırılmışdı. Hanı məzarı?

Nizami yurdunun böyük övladı Nəsibbəy Yusifbəylinin Kürdəmirdə qətlə yetirildiyi kənddə xatirəsi necə əbədiləşdirilib?

Azərbaycan Demokratik Respublikası kabinetində sənaye və ticarət naziri olmuş Məhəmməd Yusif Cəfərov Bakının Şağan kəndindəki qəbiristanlıqda basdırılmışdır. Yada düşürmü?

1991-ci il fevralın 2-də Azərbaycan Demokratik Respublikası dövründə "Azərbaycan" qəzetinin redaktorlarından biri olmuş, omrünün sonunadək Azərbaycan ideyasını Fransada yaymış Ceyhunbəy Hacıbəylinin anadan olmasının 100 illiyi tamam oldu. Ötüb keçdi...

Azərbaycan Demokratik Respublikasının xarici işlər naziri, Versal sülh konfransının iştirakçısı Əlimərdanbəy Topçubaşovun Parisdə zəngin şəxsi kitabxanası açılmamış qalmaqdadır. Bu xəzinə nə vaxt mənimsəniləcək?

Azərbaycan Demokratik Respublikası hökumətinin 23 yaşlı ən gənc üzvü – daxili işlər naziri Mustafabəy Vəkilovun 1996-cı ildə anadan olmasının 100 illiyi, vəfatının 35 illiyi tamam olacaqdır. Soydaşlarımızın, ilk növbədə Mustafabəyin həmyerliləri olan qazaxlıların nəzərinə çatdırıram.

Azərbaycan hökumətinin son kabinetində ticarət, sənaye və ərzaq naziri olmuş Məmməd Həsən Hacınski Tiflis həbsxanasında həlak olmuşdur. 1995-ci il mart ayının 3-də anadan olmasının 120-ci ildönümüdür.

Gələn il Azərbaycan hökumətinin üzvü Behbudağa Cavanşirin anadan olmasının 110 illiyi gələcəkdir. Otuz beş yaşlı B.Cavanşiri erməni qatili İstanbulda qətlə yetirmişdi. Yeri gəlmişkən, bir faktı da göstərmək istəyirəm. Behbudağa Cavanşiri Almaniyaya şəxsən Nəriman Nərimanov ezam etmişdi. Bir neçə əcnəbi dil bilən, Almaniyada təhsil almış bu "müsavatçı" Nəriman Nərimanovun tapşırığı ilə Sovet Azərbaycanı üçün müasir neft-mədən avadanlığı almalı idi. Fəqət həm Məhəmməd Əmin Rəsulzadənin, həm də Nəriman Nərimanovun düşmənləri olan ermənilər onu yarı yolda qətlə yetirdilər.

Azərbaycan müstəqilliyinin qəddar qənimləri olan imperiya qüvvələri və onların erməni nökərləri 1925-ci ildə Nəriman Nərimanovu məhv etməklə xalqımızın milli diriliyinə son qoymaq məqsədini güdürdülər. Lakin Məhəmməd Əmin Azərbaycanın müstəqillik ideyasını daha otuz il davam etdirdi. M.Ə.Rəsulzadə və N.Nərimanov xalqımızın milli dirilik qartalının qoşa qanadlarıdır. Təəccüblüdür, bu gün Dağlıq Qarabağı bir ovuc erməni işğalçılarından qopara bilməyənlər elə zənn edirlər ki, N.Nərimanov Azərbaycanın tam müstəqilliyini dünyanı udmağa hazırlaşan rus imperiya əjdahasının ağzından ala bilərdi. Lakin N.Nərimanov əməli işdə o zaman müsavatçılara qarşı, 1990-cı ildə Azərbaycan Kommunist Partiyasının xalq cəbhəçilərinə tutduğu divanla müqayisədə qəddar mövqe

tutmamışdır. Əksinə, yeri gəldikcə onlara kömək etmişdir. Bu mənada mənə elə gəlir ki, 1920-ci ildə M.Ə.Rəsulzadənin Azərbaycandan sağ-salamat getməsi də N.Nərimanovun tarixi xidmətidir. Onun icazəsi olmadan xalq komissarı Stalin köhnə dostunu Bayıl həbsxanasından çıxarıb Moskvaya apara bilməzdi...

M.Ə.Rəsulzadə N.Nərimanovdan on dörd yaş kiçik idi. Yüksək mərifət sahibi olan axund övladı həmişə ona "doktor Nərimanov" – deyə müraciət etmişdir. Ta ömrünün sonunadək N.Nərimanovun əleyhinə kiçicik bir məqalə də yazmamışdır. Yaxşı, bəs biz niyə onları bir-birinə düşmən etməliyik? Nəyin xatirinə və nə üçün?

Mənə elə gəlir ki, Nərimanovları Məhəmməd Əminlərə qarşı qoyanlar millətimizə yenə də marksizm-leninizmin sinfilik mövqeyindən yanaşırlar. Unudurlar ki, millətin böyük şəxsiyyətlərini, həmçinin yüksək vəzifəli qeyrətli rəhbərlərini bir-birinə qarşı qoyub bir-bir səhnədən uzaqlaşdırmaq Sovet imperiya siyasətinin məqsədi idi.

Məhəmməd Əminin milli müstəqillik bayrağının qaldırıldığı bir ölkədə bir daha qrup meyarını əsas götürmək – milli fəlakət olardı. Öz nəsilləri arasında tarixi və milli bütövlüyü yaşada bilməyən xalqı düşmən asanlıqla parçalaya bilər. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin açılışında M.Ə.Rəsulzadənin nitqindəki bu sözlər indi necə də əzəmətlə səslənir: "Bu gün firqə ehtirasları, şəxsiqərəzləri və bütün bu kimi vətən və millət qayəsi qarşısında qalan alçaq qərəzlər atılmalı, vətən qayğısı və millət duyğusu hər şeydən yüksək tutulmalıdır".

Azərbaycanın tam müstəqilliyini bərpa etmək üçün həmişə və hər yerdə bütün azərbaycanlılar hansı partiyaya və hərəkata mənsubiyyətindən asılı olmayaraq məhəmmədəminçi olmalıdırlar. Məhəmmədəminçi – Azərbaycanı milli zəmin üzərində yüksəldən azərbaycanlılıqdır.

V

Məhəmmədəminçilərdən biri ilə şəxsi tanışlığım xatirimdə silinməz izlər buraxmışdır. Son məktubunu əziz yadigarı kimi saxlayıram. Qazaxlı Məhəmmədəminçi ilə onun doğulduğu kənddə – Qızıl Hacılıda görüşmüşdüm. Murtuz Məhəmməd oğlu Bayramov 1916-cı ildə burada dünyaya gəlmişdi. Müharibə illərində Murtuzun xidmət elədiyi alay mühasirəyə düşmüş, digər döyüşçülərlə o da Polşadakı əsir düşərgəsinə aparılmışdır. Keçmiş tarix müəllimi əqidəsaşlarının köməyi ilə Azərbaycan legionunun üzvləri ilə əlaqə yaratmış və o zaman Berlində mehmanxanada məskunlaşan M.Ə.Rəsulzadə ilə görüşmüşdür. Murtuz Bayramov Məhəmməd Əminlə ilk görüşünü belə xatırlayırdı: "Almaniyada elə bil illərdən bəri üzünü görmədiyim yaxın qohumumu gördum. Qazaxdan olduğumu biləndə soruşdu ki, bəs ermənilərlə necə dolanırsınız. Mən də cavab verdim ki, qardaş kimi. Onun üzündə qəribə bir təbəssüm gəzdi. Sonra əlimdən nə gəldiyini soruşdu. Tarixdən və coğrafiyadan dərs verdiyimi, almanca başa düşdüyümü, makinada yaza bildiyimi söylədim. Sonra soruşdu ki, latın hərflərini bilirəm, yoxsa yox. Bilirəm – dedim. Məhəmməd Əmin Almaniyada azərbaycanca çıxan qəzetin redaksiyasında işləməyimə icazə verdi. Həm də makinaçılıq edirdim. Bütün qəzet materiallarını latın hərflərilə makinada mən yazırdım".

Məhəmməd Əminin Murtuz Bayramova etdiy yaxşılıq Almaniyadakı hərbi əsirlikdə olan bütün azərbaycanlılara xilaskarlıq himayəsinin ifadəsi idi. Təkcə bunu göstərmək kifayətdir ki, Murtuz Bayramov "Azərbaycan" qəzetinin müxbiri kimi Avropanın on dörd ölkəsinə səfər etmişdi...

Əsgərlikdə Məhəmməd Əminin himayəsi ilə gün-güzəran görən Murtuz müəllim öz vətənində zindana düşdü. 1945-ci ilin avqustunda Qazaxa, Qızıl Hacılıya qayıdan müharibə iştirakçısını bir il sonra gecə yarısı dövlət təhlükəsizliyi

orqanları Bakıya gətirdilər. Təcridxanaya salınanda onun bütün var-yoxunu, qızıl qol saatını Qriqoryan familiyalı mayor ələ keçirdi... Almaniyada Azərbaycan legionunun üzvü kimi Murtuz Bayramov hərbi tribunalın hökmü ilə 1955-ci ilədək Komi vilayətində sürgündə oldu...

Qazaxlı Məhəmmədəminçinin adını çəkdiyim məktubunu oxuculara çatdırıram: "Hörmətli Teyyub müəllim, salam! Müharibə iştirakçısı olmağıma görə rayon hərbi komissarlığından arayış istədim ki, pensiyamı artırım. Cavab belə oldu ki, Respublika Təhlükəsizlik Komitəsinin razılığı lazımdır. Cünki plen olmusan. Mən də 1990-cı il noyabrın 11-də Vaqif Hüseynovun adına məktub yazdım. Ancaq dörd aydır ki, cavab yoxdur. Ərizəmlə birlikdə Komi ASSR-dən aldığım rəsmi arayışın surətini də göndərmişəm. Orada yazılmışdır ki, SSRI Ali Sovetinin 1955-ci il 17 sentyabr tarixli amnistiyası əsasında sürgündən azad olunaraq məhkumluq üzərimdan götürülmüşdur".

...Başı bəlalar çəkmiş köhnə cəbhəçi dünyadan köçəndən sonra ərizəsinin cavabı Qazaxa gəldi...

...Murtuz Bayramov İkinci Dünya müharibəsi illərində Almaniyada təşkil olunmuş yeddi batalyonda birləşən azərbaycanlılardan biri idi. Bəs qalanları? Mənə elə gəlir ki, Azərbaycanın hər bir guşəsində Murtuz Bayramovlar yaşamış və ya onların ailəsi yaşamaqdadır. Və mənə bu da indi gün kimi aydın olur ki, bu cəngavərlər böyük Məhəmməd Əminin üçrəngli bayrağı altında xalqımızın istiqlalı uğrunda vuruşmuşlar. Əfsuslar olsun ki, bu naməlum qəhrəmanlarımızın adları Təhlükəsizlik Komitəsinin arxivlərində qalmışdır...

VI

Professor Murtuz Sadıqovun "Müxalifət" qəzetində (11 aprel 1992-ci il) "Məmməd Əminin oğlu hələ də sürgündədir" adlı məqaləsi dərc olunmuşdu. Azərbaycan mədəniyyət fondu

nəzdindəki "Vicdan" komissiyasının sədri ürək ağrısı ilə yazırdı: "Azərbaycan xalqının mənəvi atası M. Ə. Rəsulzadənin 52 ildən sonra –1989-cu ildə bəraət alan oğlu hələ də Qazaxıstanda yaşayır. Ona Azərbaycanda yer tapılmır, Azərbaycan rəhbərləri isə Azərbaycan Demokratik Respublikasının ənənələrinə "sədaqətləri" ilə öyünməkdədirlər və hətta həmin respublikanın müqəddəs üçrəngli bayrağını başlarının üstündən asıblar... Mən çinovniklərə deyil, M. Ə. Rəsulzadənin həqiqi varislərinə üzümü tuturam – M. Ə. Rəsulzadə yadigarına kömək edin, qoy o öz ömrünü (72 yaşı var) doğma vətəndə başa vursun, o vətəndə ki, müqəddəs M. Ə. Rəsulzadə həyatını büsbütün onun azadlığına həsr etmişdir. Vətən M. Ə. Rəsulzadənin böyük oğlunu qoruya bilmədi. (1938-ci ildə güllələnib); omür yoldaşını, qızlarını qoruya bilmədi – onlar da sürgündə həlak oldular. Görəsən, Azər müəllimi də sürgündə saxlamalıyıq?!"

Haqlı sual idi. Hamımıza verilmişdi. Bu sualın cavabında mən də susa bilməzdim.

Məhəmməd Əminin ailəsinin başına gətirilən müsibətləri hamıdan çox bu sualın sahibi Murtuz müəllim və onun qardaşı Sadıq Sadıqov ilk dəfə açıqlamışdır. Yəqin çoxları bilmir ki, bu iki qardaş–birisi alim və ədib, ikincisi milis polkovniki vaxtilə Qazaxıstanın Taldı-Kurqan rayonunda sürgündə olmuş, onlara Məhəmməd Əminin oğlu Azər Rəsulov rəsmxətdən dərs demişdir.

Sadıqov qardaşları o zamanlar "Azər Mamedoviç" dedikləri müəllimlərinin borcundan ləyaqətlə çıxmışlar. Böyük qardaş Murtuz Sadıqov "Gördüklərim, çəkdiklərim" əsərində öz müəllimindən söhbət açmış, 1944-cü ildə sürgün yerində "Arşın mal alan" tamaşası göstərilərkən tamaşadan əvvəl Azər müəllimin çıxışından bəhs etmişdir. Azər Rəsulovun mətbuat səhifələrində ilk dəfə adını çəkən də, 1989-cu ildə Azərbaycan Yazıçılar Birliyinin xətti ilə Qazaxıstana – Azər müəllimin

sorağı ilə yola düşərkən mənə xeyir-dua verən də Murtuz Sadıqov olmuşdur. Başı bəlalar çəkmiş keçmiş tələbə başı bəlalar çəkməkdə davam edən keçmiş müəlliminin taleyinə hamıdan çox yanırdı.

Kiçik qardaşın – Sadıq Sadıqlının öz keçmiş müəllimi qarşısındakı xidməti də misilsizdir. Polkovnik özü bəraət aldıqdan və milis orqanlarında işə bərpa olunduqdan sonra Azərin və Məhəmməd Əminin bütün qohumlarının üzərindən məhkumluğun götürülməsi üçün əlindən gələni etmişdir. Nəhayət, 1989-cu il avqustun 11-də buna nail olmuşdu.

Taleyimdən razıyam ki, bu xəbəri 1989-cu ilin dekabrında Qazaxıstanın Karaqanda şəhərində Azərə çatdırmaq mənə qismət olmuşdur. Həmin şaxtalı dekabr günləri hafizəmdə silinməz qalmışdır... Otuzuncu illərdə dustaqlar ücün tikilmiş həyətlərdən birisinin qapısını döydüm. Qarşıma iplik corabda... Azər çıxdı. Bir neçə gündə bir-birimizə qardaş kimi isinişdik. Bakıya qayıdanda qoşa şəkil çəkdirdik. Şəkli poçtla göndərəcəyini vəd etdi. Qanlı yanvar hadisələri zamanı onun göndərdiyi zərf Bakıdan geri qaytarılmışdı. Şəkli sonra mənə göndərdi... Karaqandada Azər müəllimlə söhbətlərdən bu da mənə aydın oldu ki, Azərbaycanda onların yaxın və uzaq qohumları çoxdur. Oğlu Rəis ali məktəb müəllimidir. Bacısı qızı Füruzə Lökbatanda yaşayır.

Doxsanıncı ilin yanvar-fevral aylarında dolan ürəyimi boşaltmaq ücün respublika qəzetlərinə üz tutdum.Yaxın duran olmadı. O vaxtlar hər cümə axşamı baş çəkdiyim Şəhidlər xiyabanında televiziyada işləyən və ərkim çatan qələm dostlarıma Azər ilə Karaqandada çəkdirdiyim fotoşəkli göstərdim. O zamanlar inqilab dalğası kimi ekrandan boylanan "Dalğa" verilişində Füruzə xala və Azər müəllimin M. F. Axundov adına Respublika Kitabxanasında işləyən qohumu Ədilə xanımla birlikdə çıxış etdim. "Dalğa" verilişi, adətən, axşamdan keçmiş başlanırdı və gecəyədək davam edirdi. Veriliş

gedən axşamı mənə zəng vuranların sayı-hesabı yox idi... Telefon dəstəyini qızım Fəridə götürürdü.

– Dədə, Nazirlər Sovetindəndir...

– Bəli, eşidirəm.

– Həsən Həsənov yoldaş sizinlə danışacaq, evindədir, xahiş edirəm, telefonu "zanit" eləməyin.

– Mən heç kəsə zəng vurmuram. Mənə zəng vururlar.

– Çalışın, az danışsınlar...

Bir neçə dəqiqədən sonra telefonda Həsən Həsənovun səsi eşidildi. Məni təbrik etdi. Xahiş etdi ki, Azər müəllim Bakıya gələndə mütləq onun xəbəri olsun.

Telefon zənglərindən sonra məktublar almağa başladım. Neftçaladan gələn məktubda dostum İmamverdi Əbilov yazırdı: *"Bu gün "Dalğa"da sizi dinlədim. Xalqımızın cəsur, mütəfəkkir övladı Məhəmməd Əmin Rəsulzadəyə həsr olunmuş məclis bədii səviyyəsindən çox, ibrət məktəbi kimi məni dəbərtdi. M.Rəsulzadə irsinin tədqiqinə sərf etdiyiniz əməyə alqış! Vətəni çox sevdiyindən özü dərbədər, nəsli pərən-pərən olmuş bu uca şəxsiyyətin məzarından gətirilmiş torpağı neçə illərdir ki, müqəddəs nemət kimi qoruyuram. Neftçalanın ən yaraşıqlı küçələrindən birinə Rəsulzadənin adının veriləcəyinə əmin ola bilərsiniz. Bu böyük millət təəssübkeşinin adını əbədiləşdirmək üçün çox iş görməliyik, əzizim!*

12 mart 1990. Sübh."

Aldığım məktublar, qələm dostlarımın məsləhətləri məni Azər haqqında sənədli oçerk yazmağa həvəsləndirdi. "Mütləq Bakıya qayıdacağam" sərlövhəsi ilə bu yazı "Reslublika" qəzetinin 28 iyul 1990-cı il tarixli nömrəsinin bir səhifəsini tutdu. Səhifədə Azərin Qazaxıstandan mənə göndərdiyi fotoşəkil də verilmişdi.

Böyük Məhəmməd Əminin oğlunun Qazaxıstandakı ünvanı oxuculara bəlli olandan sonra Karaqandaya gedən məktubların, bağlamaların, xüsusilə xalq cəbhəsindən olan cavanların,

sonra da jurnalistlərimizin axını başladı. Sonralar Azər deyirdi ki, bu, rabitə işçilərinin, poçtalyonun, qonum-qonşunun təəccübünə səbəb olsa da, məndə Vətənə qayıqmaq hissini qat-qat qüvvətləndirmişdi. Kövrəlirdim...

Bakıda isə Azərbaycanın hər yerindən qəzet redaksiyasına məktublar daxil oldu. "Respublika" qəzetinin 4 avqust 1990-cı il tarixli nömrəsində dərc olunmuş "Yolunu gözləyirik!" adlı məktubda deyilirdi: *"Hörmətli redaksiya! "Mütləq Bakıya qayıdacağam!" adlı yazını maraqla oxuduq. Uzun illər boyu haqsızlığın qurbanı olmuş, doğma vətənimdən didərgin düşmüş Azərin Bakıya qayıtmaq arzusu bizi həm ürəkdən sevindirdi və həm də qəlbən kövrəltdi. Taleyin işinə nə deyəsən! Axı, bu müqəddəs nəslin doğma yurdunda bir nişanəsi, sığınacaq yeri qalmamışdır.*

Məhəmməd Əmin Rəsulzadə vətənindən didərgin düşəndə böyük oğlu Rəsul heç bir günahı olmadan güllələnir, ailənin qalan üzvləri Qazaxıstana sürgün edilir. İndi bu qeyrətli soyun yalnız bir oğlu, sizin qəzetinizdə haqqında yazılan 69 yaşlı Azər sağdır və hazırda Karaqanda şəhərində yaşayır.

Respublikamızda yüzlərlə günahsız azərbaycanlıya bəraət qazandırmış "Vicdan" komissiyası ötən il xeyirxah bir iş görüb. Məhz bu komissiyanın ciddi səyi nəticəsində Məhəmməd Əmin Rəsulzadənin ailəsinə bəraət qazandırılıb. Nəhayət, qəlbi toxtaqlıq tapan Azər doğma ocağına qayıtmaq istəyir. Bəs o, ömrünün son günlərində hara sığınsın! Odur ki, sizdən xahiş edirik, bizim arzumuzu qəzetiniz vasitəsilə respublika hökumətinə yetirəsiniz. Məhəmməd Əmin Rəsulzadənin Novxanıdakı keçmiş bağlarından birinin oğluna qaytarılmasına və Azərin Bakıda mənzillə təmin olunmasına köməklik göstərilsin.

Hörmətlə: Anar, Elçin, Yusif Səmədoğlu, Hacı Hacıyev, Murtuz Sadıqov, Sadıq Sadıqov".

Həmvətənlərimiz bu çağırışa ürəkdən qoşuldular. "Respublika" qəzetinin 22 sentyabr 1990-cı il tarixli nömrəsindəki

məktublara diqqət yetirin. Bakıdan Məzahir Hacıyev yazırdı: *"Mən təklif edirəm ki, Azər Rəsulzadənin adına xüsusi hesab açılsın. Həmin hesaba yollanan vəsaitlə respublikamızda - özünün istədiyi yerdə Azər üçün ev tikilsin. Şəxsən mən məvacibimin az, ailəmin isə böyük olmasına baxmayaraq, bu hesaba 100 manat keçirməyə hazıram".*

İsmayıllı rayonu, Lahıc qəsəbə xəstəxanasının tibb işçisi Qurban Hacıəhmədli ürək sözlərini belə ifadə edirdi: *"Çox istərdim ki, Vətənə dönərkən Azər əmi məhz Lahıc qəsəbəsini özü üçün daimi yaşayış yeri seçsin. Camaatımız yurdumuzun bu səfalı guşəsində onun üçün hər cür şərait yaratmağa hazırdır".*

...1990-cı ilin payızında Azər Bakıya gəldi. Onun gəlişindən rəsmi dairələr xəbər tutsalar da, özlərini görməməzliyə və eşitməməzliyə vurdular. Nə bir qəzet, nə də radio və televiziya bu barədə məlumat vermədi. Yalnız və yalnız Azərbaycan televiziyasının əməkdaşlarından biri – Telli Pənah qızı onu arayıb axtardı. Əfsuslar olsun ki, müxbirin Azərlə müsahibəsi çox gec–1991-ci il yanvarın 22-də "Yurddaş" qəzetində çap olundu...

Azər Binə təyyarə meydanından öz doğmalarının müşayiəti ilə Əhmədliyə, oğlu Rəisin evinə yollandı. Çox keçmədi ki, Azərin Bakıya qayıtmasını bütün şəhər bildi. Zəng vuranlar, ünvanı öyrənib Əhmədliyə gedənlərin sayı çoxalmağa başladı. Lakin Əhmədlidəki ikiotaqlı mənzil paneldən idi. Azər təngnəfəs olurdu, sıxılırdı və buna görə də hərdən bir neçə günlüyə Lökbatandakı daş evə səfər edirdi – bacısı qızı Füruzəgilə.

Bir sirri də oxuculara açmaq istəyirəm. 1989-cu il dekabrın axırlarında Karaqandada olarkən, Azərlə aramızda belə bir şərt kəsmişdik ki, o, Bakıya gəlsə, yeni il axşamı və Novruz bayramında bir yerdə olacağıq. İndi şərtə əməl etmək məqamı çatmışdı. Əhmədliyə Rəisgilə zəng çaldım. Dəstəyi götürən olmadı. Demək, Azər Lökbatandadır.

...Füruzə xala dəhlizdə məni ana kimi mehribanlıqla qarşıladı. Gözləri sevincdən dolmuşdu. Qələm dostum Aydın Hüseynzadə də burada idi. Məhəmməd Əminin sonbeşik oğlunun yanında isə Seyid Hüseynin sonbeşik qızı Qumral xanım əyləşmişdi. Süfrədə yurdun nemətlərindən hər şey vardı. Üstəlik, Məhəmməd Əminin ən yaxın silahdaşlarından biri olmuş Əhməd Cavadın sonbeşik övladı Yılmaz Axundzadə Azər ücün bayram sovqatı göndərmişdi. Sonbeşiklər işığında süfrə başındakı söhbətimiz ata-baba ocağından gedirdi. Mənim ücün bu məclis bir də ona görə şirinləşmişdi ki, Azərlə Karaqanda görüşündən bir il keçirdi. İlk görüşün ildönümü idi. O zaman Bakıya tələsirdim. Məhəmməd Əminin övladının sağ-salamat olmasını hamıya, Azərbaycanın hər tərəfinə yaymağa tələsirdim. Bu gün hara tələsirəm? Bu yüksək mədəniyyət sahibi, az danışan, təvazökar, səliqəli, geniş dünyagörüşə malik olan rəssamdan doymaq mümkün deyildi.

...Ayrılarkən Azər müəllim mənə bir yazılı kağız verdi.

– Bax, burada ürək sözümü yazmışam. Yazılanları Murtuz Sadıqov rəsmi dairələrə çatdırıb. – Nəfəsini dərdi. – Dünənki tələbəm bugünkü xilaskarım kimidir.

Azər Rəsulzadənin dəsti-xəttilə yazılmış və o vaxtkı respublika prezidentindən tutmuş kiçik məmurlaradək baxımsız qalmış məktubla tanış olun:

"Mən Məhəmməd Əmin Rəsulzadənin sağ qalmış yeganə övladıyam. 1937-ci ildə ailəmizi Qazaxıstana sürgün etdikləri vaxtdan ta bu günə qədər orada yaşamışam. Nəhayət, indi, 54 ildən sonra Vətənə qayıtmışam. 71 yaşım var, özüm də xəstəyəm. Uzun illər ərzində həmişə Vətən həsrəti ilə yaşamışam. Ömrümün axırlarına yaxın doğma Bakıya qayıtmaq arzusu daha da güclənir. Son illərdə atamın adı ilə bağlı olan bir çox hadisələrin öz həqiqi qiymətini tapması, Bakı Universitetinə onun adının verilməsi, əsərlərinin çap edilməsi və s. mənə ümid verir ki, ömrümün sonunu doğma Vətənimdə yaşaya bilərəm.

Mən çox istərdim ki, Bakıda atamın yaşadığı, mənim anadan olduğum, yeniyetmə dövrünə qədər yaşadığım – Əzizbəyov küçəsindəki binada olan mənzilimdə yaşayım və atamın xatirələrini canlandırmaq üçün orada ev-muzey təşkil edim. Bu mənim ömrümü uzadardı.

Bir də, ata-baba yurdumda – Novxanıda bir parça bağ yeri verilməsini arzulardım.

Başqa bir arzum və təmənnam yoxdur.

Azər Rəsulzadə

31 dekabr, 1990-cı il."

Mən Azərgilin şəhərdəki evini yaxşı tanıyıram. 1937-ci ildə markaryanlar Məhəmməd Əminin bütün ailəsini Qazaxıstana sürgün edəndən sonra burada Arakelovlar ailəsi yaşamışdır. Azər Karaqandadan Bakıya gələndə bu erməni ailəsi köçünü hazırlamışdı.

Azər zahirən özünü əyməsə də, daxildən alovlanırdı. Yadımdadır, 1991-ci il yanvarın 31-də Məhəmməd Əminin doğum günündə Novxanıya getdik. Azər babasının məzarı başında uzun illərin həsrətindən sonra daşa dönmüşdü. O gün axşam televiziya ekranında ona bütün Azərbaycan baxdı. Ürəyimizdən keçdi ki, yəqin kabinetlərində Məhəmməd Əmin bayrağı asanlar tezliklə Azəri Türkiyəyə, atasının məzarı başına da aparacaqlar... Yox, aparmadılar.

Novxanıda ata-baba evlərinin uşaq bağçası olduğunu gördü. Təəssüflənmədi. Onu yandıran bu oldu ki, qədim evin və həyətin bir daşında, bir qarışında belə babasından və atasından kiçicik nişanə belə yoxdur. Dədə-baba bağını axtardı, tapa bilmədi. Dedilər ki, sovxozun sahələrinə qatılmışdır...

Bakıda qaldığı müddətdə Azərin ancaq bir marşrutu vardı. Novxanı – Əhmədli – Lökbatan: babasının məzarı, oğlunun evi, bacıqızının isti yuvası... Günlərin bir günü bu marşrut xətti

pozuldu. Xəstəlik güc gəldi. "Vicdan" cəmiyyətinin köməyi ilə Azər şəhərin dağüstü xəstəxanasına qəbul edildi...

...Xəstəxanadan çıxmaq ərəfəsində Rəis atasına bildirdi ki, onlara təzə mənzil veriblər.

– Mübarək olsun, oğul! Ev daşdandır?

– Yox, betondan.

– Haradadır!

–"Qanlı gölün" yanında.

...Yəqin ki, Azərin bəyaz saçlarında bir qara tel qalsaydı, o da bu an ağarardı. Ancaq adəti üzrə yenə də özünü toxtaq tutdu. Xəstəxanadan Lökbatana, oradan da... Karaqandaya yol aldı – otuzuncu illərdə dustaqlar üçün tikilmiş evə... Və çox keçməmiş Bakıya təyyarə ilə tabutu gətirildi.

SON SÖZ

Məhəmməd Əmin – nadir şəxsiyyətdir. Onun ömrü elə bir salnamədir ki, millətimizin mənliyinə dair bütün suallara burada cavab tapmaq mümkündür. Onda nöqsan axtarmaq – günəşdə ləkə gəzmək kimidir. Azərbaycan istiqlalının, Azərbaycan müstəqilliyinin, Azərbaycan demokratiyasının əsrin sınağından çıxmış bir yolu vardır – Məhəmməd Əmin yolu!

1994-1995-ci illər
"Bakının səsi",
1 və 8 mart 1995

TÜRKİYƏ QÜRBƏTDİR, RUSİYA VƏTƏN?

Əsrimiz boyu Azərbaycanın başına gətirilən müsibəti dərk edəndə, bir həqiqət meydana çıxır: hansı siyasi partiyaya mənsubiyyətdən asılı olmayaraq, Azərbaycanın müstəqilliyini istəyənlər həmişə bolşeviklərə qarşı düşmənə çevrilmişlər. Əfsuslar ki, bəzi qocaman soydaşlarımız, gənclik çağlarındakı kimi, tariximizə sinfilik mövqeyindən baxmağa həvəs göstərirlər. Məsələn, əməkdar elm xadimi, tarix elmləri doktoru Kamran Rəhimovun və tarix elmləri namizədi dosent Asya Hacıyevanın fevral ayında mətbuatda dərc etdirdikləri məqalədə oxuyuruq: "Nərimanov ömrünün sonunadək öz xalqı ilə birlikdə əzablara dözmüş, canını fəda vermişdir. Rəsulzadə isə ölkəni tərk edib köçmüş, omrünün sonunadək xaricdə yaşamışdır".

Əlbəttə, Sovet hakimiyyəti illərində bu sözlər üçün onun müəlliflərinə mükafat da verilə bilərdi. Ancaq indi, Azərbaycanın dövlət müstəqilliyinə qovuşduğu bir zamanda oxucuları çaşbaş salmağın nə mənası var? Məgər bu iki şəxsiyyəti bir millətin övladları kimi birləşdirən ümumi cəhətlər yoxdurmu? Hər ikisi Azərbaycanın müstəqilliyi yolunda canını fəda etməyibmi? Özlərinin və ailə üzvlərinin faciəsi oxşar deyilmi? Hər ikisi uzun illər müasirlərimizə millətçi kimi təqdim olunmamışmı?

Onların ömür kitabını bir də vərəqləyərək, müxtəlif mətbuat səhifələrində ayrı-ayrı vaxtlarda yazılmışları bir daha nəzərdən keçirək.

...1891-ci ilin oktyabr ayında iyirmi bir yaşlı kənd müəllimi N. Nərimanov Bakıya gələndə yeddi yaşlı Məhəmməd Əmin rus-tatar məktəbinin şagirdi idi. Balaca Məhəmməd Əmin Qoqolun "Müfəttiş" komediyasını N.Nərimanovun tərcüməsində oxuyurdu. Bakıda N. Nərimanov tərəfindən kütləvi kitabxana-qiraətxananın açılmasını alqışlayanlar arasında M.Ə.Rəsulzadə

də vardı, onu "millət bağçasında yeni açılmış qızılgül"ə bənzədirdi.

İyirminci yüzilliyin başlanğıcında N.Nərimanovun "Hacı Zeynalabdin Tağıyevin əlli illik məişəti və camaata xidmətləri" kitabçası nəşr olunanda, ilk şeiri "Şərqi-Rus" qəzetində dərc edilmiş Məhəmməd Əminin istedadlı ədibə məhəbbəti daha da artmışdı. 1905-ci ilin payızında N.Nərimanov ilk müsəlman sosial-demokratik təşkilatı "Hümmət"ə daxil olanda, Məhəmməd Əmin bir il idi ki, bu təşkilatın üzvü və "Hümmət"qəzetinin naşirlərindən idi. Həmin illərin mətbuat səhifələrində həm N.Nərimanovun, həm də M.Ə.Rəsulzadənin çoxlu məqalə və nəsr əsərləri dərc olunmuşdu. 1906-1908-ci illərdə N.Nərimanovun "Nadir Şah", M. Ə Rəsulzadənin "Qaranlıqda işıqlar" pyesləri müvəffəqiyyətlə tamaşaya qoyulmuşdu.

1909-cu ilin mart ayında Tiflisdə N.Nərimanovun evində axtarış aparıldı və o, həbs edilib, Metex qalasına salındı. Tiflis quberniya jandarm idarəsinin məlumatında deyilirdi: "Nərimanov Nəriman bəy Nəcəf oğlu İran inqilabı mücahidlər təşkilatının üzvüdür. O, İranda Səttarxan və Bağırxanın inqilabçı dəstələrinə adam, silah və partlayıcı maddələr göndərir". Bəs, bu zaman M.Ə.Rəsulzadə harada idi? Təbrizdə Səttarxan və onun silahdaşları ilə görüşürdü. Altı ay Metex qalasında saxlanıldıqdan sonra Həştərxana sürgünə göndərilən "Hümmətçi"-nin də işini İranda M.Ə.Rəsulzadə görürdü. İran demokrat partiyasının əsasını qoyur, fars dilində çıxan "İranenov"qəzetinə redaktorluq edirdi. Tifllisdə N. Nərimanovu Metex qalasına salan qara əllər Təbrizə də uzandı. Çar hökuməti M.Ə.Rəsulzadənin həbs edilməsi barədə xüsusi göstəriş vermişdi...

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar əfv-ümumidən sonra N.Nərimanov Həştərxandan, M.Ə.Rəsulzadə İstanbuldan vətənə qayıtdılar. Qırx beş yaşlı N.Nərimanov ailə qurdu, əsli Şamaxıdan olan Gülsüm xanımla evləndi.

Otuz bir yaşlı M.Ə.Rəsulzadənin ilk övladı Lətifə isə dörd yaşa qədəm qoyurdu.

M. Ə. Rəsulzadə həmin ilin avqust ayından "Açıq söz" qəzetini nəşr edir. Gizli fəaliyyət göstərən Müsavat partiyası orqanının səhifələrində N. Nərimanovun "Bir kəndin sərgüzəşti" məqaləsi dərc olunur.

1917-ci ildə Rusiyada fevral burjua inqilabı baş verəndə N. Nərimanov da, M. Ə. Rəsulzadə də imperiyanın dağıldığına eyni dərəcədə sevinirdilər. Həmin il noyabr ayının 15-də Petroqradda Xalq Komissarlar Şurasının sədri Lenin və Xalq Milli İşlər Komissarı Stalin tərəfindən imzalanmış "Xalqların hüquq bəyannaməsi"ndə deyildiyi kimi, "millətlərin Rusiyadan ayrılmaq və müstəqil dövlətlər yaratmaq da daxil olmaqla öz müqəddəratını həll etmək hüququ" vardır. O zaman N. Nərimanov Leninə, M. Ə. Rəsulzadə köhnə dostu Stalinə necə inanırdısa, onların imzalarına da şəkk-şübhə etmirdilər. Rusiya müsəlmanlarının öz müqəddəratını həll etmək məsələsində xalqımızın siyasət meydanına atılmış bu iki oğlunun fikri yekdildi. Onlar o zaman nə biləydilər ki, bu sözlər kağız üzərində qalacaq və Rusiya yenidən xalqlar həbsxanasına çevriləcəkdir. Nə biləydilər ki, bu bəyannaməni imzalayan Lenin başqa bir dekretə də imza atmışdır: "Türkiyə Ermənistanı barədə".

Leninin dekretindən güc alan erməni bolşevikləri "əməli fəaliyyətə" Bakıdan başladılar. Rusiyanın Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissarı Stepan Şaumyan və Bakı Sovetinin sədri Prokofi Caparidze daşnaqlarla əl-ələ verib, 1918-ci il martın 30-da Bakını azərbaycanlılardan təmizləməyə başladılar. Üç gün ərzində şəhərdə 15 min soydaşımız öldürüldü. Erməni quldur dəstələri müsəlman məhəllələrinə soxulur, evləri yandırır, uşaqları valideynlərinin gözü qabağında oda atır, südəmər uşaqları süngüyə keçirirdilər. Qız-gəlinləri hörüklərindən bir-birinə bağlayıb, eybəcər hala saldıqdan sonra

diri-diri basdırırdılar. Leninin istəkli şagirdi Stepan Şaumyan bu dəhşətli mənzərədən həzz alırdı: "Biz bilərəkdən bunu etdik. Əgər onlar Bakıda çoxluq təşkil etsəydilər, Bakı Azərbaycanın mərkəzi olardı".

Sözü ilə əməli bir olan N.Nərimanov ilk dəfə idi ki, bolşevik həmkarlarının vəhşi təbiəti və mənfur millətçiliyi ilə üzləşirdi. "Hümmət" qəzetinin 1918-ci il 3 aprel tarixli nömrəsində N.Nərimanovun S. Şaumyana və P. Caparidzeyə yazdığı məktubların məzmunu verilmişdi. N. Nərimanov millətçilik çirkablarında beynəlmiləlçi donu geymiş xadimələrə xəbərdarlıq edirdi: "... Siyasi müharibə axırda milli müharibə yolu olubdur. Bu əhvalat Şura hökumətinə ləkə salıb, onu qara örtüklə bürüyür. Hərgah siz bu yavuq vaxtda bu ləkəni təmizləməsəniz, bolşevik və Şura hökuməti burada davam edə bilməyəcəkdir".

Bu sözlərin həqiqətə çevrilməsi uzun sürmədi. Tarixin təkəri Zaqafqaziyanı, müvəqqəti olsa da, bolşevik imperiyasının caynağından qopara bildi. 1918-ci il aprelin 26-da Zaqafqaziya seyminin qərarı ilə müstəqil Zaqafqaziya Demokratik Fedarativ Respublikası elan edildi. Bir ay keçməmiş gözlənilmədən Gürcüstan öz istiqlaliyyətini elan edərək, ZDFR-nın tərkibindən çıxdığını bildirdi. Buna görə də, Zaqafqaziya seyminin azərbaycanlı üzvləri mayın 28-də Tiflisdə Azərbaycanın istiqlaliyyətini elan etdilər. Gizli səsvermə yolu ilə M.Ə.Rəsulzadə Azərbaycan Milli Şurasının sədri seçildi. Gəncə Azərbaycan Demokratik Respublikasının müvəqqəti paytaxtı oldu. Bakıda isə iki ay bundan qabaq müsəlman qanına susamış, Şamaxıda və Qubada əllidən çox kəndi yandırıb talan etmiş, Bakı İnqilabi Müdafiə Komitəsinin üzvü Qriqori Korqanovun əmri elan edilmişdi. Əmrdə deyilirdi: "... Yelizavetpolda (Gəncədə) bəylər Azərbaycanın istiqlaliyyətini elan etmişlər. Türk qoşunları Qarsı, Aleksandropolu, İrəvanı və Ahalkahalkı tutmuşlar. Türk generalları Bakı proletariatını

əzmək və Sovet hakimiyyətini məhv etmək üçün Bakıya gedən yolun açılmasını tələb edirlər".

Gəncədə "Azərbaycanın istiqlaliyyətini elan etmiş" bəylərin Bakıya yürüşünün qarşısını yadelli Korqanovlar ala bilmədilər. 1918-ci ilin sentyabrında Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağı ölkənin paytaxtında yüksəldi.

Müstəqilliyin əlamətləri Azərbaycan həyatının bütün sahələrində nəzərə çarpırdı. Ölkədə yeni idarəetmə sistemi yaradıldı. Parlament ali dövlət hakimiyyəti oldu. Şərq ölkələri içərisində ilk dəfə Azərbaycanda qadınlara kişilərlə bərabər siyasi hüquqlar verildi. Parlamentin Azərbaycan vətəndaşlığı haqqındakı qərarında deyilirdi: "Milliyətdən, dindən asılı olmayaraq Azərbaycan ərazisində ya özü, ya da valideynləri doğulub boya-başa çatmış keçmiş Rusiya imperiyasının adamları Azərbaycan vətəndaşları sayılırlar". 1919-cu il noyabrın 15-də açılmış Bakı Dövlət Universitetinin tələbələri arasında ruslar, yəhudilər, almanlar, polyaklar, yunanlar və digər millətlərin nümayəndələri vardı. 1094 tələbədən yalnız 297 nəfəri azərbaycanlı idi. Azərbaycan hökuməti Avropa ölkələrində təhsil almağa 100 nəfər tələbə göndərmişdi. Bütün bunlar M.Ə.Rəsulzadənin də, N. Nərimaovun da ürəyindən deyildimi?

1918-ci il dekabrın 7-də Bakıda Azərbaycan parlamentinin, Azərbaycan Cümhuriyyətinin yaradıcısı, otuz dörd yaşlı M.Ə.Rəsulzadə deyirdi: "Bilirsiniz ki, bizim Rusiya camaatına qarşı heç ədavət və nifrətimiz yoxdur. Bezar olduğumuz Rusiya – çarizm Rusiyası istibdadıdır". Bəli, M.Ə.Rəsulzadə bilirdi ki, Rusiya bolşevikləri, əslində, rusların özlərinə də demokratiya və azadlıq bəxş etməyəcəklər, çünki "cəbrlə qəbul edilən şeydə qətiyyən səadət olmaz". N.Nərimanov isə 1919-cu ilin sentyabrında Moskvadan yazırdı: "Sovet Rusiyası öz hakimiyyətini, əgər onu xalq istəmirsə, heç bir xalqa zorla qəbul etdirmir". N.Nərimanovun "Bir millət ki, həyatına dair məsələlər həll olunan vaxt

yatar, lal olar, o millətin diriliyi şübhəlidir" sözlərini "Diriliklərin ən qiymətlisi milli dirilikdir" deməklə M.Ə.Rəsulzadə təsdiqləyirdi.

Bütün bunlar o deməkdir ki, Azərbaycan xalqının müstəqilliyinin bayraqdarı olan bu iki şəxsiyyət milli məsələlərdə mənsub olduqları xalqın mənafeyini hər şeydən üstün tutmuşlar.

Azərbaycan Demokratik Respublikasının banisi M. Ə. Rəsulzadə kimi, müstəqil Sovet Azərbaycanının bayraqdarı N. Nərimanov da Azərbaycandan savayı heç bir məmləkəti özünə vətən saymamışdır. O, Moskvaya – bolşevizmin baş qərargahına öz xalqının varlığını yaşatmaq üçün getmişdi. Hakimiyyət pilləsində yüksək yer almaq onun məqsədi deyildi. Qürbətdəki fəaliyyətini N. Nərimanov belə qiymətləndirirdi: "Bu iki ilin müddətində... cismimiz Rusiyada idisə də, ruhumuz Azərbaycanda idi".

N. Nərimanov Qafqazda, Rusiyada, Yaxın Şərqdə və Avropada baş verən siyasi hadisələri bütün mürəkkəbliyi ilə araşdıraraq qət etmişdi ki, Azərbaycan Demokratik Respublikası ancaq və ancaq dinc yolla müstəqil Sovet Azərbaycanına çevrildikdən sonra xalqımız səadətə qovuşa bilər. 1919-cu il iyul ayının 16-da ADR-in hökumət başçısı Nəsib bəy Yusifbəyova Həştərxandan göndərdiyi məktubunda N. Nərimanov yazırdı: "Həyatımın ən yaxşı illərini Zaqafqaziyaya, xüsusilə Bakıya vermişəm. 25 illik ictimai - ədəbi fəaliyyətdən sonra lap əldən düşmüşəm və bir ayağım gordadır. Mən tam inamla deyirəm: Bütün bəşəriyyətin nicatı kapitalın məhvində, əməyin təntənəsindədir. Zülm altında inləyən və təbiətlə mübarizədə geri qalmış müsəlmanların buna hamıdan çox ehtiyacı vardır. Qoy bütün dövlətlərdə sovet hakimiyyəti bərpa edilsin, islam dininə inanan xalqlar 100 ildə əldə edə bilmədiklərini 10 ildə etsinlər... Mərd-mərdanə deyin: biz Rusiya inqilabının xarakterini anlamamışıq, biz dağıdıcı imperialist müharibəsinin bütün nəticələrini nəzərə ala bilməmişik, biz meydandan

çəkilirik, Azərbaycanda qoy sovet hakimiyyəti olsun!"

Yaranmış tarixi şəraiti hərtərəfli təhlil edən M.Ə.Rəsulzadə də Azərbaycanın müstəqilliyinin saxlanması yolunu Sovet Rusiyası ilə sıx əməkdaşlıq və dostluqda görürdü. Azərbaycan hakimiyyəti adından xarici işlər naziri Fətəli xan Xoyskinin Rusiyanın xarici işlər naziri Georki Çiçerinə 1920-ci il aprelin 15 - də göndərdiyi məktubunda deyilirdi: "... Mənim hökumətim rus və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətləri yaradılması haqqında danışıqlara başlamaq təklifinə indiyədək cavab almadığına görə xahiş edir ki, onun təklifinə cavab verilsin və bu təklif qəbul edilərsə, danışıqların vaxtı və yeri təyin olunsun".

Cavab gəlmədi. Çünki Moskva Bakı üçün 1918 - ci il mart faciəsinin yeni və daha dəhşətli səhnəsini hazırlayırdı - aprel istilasını! N.Nərimanovun başını bilərəkdən başqa işlərə qatmışdılar. Georgi Çiçerinin başçılıq etdiyi komissarlığın Yaxın Şərq şöbəsinin müdiri vəzifəsində işləyən N.Nərimanovu məşvərətçi səslə Şərq xalqları kommunist təşkilatları bürosuna daxil edirlər. O, Şərq xalqları kommunist təşkilatlarının ikinci qurultayında çıxış edir, RK(b)P MK Siyasi Bürosunun tərkibinə daxil edilir. Azərbaycan bolşeviklərinin birinci gizli qurultayında fəxri sədr seçilir. Bakıdan, Həmid Sultanovdan aldığı məktubu həyəcanla oxuyur: "Əgər siz şəxsən Bakıya gələ bilsəniz, bu, çox arzu ediləsidir... Bakıda milli hökuməti devirib, sovet hökuməti yaratmaq üçün lazımı tədbirlər görülmüşdür. Sizin gəlişinizi gözləyirlər". Azərbaycana dönmək istəyir, ancaq ona tapşırırlar ki, aprel ayının sonunadək RSFSR Xalq Milli İşlər Komissarlığı yanındakı Millətlər Sovetinin iclaslarında və komissarlığın kollegiya iclaslarında sədrlik etməlidir... Onu qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin sədri təyin edirlər ki, aprel istilasından sonra qiyabi olaraq Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri olsun.

Bəs Moskva Bakıya kimləri göndərir? 1920-ci il aprelin 27-də 11-ci ordunun başında Azərbaycana Mikoyan, Kirov, Orconikidze, Fövqəladə komissiyanın rəisi Pankratov gəlirlər. Zirehli qatarın üstündə isə "Nəriman Nərimanov" yazılır. Azərbaycan parlamenti hakimiyyəti bolşeviklərə verməyi qərara alır, parlamentin buraxıldığı elan edilir. Aprelin 27-də gecənin yarısınadək Bakı bir atəş belə açılmadan bolşeviklərin əlinə keçir, ertəsi günü Bakı sovet şəhəri olur. Leninə şad-yanalıq teleqramı vurulur...

1920-il may ayının 16 - da N. Nərimanov Bakıya gələndə M.Ə.Rəsulzadə Lahıcda idi. Hakimiyyət dairələrində isə əcnəbilər at oynadırdı. Qiyabi təyin olunmuş Xalq Komissarları Sovetinin sədri əyani olaraq fəaliyyətə başlayanda, yenə əl-qolu bağlandı: RK(b)P MK-nın icazəsi olmadan Azərbaycan MK-sının və hökumətinin tərkibində heç bir dəyişikliyə yol verilə bilməz. Deməli, Müstəqil Azərbaycana rəhbərlik edənlər ancaq mərkəzdən göndərilən və Azərbaycanın adını belə düzgün tələffüz etməyən adamlardan ibarət olmalı idi.

Kimlər idi "xilaskarlarımız"? 1920-ci ilin avqustunda RK(b)P MK-nın qərarı ilə Tula Quberniya Soveti İcraiyyə Komitəsinin sədri Qriqori Naumoviç Kaminski Azərbaycana partiya işinə göndərildi. Q.H.Kaminski Azərbaycan KP MK katibi seçildi. Tula şəhərindən gətirdiyi xasiyyətnaməsi partiya fəalları arasında rəğbətlə qarşılandı. Xasiyyətnamədə deyilirdi; "RK(b)P Tula təşkilatı Kaminski yoldaşı verməklə Azərbaycan Respublikasının ürəyinə qan bəxş edir, bu qan Şərq xalqlarının kommunist hərəkatının artıb genişlənməsinə kömək edəcəkdir".

N. Nərimanovun yaxşı tanıdığı və hörmət etdiyi, metalçı fəhlə ailəsində böyümüş bu şəxs Bakı Komitəsinin üzvləri – Mirzoyan, Sarkis, Qutin, Kaxiani, Yeqorov və başqalarının qəzəbinə tuş oldu: məgər biz ölmüşük ki, Şərq xalqlarının kommunist hərəkatına Tula qan versin? N.Nərimanova qarşı həmişə düşmənçilik mövqeyi tutmuş Mikoyanın silahdaşı,

Bakı Komitəsinin katibi Sarkisin təşkil etdiyi, böhtan və iftiralarla dolu məktublar Moskvada Stalinə çatdırıldı.

Mərkəzə N.Nərimanov da rəsmi məktub göndərdi: "... suyu bulandıran Sarkisi buradan götürmək lazımdır". Lakin N.Nərimanovun xahişi kağız üzərində qaldı. Stalinin və Mikoyanın havadarlığı ilə Sarkis öz vəzifəsində saxlandı. Çünki Stalin üçün bu Sarkis əvəzsiz kadr idi. Bu həmin erməni daşnakı idi ki, N.Nərimanov Bakıda olmadığı müddətdə də, olduğu vaxtlarda da yüzlərlə azərbaycanlının evində axtarış aparıb, müsadirə pərdəsi altında bütün var - yoxunu talan edirdi.

N.Nərimanov Moskvadan Bakıya qayıtdıqdan sonra Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri kimi sərancam verib bu qanunsuz müsadirəni saxlatdırmış, əhalinin artıq əmlakının könüllü verilməsinin təşkilini Bakı Soveti İcraiyyə Komitəsinə tapşırmışdı. Lakin Mikoyanın məsləhəti ilə Sarkis N. Nərimanovun sərəncamına məhəl qoymamış, soyğunçuluğu davam etdirmişdi. 1920-ci ilin səkkiz ayı ərzində Bakı Komitəsinin katibi işləyən Sarkis qəddarlıqla əhalidən toplanmış sərvət barədə ağız dolusu məlumat verirdi: "Biz təqribən 200 pud gümüş və 10 pud qızıl, təqribən 800 qızıl üzük müsadirə etmişik. Biz neçə min xalı götürmüşük, hamısı valyutaya gedən mallardır".

Azərbaycanda "valyutaya gedən mallar" toplayanların əli ilə N.Nərimanovun müdafiə etdiyi Kaminskinin "Azərbaycanda işləməsi mümkün hesab edilmədi". Onun əvəzinə vaxtilə 11-ci ordu ilə Bakıya gələnlərdən biri, əslən Rusiyanın Urjum şəhərindən olan, yetimxanada böyümüş, orta savadlı, əsl familiyası Kostrikov olan Sergey Mironovic Kirov MK katibi seçildi. N. Nərimanov xəttinə zidd mövqe tutmaq tapşırığı ilə fəaliyyətə başlayan "növbəti xilaskarımız"ın sədrlik elədiyi ilk plenumda Mirbəşir Qasımov MK Siyasi Bürosunun tərkibindən çıxarıldı, əvəzinə Rusiyanın Tambov Quberniyasından olan Vasili Qriqoryeviç Yeqorov seçildi. Bu ədalətsiz qərarla əlaqədar

N.Nərimanov S.Kirovun adına rəsmi ərizə yazıb, plenumda oxunmasını xahiş etdi. Ərizədə o, "Siyasi Büronun ən fəal intizamlı üzvü, fəhlə sinfinin nümayəndəsi" kimi M.B.Qasımovun heç bir səbəb olmadan işdən uzaqlaşdırılmasına etirazını bildirirdi.

1920-ci ilin noyabrında İ. Stalinin iştirakı ilə Bakıda MK-nın Qafqaz bürosu və AK(b)P MK Siyasi Bürosunun və plenumunun iclasları keçirildi. Plenumda V. Yeqorov, Sarkis, Ə.H.Qarayev, M.D.Hüseynov və başqaları ucdantutma müsadirə aparılmasının əleyhinə olan N. Nərimanovu hədəfə aldılar. Çıxış edən Stalin üzünü N.Nərimanova tutaraq, "qocanı da danlamaq lazımdır" – dedi –"görünür, o, qərarların yerinə yetirilməsini istəmir". Özündən doqquz yaş kiçik olan Stalinin ona "qoca" deyə müraciət edərək məzəmmət etməsi N.Nərimanovu necə əsəbiləşdirsə də, o, hövsələdən çıxmamış, plenumda çıxış etməyi özünə rəva bilməmişdi. Onu sarsıdan bu idi ki, gənclik illərində mərd-mərdanə gəzdiyi bir şəhərdə sanki zindana düşmüşdü. Təskinliyi yenə də Lenin idi... Bu dəfə Stalinin Bakıdan M. Ə. Rəsulzadə ilə birlikdə getməsi "qocanı" bir Allah bilir ki, nə qədər sevindirmişdi. Çünki Lahıcdan tutulub gətirilərək, Pankratova verilmiş müsavat liderini ölüm gözləyirdi. Fətəli xan Xoyskinin Tiflisdə erməni qatili tərəfindən qətlə yetirildiyi, Nəsib bəy Yusifbəyovun Kürdəmirdə Kür çayında boğulub öldürüldüyü N.Nərimanova bəlli idi. Bəlli olmayan bu idi ki, M.Ə.Rəsulzadə Lahıcda Azərbaycanın başına gətirilən müsibəti təsvir edən "Əsrimizin Səyavuşu"nu yazmışdı...

Stalin Moskvaya qayıtdıqdan sonra "Şərqin Lenini"nin fəaliyyətini məhdudlaşdırmaq üçün növbəti addım atıldı. Stalinin MK-nın Siyasi Bürosunda "Qafqaz işləri haqqında" məruzəsindən sonra Orconikidzeyə bir vəzifə olaraq tapşırıldı ki, "Bakıda qalsın... Ümumi siyasi rəhbərliyi öhdəsinə götürsün". Beləliklə, rəsmi olaraq "Şərqin Lenini" Qafqaz və Şərq

məsələlərində rəhbər mövqelərdən uzaqlaşdırıldı. İşğalçı ordunun komandanları olan Orconikidze, Kirov və Mikoyan 11-ci ordunun işğalçılıq məqsədini sonadək yerinə yetirmək, Azərbaycan xalqını diz çökdürmək üçün hələ ilk günlərdən onlara geniş səlahiyyət verilməsini xahiş edirdilər. Azərbaycan işğalının beşinci günü, 1920-ci il mayın 2-də Orçonikidze və Kirovun imzası ilə Bakıdan Moskvaya belə şifrli teleqram getmişdi: "Vəziyyət... bizə bütün Qafqaz və daha geniş ərazi üçün səlahiyyət verilməsini tələb edir. Nərimanova belə səlahiyyət verməyin". N.Nərimanovun 1920-ci ildə Azərbaycanda "qiyabi" vəzifələrinin bir səbəbi də bundan irəli gəlirdi. Serqo Orconikidze və Sergey Kirov əl-ələ verərək, Azərbaycanda və bütün Qafqazda müsəlman kommunistləri müxtəlif yollarla bütün həlledici vəzifələrdən uzaqlaşdırırdılar.

1921-ci ilin sentyabr ayında Bakıda Zaqafqaziya Ölkə Nəzarət Komissiyası Partiya Kollegiyasının sədri İvan Sturuanın rəhbərliyi ilə yoxlama komissiyası işə başladı. Bu, əslində, N.Nərimanovun məsləkdaşlarına qarşı yönəldilmiş bir tədbir idi. Təmizləmə zamanı Azərbaycan kommunistlərinin otuz beş faizi partiyadan çıxarılmışdı. Yoxlama komissiyasının üzvü İvan Vatsek deyirdi: "Azərbaycanda biz bütün millətçi alçaqları süpürüb atmışıq". Kimlər idi İvan Vatsek kimi alçağın süpürgəsinə düşən bu günahsız azərbaycanlılar? Azərbaycan SSR xalq torpaq komissarı Sultan Məcid Əfəndiyev, Xalq sosial təminat komissarı Möhsün İsrafilbəyov, Xalq maarif komissarı Dadaş Bünyadzadə, Xalq xarici ticarət komissarı Teymur Əliyev, Xalq poçt və teleqraf komissarı Cəmil Vəzirov, Xalq hərbi-dəniz komissarı Çingiz İldırım, Azərbaycanın xarici ölkədə yeganə səfiri İbrahim Əbilov... N.Nərimanov onun hökumətinin, demək olar ki, bütün azərbaycanlı üzvlərinin anket vərəqəsinə "qovmalı" yazılmasından dəhşətə gəldi. Komissiya üzvlərinə qəti etirazını bildirdi. Onlardan yalnız bir nəfəri – İbrahim Əbilov partiya üzvlüyünə bərpa olundu ki, o

da çox çəkmədən Türkiyənin İzmir şəhərində cərrahiyyə əməliyyatından sonra müəmmalı şəkildə vəfat etdi.

Bəs Moskva Azərbaycanda aparılan yoxlama nəticələrini necə qiymətləndirdi? Daha haqsız və düşməncəsinə: "Azərbaycanda müsəlmanlar arasında səbatlı kommunistlər yoxdur". Bu sözlər Bakıya, N.Nərimanova çatdırılanda onun nələr çəkdiyini təsəvvürə gətirmək çətindir. Dərhal RSFSR hökuməti yanında Azərbaycan SSR-in səlahiyyətli nümayəndəsi Ə.Şirvaniyə Rusiya rəhbərliyinə çatdırmaq üçün məktub yazıb göndərdi. Məktubda deyilirdi: "Söz yox ki, partiyadan çıxarılanlar arasında partiyaya səhvən düşənlər də olmuşdu, lakin Mavrin yoldaşın verdiyi kimi ümumi xarakteristika vermək ali orqanı aldatmaq deməkdir. Bu isə cinayətdir. Çünki ali orqanın yerli işçilərə inamını qırır və bununla sıralarımızı pozur, dağıdır... Əgər Azərbaycanın müsəlman kommunistlərinin əksəriyyəti, Mavrinin düşündüyü kimi, millətçilik əhvalruhiyyəsində olsaydı, inanın ki, Ermənistan Zəngəzuru ala bilməzdi, Gürcüstana müftə neft verilməzdi."

Moskva yenə də Nərimanovun haqlı səsinə hay vermədi. Bu dəfə N.Nərimanov yalnız əyilməz vicdanının səsinə qulaq asdı. Riqqətə gələn ürək döyüntüsünü kağıza köçürdü: "Yorulduğuma görə və özümü ədəbi fəaliyyətə həsr etmək arzumu nəzərə alaraq məni işdən azad edin" xahişi ilə MK-ya rəsmi ərizə yazdı. Lakin Siyasi Büro, Stalinin təbirincə desək, "qocanın" xalq arasında yüksək nüfuzu və rolunu nəzərə alaraq, onun xahişini qəbul etmədi.

Görünür, düşünürdülər ki, öz xalqının azadlığı yolunda bu böyük əzabkeş yorğunluğunu alandan sonra yenidən qələmə sarılar və yazacağı əsərlərlə mələk donu geyinmiş bolşevik xadimlərin məkrli iç üzünü açıb göstərə bilərdi. Məqsəd Nəriman Nərimanovu həmişəlik olaraq Azərbaycandan ayırmaq, doğma Vətəndən uzaqda onu məhv etmək idi. Belə də oldu.

1922-ci il aprelin 10-dan mayın 19-dək İtaliyanın Genuya şəhərində iqtisadi və maliyyə məsələləri üzrə keçirilən beynəlxalq konfransda dünyanın 29 ölkəsindən nümayəndə vardı. Sovet nümayəndə heyətinin sədri V.İ.Lenin xəstə olduğundan Rusiyanı G.Çiçerin təmsil edirdi. Konfransda N.Nərimanov da müstəqil Azərbaycan dövlətinin başçısı kimi çıxış etmişdi.

Genuya konfransından sonra N. Nərimanovun əleyhdarları, başqa sözlə, Azərbaycanın müstəqilliyinin düşmənləri qəzəb atına mindilər. N. Nərimanovun beynəlxalq konfransda Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq iqtisadi əlaqələrdə sərbəst, müstəqil olduğu barədəki sözləri rəhbər dairələrdə təşviş doğurdu. Azərbaycan kommunistlərinin başçısı Sergey Mironoviç Kirov dərhal bu bəyanatı Bakı neftini kapitalist dövlətlərə satmaq təşəbbüsü kimi qiymətləndirdi. N. Nərimanovun Azərbaycandan uzaqlaşdırılması barədə qərar qəbul edildi. Bəli, orta savadlı, ata-anası bəlli olmayan bir çertyoj çəkən Azərbaycanın nadir istedad sahibini onun ürəyindən qoparmağa hökm verdi. Daha "N.Nərimanovun xalq arasında nüfuzu" sözlərinə ehtiyac qalmadı. Bu nüfuz Azərbaycanın tam işğalı zamanı bu işğala qarşı üsyan edən əhalini sakitləşdirmək üçün lazım idi. Azərbaycanın hər yerində əcnəbiləri "yağlı" vəzifələrə yerləşdirməkdə pərdə tutmaq üçün lazım idi. Artıq rus - daşnak birləşməsindən ibarət olan bir qrup müstəqil Sovet Azərbaycanında meydan sulayırdı. Millətin səsi boğulmuş, o ancaq və ancaq əməkçi kütləsinə çevrilmişdi. Bəli, artıq Nərimanov nüfuzuna ehtiyac yox idi...

Mərkəz Kirovun xahişinə əməl etdi. N. Nərimanov Moskvaya dəvət olundu. Bakıda isə rus rəhbərin yerinə bu dəfə erməni kadr hazırlanırdı - Levon Mirzoyan.

* * *

Nəriman Nərimanov Moskvaya çatanda M.Ə.Rəsulzadə artıq orada yox idi. Bir müddət paytaxtda RSFSR Millətlər

Komissarlığında mətbuat müvəkkili işləmiş, Moskva Şərqşünaslıq İnstitutunda fars dilindən dərs demiş "Kobanın dostu" Leninqraddan Finlandiyaya keçmişdi. Həm də orada onu N. Nərimanovu Moskvada olduğu kimi soyuq yox, açıq ürəklə salamlamışdılar. Şərəfinə ziyafət də vermişdilər. Sonra onu Fransaya dəvət etmişdilər. Türkiyədən rəsmi dəvət aldıqdan sonra Parisi tərk etmişdi.

Hər ikisi Azərbaycandan didərgin düşmüşdü, hər ikisinin ayaq izləri Moskvanın Millətlər Komissarlığının dəhlizində qalmışdı.

M.Ə. Rəsulzadə, canfəşanlıq edən alimlərimizin uydurduqları kimi, vətəndən qaçmamışdı. N.Nərimanovun nail ola bilmədiyi müstəqilliyin Azərbaycanda yenidən bərqərar olması üçün uzun müddətli qeyri-adi ezamiyyətə çıxmışdı. Hər ikisi Azərbaycan uğrunda mübarizə aparırdı, birisinin qarşısı kəsilsə, digəri bu mübarizəni axıradək başa çatdırmalı idi. Çatdırmalı idi ki, bir kərə yüksələn bayraq bir daha enməsin!

M. Ə. Rəsulzadə "keçmiş dostluğu unutmayan, onu Bakı zindanından çıxaran" Stalinə yazırdı: "Moskvadan ayrılarkən sizinlə görüşə bilmədim. Çünki Rusiyanı gizlincə tərk etməyi qərar vermişdim. Hərəkətimdə sizə qarşı hörmətsizlik görməyəcəyinizə ümid edirəm. Mən bilirdim ki, Rusiyadan getməyimə icazə verməzdiniz. Bu da mənim üçün mümkün olan iş deyildi. Çünki bu özümü rədd etmək və əbədi olaraq tam fəaliyyətsizliyə məhkum etmək demək idi. Şərq millətləri kommunist həyatı ilə deyil, öz milli həyatları ilə yaşamaq istəyirlər".

M. Ə. Rəsulzadənin məktubundakı bu son cümlə elə N. Nərimanovun Moskvadakı fəaliyyətinin ifadəsi deyildimi? N.Nərimanov yazırdı: "Necə ola bilər ki, respublikanın mənafeyini müdafiə etmək millətçilik kimi, Sovet Rusiyasının mənafeyinin müdafiə edilməsi isə beynəlmiləlçilik kimi qiymətləndirilsin?!"

1922-ci il dekabrın 30-da I Ümumrusiya Sovetlər qurultayında SSRİ təşkil olundu. Leninin tövsiyəsi ilə rus Mixail

Kalinin, ukraynalı Qriqori Petrovski, belarus Aleksandr Çernyakov və azərbaycanlı Nəriman Nərimanov Mərkəzi İcraiyyə Komitəsinin eyni hüquqlara malik sədrləri oldular. SSRİ MİK-in ikinci sessiyasında N.Nərimanovun təklifi ilə V.İ.Lenin SSRİ Xalq Komissarları Sovetinin sədri seçildi.

Moskvada olarkən ürəyi Azərbaycanla vuran N. Nərimanova doğma respublikası ilə əlaqə saxlamağa imkan vermirdilər. Bakıda isə Kirov, Mirzoyan və başqaları onun əleyhinə təbliğat aparırdılar. Hər iki tərəfdən sıxışdırılan N.Nərimanov Mərkəzi Komitəyə rəsmi müraciət etməli oldu: "Azərbaycandakı daşnak siyasəti tam gücü ilə gedir. Mənim zərrə qədər də şübhəm yoxdur ki, RK(b)P MK Serqo və Stalinin simasında biz türklərə inanmır və Azərbaycanın taleyini ermənilərə, daşnaklara həvalə edir... yalnız Mirzoyanın güclü təzyiqi altında Dağlıq Qarabağ Muxtar Vilayəti elan edilmişdir".

Nəriman Nərimanovu eşidəcək bir şəxs vardısa, o da xəstə yatağında idi. 1923-cü il martın 10-da Leninin dili tamam tutulmuşdu, onun əvəzinə Stalin cavab verirdi. Daha sonra N.Nərimanovun "dünyanın ən böyük psixoloqu və məzlum müsəlman xalqlarının ən səmimi müdafiəçisi" adlandırdığı Leninin gözləri də əbədi qapandı... Həyatında ən çox inandığı insanın ölümündən sonra N.Nərimanovun ömrü gərgin sarsıntılar içərisində keçdi. 1925-ci ilin əvvəllərində 30 illik ictimai-siyasi və ədəbi fəaliyyətinin İttifaqlar Evinin Mərmər salonunda təntənə ilə qeyd edilməsi də onun könlünü açа bilmirdi. Nədənsə, böyük yubilyar təntənəli görüşlərdə çıxış edərkən Abasqulu ağa Bakıxanovun məşhur kəlamını dönə-dönə təkrarlayırdı: "Ağıllı adam odur ki, öz eybini başqalarının eyblərindən artıq görə və öz hünərini başqalarının hünərindən az hesab edə".

...1925-ci ilin Novruz bayramı ərəfəsində N.Nərimanov son dəfə doğulub boya-başa çatdığı obaya gəldi. Martın 6-da Qızıl-Hacılı kəndinə getdi, yeddisində Tiflisə baş çəkdi. Moskvaya

qayıdarkən Bakıda qardaşı qızı İltifatdan xahiş etdi ki, Moskvaya gəlib onların qonağı olsun, Gülsüm də, balaca Nəcəf də sevinərdilər...

Martın on səkkizində qatar Moskvaya çatdı. Martın on doqquzunda isə... Kreml ambulatoriyasının xidmətçisi Yuliya İvanovna Litvina şirin yuxuya dalmış oğlunun çarpayısı başında dayanan Gülsüm xanıma dəhşətli bir xəbər çatdırdı: "İş qurtarandan sonra, axşam saat doqquza on beş dəqiqə işləmiş, ya da doqquzun yarısında Aleksandr bağının hasarı yanındakı səki ilə Troitsa darvazasından İnqilab meydanı tərəfə gedərkən bir nəfərin hasara söykəndiyini və bərk öskürdüyünü gördüm, deyəsən halı pis idi. Kömək etmək üçün ona yaxınlaşanda əvvəllər ambulatoriyamızda bir neçə dəfə gördüyüm MİK sədri Nərimanov yoldaşı tanıdım. O da məni tanıyıb dedi: "Məni tez xəstəxanaya aparın, ölürəm..." Təzədən soruşdum: "Evə getmək istəmirmi?" O qəti tapşırdı ki, Kremlin xəstəxanasına aparaq. Yolda hey inildəyir, deyirdi ki, halı pisdir. Biz xəstəxanaya çatanadək keçindi".

...1925-ci ilin Novruzu qara bayram oldu. Martın 21-də minlərlə insan İttifaqlar Evinə tərəf vida görüşünə can atdı. Martın 23-də Moskva vaxtı ilə saat 13-də SSRİ-nin bütün qarnizonlarında toplardan yaylım atəşi açıldı. Təəssüflər olsun ki, bu matəm sədası mərhumun düşmənləri üçün bayram atəşfəşanlığına çevrildi.

... Nəriman Nərimanovun qəbri üzərindəki əklillər solmamış ona və əqidəsəlarına qarşı haqsız hücumlar başladı.

Xalqın sevimlisi öz soydaşlarının gözündə "xalq düşmənində" döndü, özü də, məzarı da unuduldu. Şəhərlərdən, qəsəbələrdən, ali məktəblərdən, kolxozlardan, küçələrdən adı silindi. Elə bil "Şərqin Lenini" deyə vəsf olunan o deyilmiş, məşhur "Nadir Şah"ı yazan o deyilmiş, Sovet hakimiyyətnin alovlu təbliğatçısı da o deyilmiş...

Bəli, Məhəmməd Əminlər, Nərimanovlar Azərbaycanda

tamamilə yoxa çıxarıldığından və milli ziyalılar respublikasının hakimiyyət dairələri büs-bütün ermənilləşdirilib ruslaşdırıldıqdan sonra "Oktyabr", "Raykom", "Vilen", "Marlen", "Sovet" kimi adlar da çoxaldı. Kiçik rəhbərlər böyük rəhbərlərdən nümunə götürərək, Ümbülbəni və Gülsümlərlə deyil, Mariya və Haykanuşlarla bolşevik ailəsi qurdular...

Azərbaycanın dövlət müstəqilliyindən heç bir əlamət qalmadığı illərdə bu qanlı rejimə qarşı N.Nərimanovun səsini yenə də M.Ə.Rəsulzadə qaldırırdı. Onun mühacirət dövrü fəaliyyətində və yaradıcılığında öz soydaşlarının Sovet Azərbaycanında xalqa çatdıra bilmədikləri başlıca yer tuturdu. Başqa sözlə, M.Ə.Rəsulzadə həm Cavad xan və Xiyabanini, həm Firudin bəy Köçərli və Salman Mümtazı, həm Hüseyn Cavidi və Əhməd Cavadı və başqalarını – Stalinlərin, Mikoyanların millətçi kimi qələmə verdikləri simaların hamısını dünyaya tanıtdırdı. 1928-ci ildə İstanbulda M.Ə.Rəsulzadənin "Azərbaycan Respublikasının keçmişi, təşəkkülü və indiki vəziyyəti", "İnqilabçı sosializmin iflası və demokratiyanın gələcəyi", "Millət və bolşevizm", "Qafqasya türkləri" əsərləri çap olunmuşdu. 1930-cu ildə Parisdə fransız dilində "Azərbaycan və onun istiqlaliyyəti" və rus dilində "Qafqaz problemi ilə əlaqədar olaraq panturanizm" kitabları böyük marağa səbəb olmuşdu. Bundan başqa, Berlində 1933-cü ildə "Azərbaycan Respublikası haqqında bəzi qeydlər" kitabı nəşr olunmuşdu. Hələ Berlində 1938-ci ildə çıxan "Azərbaycan problemi", 1939-cu ildə Varşavada polyak dilində nəşr olunan "Azərbaycan hürriyyət savaşı" kitabları... Hələ buraxdığı jurnallar, qəzetlər, dərc etdirdiyi ədəbi məqalələr, ədəbiyyatşünaslıq əsərləri... bütün bunlar o deməkdir ki, M.Ə.Rəsulzadə təkcə N.Nərimanovla yanaşı Azərbaycan müstəqilliyinin banisi deyildir; o, Azərbaycan mübarizəsini bütün ömrü boyu aparmışdır: sağlığında siyasi fəaliyyəti və yaradıcılığı ilə, dünyasını dəyişəndən sonra əsərləri ilə. Bu mənada o, həqiqətən, nadir və əvəzsiz şəxsiyyətdir.

M. Ə. Rəsulzadə Türkiyədə olarkən dəfələrlə "türklüyün şanlı qəhrəmanı" adlandırdığı Atatürklə görüşmüşdür. N.Nərimanov isə Moskvada 1920-ci ildə deyirdi: "Türkiyə bizim köməyimiz ilə, bütün məzlum Şərqin köməyi ilə Avropa kapitalının əsarətindən qəti surətdə xilas olar, dirçələr, öz mədəniyyətilə həyat keçirər və onda Avropa həkimlərinə "mən artıq xəstə deyiləm, rədd ol get" demək hüququ əldə edər".

N. Nərimanovdan on yaş kiçik, M.Ə.Rəsulzadədən dörd yaş böyük olan Mustafa Kamal Atatürk Şərqdə ilk demokratik respublikanın banisinə qayğı göstərməklə, müstəqil Sovet Azərbaycanının banisinin sözlərinə ancaq "Avropa həkimlərinə" ifadəsindən sonra "Rusiya bolşeviklərinə" ifadəsini artırdı. İyirminci illərdə siyasi şəraitin mürəkkəbliyi Türkiyənin Sovet Rusiyası ilə yaxınlaşmasını tələb edirdi. Əlbəttə, bu, Rusiya kommunistlərini, xüsusilə erməni daşnaklarını sevindirdi. Onlar elə zənn edirdilər ki, Azərbaycanın başına gətirdiklərini kommunistlər Türkiyənin də başına gətirəcəklər. Leninin və Nərimanovun sağlığında, həqiqətən, Türkiyə və Sovet Rusiyası arasında mehriban qonşuluq münasibətləri hökm sürürdü. Lenin 1921-ci ilin fevralında yazırdı ki, "bizim əsla hiyləgərlik niyyətimiz yoxdur". Lakin hiyləgərlik niyyətləri Atatürkün gözlərindən yayınmırdı. 1923-cü ildə İzmir şəhərində keçirilən "Kitab bayramı"nda M.Ə.Rəsulzadənin yenicə nəşr olunmuş "Azərbaycan Cümhuriyyəti" kitabının Atatürk mükafatına layiq görülməsi Türkiyənin gənc kommunistlərini sevindirməmişdi. Çünki onlar İstanbul Universitetində qocaman alimlərin etirazına baxmayaraq, ən yüksək mükafatları, ilk növbədə Nobel mükafatını Leninə verməyi təklif etmişdilər.

V.İ. Leninin və N.Nərimanovun ölümündən sonra SSRİ-nin "hiyləgərlik niyyətləri" bir-bir aşkar olmağa başladı. Azərbaycanda ermənilərə muxtariyyət elan edənlər indi də Türkiyədə kürdlərə muxtariyyət verilməsi qayğısına qaldılar. 1925-ci ildə Türkiyənin cənub-şərq rayonlarını kürd üsyanı bürüdü.

Kommunistlər bu qiyamda "milli azadlıq hərəkatının əlamətlərini" görürdülər. Lakin Atatürk hökuməti qırx minlik ordu ilə üsyanı yatıra bildi.

SSRİ ilə Türkiyə arasında 1931-ci ildə bağlanan müqavilənin gizli bir bəndi də "hiyləgərlik niyyəti" idi. Türkiyədəki mühacirlər ölkədən çıxarılmalı idi. Belə də oldu. Yüzlərlə azərbaycanlı Avropa ölkələrinə üz tutdu... İyirminci illərdə "bolşeviklər zülm altında inləyən xalqların azadlığına çalışırlar" söyləyən Atatürk sonralar qəti qərara gəldi: "Burası unudulmamalıdır ki, türk aləminin ən böyük düşməni kommunistlikdir. Hər görüldüyü yerdə əzilməli".

... 1938-ci ilin noyabrında türk xalqlarının böyük oğlu əlli səkkiz yaşında dünyasını dəyişdi.

* * *

Azərbaycan M.Ə.Rəsulzadənin ailəsinə və yaxın qohumlarına divan tutmaqda idi. N.Nərimanovun həyat yoldaşı Gülsüm xanım isə SSRİ Ali Sovetinin sədri Şvernikə məktub yazırdı: "... Artıq iyirmi ildir ki, mənim hər şeyimi oğurlamışlar və məcburam ki, həyat üçün lazım olan ümdə şeyləri yenidən alım. Çox ağır maddi çatışmazlıqla yaşayıram. Heç bir köməyim yoxdur".

Biçarə ananın son ümidi də puç oldu. Oğlu Nəcəfdən gələn məktubların arası kəsildi. 1919-cu il dekabrın 2-də Moskvada dünyaya göz açmış Nəcəf Ukraynanın Volnovaxa şəhəri uğrunda döyüşlərdə həlak oldu, iyirmi dörd yaşında. Bir neçə il qabaq M.Ə.Rəsulzadənin böyük oğlu Rəsul bu yaşda Bakıda güllələnmişdi. Gülsüm ana da tənhalığa və aclığa çox dözə bilmədi. Nərimanovun Gülsümü Rəsulzadənin Ümbülbənisindən cəmi dörd il çox yaşadı. N.Nərimanovun və M.Ə. Rəsulzadənin ailələrindən təkcə bir kişi xeylağı qalmışdı ki, o da Qazaxıstanın Karaqanda şəhərində rəssam xəyalı ilə yaşa-

yırdı... Nənəsini, anasını, bacısını, ömür-gün yoldaşını öz əlləri ilə torpağa basdırdığı, başı bəlalı Azər Məhəmməd Əmin oğlu atasını görmədiyi kimi, onun vəfatından da xəbər tutmadı...

* * *

1955-ci il martın 6-da Ankara Universitetinin tibb fakültəsinin klinikasında axşamdan keçmiş, saat on birə on dəqiqə qalmış M.Ə.Rəsulzadə son nəfəsində üç dəfə "Azərbaycan" deyərək gözlərini qapadı. Bir gündən sonra, martın 7-də Ankara radiosu bu kədərli xəbəri dünyaya yaydı. N.Nərimanovun məzarından xəbərsiz azərbaycanlılar M.Ə.Rəsulzadənin də nə vaxt vəfat etdiyini, necə dəfn olunduğunu bilmədilər.

Qardaş Türkiyə öz Atatürkündən sonra Azərbaycanın istiqlal öndərini layiqincə əbədiyyət dünyasına yola saldı. Mərhumun cənazəsi Ankaranın Hacı Bayram məscidində qoyuldu. Türkiyənin hökumət dairələrinin nümayəndələri, məsləkdaşlar, dostlar, həmyerlilər vida mərasiminə toplaşdılar. Cənazə namazından sonra tabut Ankaranın Ədliyyə sarayına qədər aparıldı, burada maşına qoyuldu və polis heyətinin müşayiəti ilə qəm karvanı Əsri qəbristanlığına doğru hərəkət etdi. Matəm mitinqində çıxış edənlərin hamısının bir ürək sözü vardı: "Torpağa verdiyimiz onun fani vücududur. Beynimizdə və qəlbimizdə onun ölməz ruhudur".

... "İnsanlara hürriyyət, millətlərə istiqlal!" - bu, Ankaranın Əsri qəbristanlığından yüksələn M.Ə.Rəsulzadə səsidir.

"Mən bunu anlamışam ki, hürriyyət olmayınca, bizim millət ayılmayacaqdır." - bu isə Moskvanın Kreml divarlarının önündən ucalan N.Nərimanov səsidir.

Bakıda birisinin abidəsi, o birinin isə abidə lövhəsi vardır. Nə o əzəmətli heykələ əl qaldırmaq, nə də bu bünövrə daşını heykəlsiz saxlamaq insafdan deyil.

"Bakı post" qəzeti,
may - iyul 1996

BÖYÜK MÜRŞİDİMİZ

Məhəmməd Əmin Rəsulzadə haqqında bu sözləri xalqımızın böyük ədibi və ictimai xadimi Yusif Vəzir Çəmənzəminli demişdir. Mürşid – doğru yol göstərən deməkdir. M. Ə. Rəsulzadə sağlığında həyatı ilə, dünyasını dəyişəndən sonra isə əsərləri ilə millətimizə həmişə doğru-düzgün yol göstərmişdir. Görkəmli Amerika tarixçisi soydaşımız Firuz Kazımzadə yazır: "M.Ə.Rəsulzadə dövrünün ən kamil şəxsiyyətlərindən biri olmuşdur – bir siyasi, ictimai və mədəniyyət xadimi kimi nəinki Azərbaycanda, eləcə də bütün Yaxın Şərqdə məşhur idi. Bu insan Azərbaycan xalqının yetişdirdiyi böyük şəxsiyyətlər içində müstəsna bir yer tutur".

114 il bundan əvvəl, 1884-cü il yanvar ayının zirvə günündə Bakının Novxanı kəndində axund ailəsində dünyaya göz açmış Məhəmməd Əmin uşaqlıqdan qeyri-adi istedad sahibi olmuşdur. O, kiçik yaşlarında ərəb və fars dillərinə yiyələnmiş, Quranı sərbəst oxumuş, islamın işığı varlığına hopmuşdur. Sonralar klassik Azərbaycan şairlərini orijinaldan oxuyan, Nizami və Füzuli yaradıcılığı barədə elmi əsərlər yazan ədəbiyyatşünas "Kimin Leyli və Məcnun dastanı daha misilsizdir?" sualına qəti cavab vermişdir: "Nizami Məcnunu şerə gətirdi, Füzuli şeri məcnunlaşdırdı". Şərq dillərini erkən yaşlarından mənimsəməsi və sonralar bir neçə Avropa dilinə yiyələnməsi, Bakıda rus-tatar məktəbində təhsil alarkən rus dilində də yazıb oxuması ona imkan vermişdir ki, on doqquz yaşında "Şərqi-rus" qəzetində ilk şeirini dərc etdirsin, iyirmi yaşında "Hümmət" qəzetinin təşkilatçılarından biri olsun, iyirmi iki yaşında "Qaranlıqda işıqlar" adlı pyes yazsın, iyirmi üç yaşında İranda fars dilində qəzet nəşr etsin. Bakıda Qorkinin "Ana" romanının bir hissəsini azərbaycancaya çevirib nəşr etdirsin...

M.Ə.Rəsulzadə Şərqdə ilk dəfə olaraq Avropa tipli bir firqə – Müsavat partiyası yaratmışdır. Onun bayrağında "İnsanlara

hürriyyət, millətlərə istiqlal"! yazılmışdır. Müsavatçılıq milli dəyərimizdir. Onun ömrü hər hansı bir zümrə partiyasının aqibəti deyildir, əbədidir. M.Ə.Rəsulzadə uzaqgörənliklə yazırdı: "Bundan sonra müstəqil və milli Azərbaycanın müqəddəratını sövqi-tarixdə idarəyə məmur olacaq firqənin adı "Müsavat" olmaya bilər, fəqət o firqənin "müsavatçı" olması zəruridir."

M.Ə.Rəsulzadə əsərlərində ermənilərin Azərbaycan ərazilərini işğal etməsində Rusiyanın əli olduğu barədə də çox yazmışdır. Bu gün münaqişənin həll olunmasında Rusiyanın vasitəçiliyinə bel bağlamaq olarmı? M.Ə.Rəsulzadə yazırdı: ..."Yüz ildən bəri əsarəti altında olduğumuz rusları biz daha yaxşı tanıyırıq. Onlar hiylə ilə gələr, sonra bizi əzərlər... Azərbaycanda ögey-doğmalıq olmamalıdır. Erməni, rus, yəhudi, gürcü və s. millətlər Azərbaycan vətəndaşı olaraq qalmaq şərtilə milli mədəni muxtariyyət haqqından istifadə etməlidirlər".

XX yüzillikdə dünyanın dörd bir yanına yayılan azərbaycanlıları bir yerə yığmaq işinin böyük təşkilatçısı da M.Ə.Rəsulzadədir. İkinci Dünya müharibəsindən sonra onun mühacirətdəki fəaliyyəti bütün dünyanın yenidən Azərbaycandan bəhs etməsinə səbəb olmuşdur. Nyu-Yorkda ingilis dilində M.Ə.Rəsulzadənin "Azərbaycan Respublikası" məqaləsi dərc olunmuşdur. Londonda "Britaniya" ensiklopediyasına M.Ə.Rəsulzadənin yazdığı "Müsavat" partiyasının yaranması tarixi və Azərbaycan Demokratik Respublikasının təşəkkülünə aid məqaləsi daxil edilmişdir.

Bu gün cəsarətlə demək olar ki, XX əsrdə qanlı və amansız sovet rejimi ilə mütəmadi mübarizə aparanlar arasında bütün dünyada M.Ə.Rəsulzadəyə bərabər olanı yoxdur.

1984-cü ildə Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 100 illiyi ərəfəsində Azərbaycan Sovet Ensiklopediyasında o, "burjua millətçisi" kimi yad edilirdi. Özlərini

xalqın və Sovet quruluşunun, Leninin və Kommunist partiyasının tərənnümçüləri hesab edənlər üçün, sözsüz ki, M.Ə.Rəsulzadənin yazdıqları SSRİ-yə və Kommunist partiyasına böhtan kimi qəbul edilməli idi.

Totalitar rejim süqut etmişdir. Lakin həmin üsuli-idarədən miras qalmış qanunlarla xalqı idarə edənlər yenə də iş başındadır. Məhəmməd Əmin Rəsulzadə irsi indi də bununla mübarizəyə qalxmışdır.

"Bakının səsi"
28 yanvar-3 fevral 1998

MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ VƏ AZƏRBAYCANDA ƏDƏBİ PROSES

Azərbaycançılıq Məhəmməd Əmin Rəsulzadənin ömür qayəsidir. O, xalqımızın dünyaya bəxş etdiyi dahi sənətkarlara, mütəfəkkir ədiblərə, ədəbiyyatşünas və şairlərə bu mövqedən yanaşırdı. Onun üçün Xaqani, Nizami, Füzuli, Sabir, Şəhriyar nə qədər doğma idisə, "Sovet ədəbiyyatı", "proletar ədəbiyyatı", "sosializm realizmi" kimi məfhumlar bir o qədər qondurma idi. O, ədəbiyyatı millətin ruhunu əks etdirən ən gözəl aynaya bənzədir, bu aynada ilk cərgədə Nizami Gəncəvi və Məhəmməd Füzulini görürdü.

Məlumdur ki, Azərbaycanda Nizamiyə həsr olunmuş çoxlu elmi əsərlər və kitablar vardır. Nizamini orijinalda oxuya bilməyənlər də Nizaminin yaradıcılığı barədə dissertasiyalar müdafiə etmişlər. Dahi şairin anadan olmasının 800 illiyi münasibətilə digər ölkələrdə də çoxlu məqalələr dərc olunmuşdur. Ancaq bunlar arasında elə bir elmi əsər tapmaq çətindir ki, M.Ə.Rəsulzadənin iri həcmli "Azərbaycan şairi Nizami" monoqrafiyası ilə yanaşı qoyula bilsin.

İkinci Dünya müharibəsi illərində mühacirətdə yaşayan müsavat liderini bu əsəri yazmağa hansı daxili tələbat həvəsləndirmişdi? İlk növbədə, millətsevərlik və milli qürur hissi! Müəllif yazırdı: "Hankı mənəvi varlıq və tarixi öyünmə Azərbaycana Nizami xatirəsindən daha yüksək və dünyaya şamil bir dəyəri təmin edə bilər?! Hankı yurdsevər və şüurlu azəri Nizami ilə öyünməz?!"

Müharibə illərində bir çox ədəbiyyatçılar 800 yaşlı Nizamini Kreml ulduzunun işığında axtarırdılar, Nizamini tərcümədə oxuyanların kəşfinə ərəb və fars dillərini mükəmməl bilən "Əsrin Səyavuşu" isə Nizamini orijinalda oxumaq üçün Avropanın kitabxana və arxivlərinə baş çəkirdi. Müəllif son-

ralar bu barədə yazırdı: "Müharibə səbəbindən Avropanın ümumi kitabxanalarında mühafizə olunan əski əlyazmaları görmək mümkün olmadı; çünki nadir nüsxələr hava bombardmanından qorunmaq üçün sığnaqlara qoyulmuşdu. Bununla bərabər Mehmet Məhərrəmin Parisdə satın aldığı XIV əsrə aid əlyazmasını araşdıra bildik"

M.Ə.Rəsulzadə dünya nizamişünaslığının nailiyyətlərindən olan bu monoqrafiyasını 1941-ci ildə yazıb bitirmiş, lakin çətinliklər üzündən kitab halında yalnız 1949-cu ildə Türkiyədə çap etdirmişdi.

İkinci Dünya müharibəsi illərində azərbaycanlıların Azərbaycan SSR ərazisindən köçürüləcəyinə dair Sovet imperiyası rəhbərlərinin hazırladığı planlar, heç şübhəsiz ki, M.Ə.Rəsulzadəyə də məlum idi. Ermənilərin Kremldəki havadarı Mikoyanın və türk xalqlarının qəddar düşməni Stalinin bu mənfur məqsədlərinə qarşı 1941-ci ildə M.Ə.Rəsulzadə Buxarestdə qəti etiraz səsini ucaltdı. Müəllif kitabının "Başlanğıc"ında azərbaycanlıların Qafqazda ən qədim bir xalq kimi təşəkkülündən, Şərq islam mədəniyyətində Azərbaycanın rolundan tutarlı dəlillər gətirərək göstərir ki, "türk olmaları etibarı ilə azərbaycanlıların islam mədəniyyətinə xidmət etmiş türklər arasında yerləri olduğu kimi, bir Şərq islam məmləkəti olmaq üzrə də Azərbaycanın bu işdə mühüm bir rolu vardır".

Nizaminin öz əsərlərini farsca yazmasını dərin elmi və tarixi mənbələrə əsaslanaraq izah edən müəllif bu qənaətə gəlir ki, türkcədən başqa əsərlərini ərəb və fars dillərində yazmış olan azərbaycanlı şəxsiyyətlərin bir siyahısı tutularsa, böyük bir cild yaranar. M.Ə.Rəsulzadə bu şəxsiyyətlərdən bəziləri haqqında oxucuya qısaca ensiklopedik məlumat verir.

M.Ə.Rəsulzadə Azərbaycan xalqının ta qədim dövrlərdən dünyaya bəxş etdiyi nadir sənətkarları bir-bir sadalamaqla monoqrafiyasının "Başlanğıc"ında Nizaminin azərbaycanlı və Azərbaycan şairi olmasını təsdiqləyir. Müəllif yazır: "Kitaba

verdiyimiz "Azərbaycan şairi" adı onu "İran şairi" kimi tanıyanların bir qismində etiraz da olmasa, adət etdiklərinin pozulmasından doğan bir narahatçılıq hissi doğuracaqdır. Fəqət nə etməli: dünya böyüklərinin adları ətrafında millətlər arasında çəkişmə yeni bir şey deyildir. Bir də başqalarının yanlış adətlərini pozmamaq üçün Azərbaycan öz təbii haqqından niyə vaz keçsin ?!"

Bütün Şərq tarixinin mahir bilicisi kimi M.Ə.Rəsulzadə elmi təhlil nəticəsində bu qərara gəlir ki, Şərq islam mədəniyyəti hər dəfə müəyyən bir mərkəzdən idarə olunmuşdur. Bu rol XII əsrdə Azərbaycana keçmişdir. Gəncə ilə Şamaxı bu dövrdə Yaxın Şərqin mədəni mərkəzi olmuşdur. Əslində, şeirin ən parlaq nümayəndələri və İran ədəbiyyatında mühüm yer tutan ustadlar burada yaranmış məktəbdə yetişmişlər. Əbül-Üla Gəncəvi, Xaqani Şirvani, Fələki Şirvani, Mücirəddin Beyləqani, Qivami Mütərrizi və başqaları kimi.

Gəncəyə gəlincə, 1139-cu ildə baş vermiş zəlzələdə üç yüz minə qədər əhalisinin həlak olduğunu nəzərə alsaq, bu şəhərin bütün Şərqdə nə qədər böyük mərkəz olmasını sübuta lüzum yoxdur. Nizami isə, dilin farsca olmasına baxmayaraq, bütün varlığı ilə Azərbaycana bağlıdır. Çünki İran ədəbiyyatının ustad və böyük sənətkarları arasında farslardan çox azərbaycanlıların mühüm yer tutduğu həqiqətdir.

Avropa ölkələrində mühacirətdə olan M.Ə.Rəsulzadə Nizamini bütün dünya azərbaycanlılarına tanıtmaqdan hədsiz qürür hissi keçirirdi: "Yunanlılar dünyaya Homeri, farslar Firdovsini, italyanlar Vergilini vermişdilərsə, biz də Nizamini vermişik" deyə, öyünən azərbaycanlılar haqlıdırlar.

Bəs həmin vaxtlarda Azərbaycan SSR-də yaşayan azərbaycanlılara Nizami necə təqdim olunurdu? Sosializm realizmi süzgəcindən keçirildikdən sonra. Azərbaycan mətbuatındakı məqalələrdən belə bir fikir hasil olunurdu ki, Nizaminin ən dəyərli məziyyəti bununla ölçülməlidir: o, kommunizmin

gələcəyini alqışlamış, ancaq Marksdan və Lenindən fərqli olaraq, bütün dünya proletarlarının birləşərək yeni xoşbəxt cəmiyyət qurması yollarını göstərə bilməmişdir. M.Ə.Rəsulzadəyə "xalq düşməni" damğası vuranlar Nizaminin hansı xalqa mənsub olmasından çox, "kommunizm" adamı olmasından bəhs edirdilər.

"Kommunist" qəzetinin 1940-ci il 14 may tarixli sayının baş məqaləsində oxuyuruq: "Həmişəlik səadəti insanlar arasındakı yumşaq rəftarda görən böyük Nizami həqiqi xoşbəxtliyi əldə etmək üçün xalqı zülmə qarşı cəsarətli, qüvvətli və mübariz olmağa çağırdı. Lakin feodalizm əsarətinin hökm sürdüyü bir zamanda həqiqi bir xoşbəxtliyi tapmaq çətin idi. Xalqın əsrlər boyunca əzizləyib bəslədiyi yüksək azadlıq arzuları yalnız Böyük Oktyabr Sosialist Revolyusiyasından sonra öz yerini tapdı".

Qəzetin həmin il 13 dekabr tarixli sayında "Nizami yaradıcılığında utopik sosializm ideyaları" sərlövhəli məqalədə "İskəndərnamə" poemasından bəhs olunur. İskəndərin Şimal səfəri fəslindəki bu sözlər misal gətirilir: "Bizimlə birgə yaşamaq istəyənlərin təmiz duyğusu olmalıdır. Təmiz hissi olmayanları içərimizdən uzaqlaşdırırıq".

Məqalədən belə bir məntiq hasil olur ki, guya "İskəndərnamə"dəki Şimal ölkəsi elə Rusiya ərazisi imiş. Azərbaycan xalqı üçün Şimal günəşinin doğacağını və ona əbədi səadət bəxş edəcəyini Nizami on ikinci əsrdə Gəncədə görmüşdür.

Adı çəkilən qəzet materialında deyilir: "Nizaminin bu sətirlərini oxuyarkən biz gələcək kommunizmin əzəmətli prinsiplərini xatırlayırıq. Lakin Nizami öz xəyalında təsvir etdiyi bu xoşbəxt ölkənin, bu gözəl həyatın nə yol ilə qurulmasını bilmirdi". "Azərbaycan şairi Nizami" monoqrafiyasının müəllifi isə "bu gözəl ölkənin" necə qurulmasını öz gözləri ilə görmüşdü. Necə dağılacağından da uzaqgörənliklə xəbər verirdi. "İqbalnamə"nin sonlarında təsvir olunan "Cənnət

şəhər" barədə M.Ə.Rəsulzadə öz əsərində yazır. "Cənnət şəhər" qətiyyən heç də SSRİ-nin olduğu yerdə deyil. "Cənnət şəhərin" Moskva olduğunu iddia etmək coğrafiya elminə təhqirdir! Yaxşı, coğrafiyanı bir tərəfə qoyaq, baxaq görək Nizamidəki "Cənnət şəhər"lə Sovet cənnətindəki şəraitdə bir-birinə oxşar cəhətlər vardırmı?

Nizaminin "Cənnət şəhəri" dindardır, Sovet cənnəti isə dinsizdir. Birincisi Allahı tanıyır, o birisi isə rədd edir. Birincidə yalan söylənməz, ikincidə isə yalan ən böyük təbliğat silahıdır. Birincidə sevgi əsas, ikincidə isə nifrət hakimdir. Birincidə anlaşma əsas ikən, ikincidə sinif qovğası əsasdır. Birincidə heyvanlar belə təhlükəsiz yaşadığı halda, ikincidə insanlar daima qorxu altındadır. Birincidə qan tökmək haram ikən, ikincidə qanlılıq əsasdır."

M.Ə. Rəsulzadə "Nizami zəmanəmizdə yaşasaydı, bolşeviklərlə olardı" deyən bəzi sovet nizamişünaslarına belə cavab verirdi: "Sevgi ilə nifrət, rəhmət ilə lənət nə qədər bir araya sığa bilərsə, Nizami ilə bolşeviklər də o qədər birgə ola bilərlər!"

"İki Leyli-Məcnun". M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" monoqrafiyasında ayrıca bir fəslin adı belədir. Nizami və Füzuli əsərlərinin qarşılıqlı təhlilindən ibarət olan bu əlavə fəsil haqqında müəllif belə yazır: "Təzkirələrdən bəzilərində Füzulinin adı Nizami əsərlərinin mütərcimləri arasında qeyd olunmaqdadır."

Məhəmməd Füzulinin "Leyli və Məcnun"u Nizami Gəncəvinin eyni adlı əsərinin farscadan türkcəyə tərcüməsidir? Yox, əsla yox! Bəs onda hansı daha yüksəkdir? Birincilik yarışının qalibi Nizamidir, yoxsa Füzuli?

İlk dəfə ədəbiyyatşünaslıq tarixində M.Ə.Rəsulzadə bütün bu suallara qəti və son cavab vermişdir – iki nəhəng Azərbaycan şairi və iki əzəmətli sənət abidəsi!

Məhəmməd Füzulinin şah əsəri "Leyli və Məcnun" farscadan tərcümə və ya iqtibas deyildir. Elə ilk baxışdaca iki "Leyli

və Məcnun" arasındakı həcm fərqi gözə çarpır. Nizaminin "Leyli və Məcnun"u 4.600 beyt, Füzulininki isə 3.200 beytə qədərdir. Hər iki dastan eyni vəzndə və məsnəvi şəklində yazılmış olsa da, Füzuli həsb-hallara aid parçaları qəzəl formasında vermiş və bunları ayrı-ayrı vəznlərdə yazmış, dördlük şəklini də işlətmişdir.

M.Ə.Rəsulzadə hər iki əsəri qarşılıqlı surətdə təhlil edir. Fərqli cəhətləri oxuculara çatdırır: Nizami üslubuna xas olan təmsillər, hekayə içində hekayələr şairin "Leyli və Məcnun"unda da bol ikən, Füzuli təhkiyəsində bu kimi əlavələr yoxdur. Füzuli Məcnunun hələ qundağda ikən aşiq olduğunu göstərmişdir. Ağlayan körpəni ovutmaq üçün dayəsi onu qonşudakı gözəl qadına saxlatmış, uşaq da ancaq bu gözəlin qucağında ovunarmış. Bu cəhət Nizamidə yoxdur.

Məcnunun təbiət ünsürləri ilə təmas və münasibətləri haqqında da iki şairin hekayələrində bəzi ayrılıqlar vardır: Füzulidə dağ və irmaqla həsb-hal edən aşiq Füzulidə göyərçinə dərdini deyir.

Nizami dastanında Məcnun Leylinin məzarı başında günlərlə çırpınır: başına vurur, köksünü didib-dağıdır, çığırtılar, bağırtılar içində nərələr çəkir, hönkür-hönkür ağlayır, ətrafındakı camaatın ürəyini yaxan mərsiyələr söyləyir. Hətta düşdüyü fəlakət haqqında Bağdaddan onu görməyə gələn ədəbiyyatçı Səlama, əsrimizin təbiri ilə desək, matəm müsahibəsi verir. Füzulinin əsərində bu səhnə olduqca səssiz keçməkdədir. Məcnun Leylinin məzarını tapır və dərhal məzar üzərinə qapanaraq torpağını öpür, tam sükunət, hüzr içində "İlahi, bana cismü can gərəkməz, canan yox isə cahan gəzəkməz" deyərək, can verir.

M.Ə.Rəsulzadə Azərbaycan xalqının iki misilsiz söz yaradıcısının sənət inciləri barədə mülahizələrini ümumiləşdirərək, belə qənaətə gəlib: "Nizami mümkün olduğu qədər əslinə sadiq qaldığı bu ərəb hekayəsini özünə xas olan sənətlə canlandırmış, bu həzin mövzunu həvəslə oxunacaq bir roman

halına gətirmişdir.

Füzulinin "Leyli və Məcnun"u isə başqadır. Əvvələn, bu əsər Nizamidən sonra dörd yüz illik uzun bir müddətdə də yaranmış böyük bir ədəbi məhsulun təhlil və tərkibindən meydana gəlmişdir. Füzuli hekayəni anladarkən ərəb əfsanəsinin əslinə sadiq qalmağı çox aramamış, surətləri ancaq onun zehnindəki təsəvvürə görə təsvir etmişdir. Məcnunu yazarkən Füzuli bədəvi şair Qeysi deyil, şəksiz, özünü yazmışdır.

Nizami təbii həyat şərtləri içində keçən fövqəltəbii bir eşqin dastanını yazdığı halda, Füzuli bizə təbii həyat qayğılarından sıyrılan ilahi bir eşqin xəyalını təsvir etmişdir.

İkisi də öz növündə orijinal bir şair, hekayətləri də orijinal bir əsərdir. Burada bənzətmədən bəhs oluna biməz; hələ tərcümə ağıla belə gəlməz.

Bu iki orijinal əsərdən əcaba hangisi daha yüksəkdir?-deyə bir sual qarşısında qala bilərik. Etiraf edirik ki, belə bir suala cavab verməkdə özümüzü aciz sayırıq. Çünki hər iki əsər öz növündə orijinal, öz növündə böyük və öz növündə yüksəkdir .

Nizami də, Füzuli də klassik Şərq ədəbiyyatının ölçüyə gəlməz bir varlığıdır. Ölçüyə gəlməyənləri qarşılaşdırmaq da söhbət mövzusu ola bilməz.

Böyüklük, kiçiklik kimi nisbi anlayış xaricində iki şah əsərin özünə xas keyfiyyətlərini söyləmək lazım gəlirsə, ancaq bunu deyə bilərik: NİZAMİ MƏCNUNU ŞEİRLƏŞDİRMİŞSƏ, FÜZULİ ŞEİRİ MƏCNUNLAŞDIRMIŞDIR!"

* * *

M. Ə. Rəsulzadə irsinin Azərbaycanda ilk tədqiqatçısı Mövsüm Əliyev göstərir ki, İkinci Dünya müharibəsindən sonra Türkiyədə nəşr olunan "Türk ensiklopediyası"nda Azərbaycana aid məqalələrin bir çoxu M.Ə.Rəsulzadə tərəfindən yazılmışdır. 1952-ci ildən Ankarada çıxan "Azərbay-

can" jurnalında onun bir sıra məqalələri dərc edilmişdir. 1955-ci il martın 6-da üç dəfə "Azərbaycan" deyərək dünyasını dəyişən M.Ə.Rəsulzadə mühacirət ömrünün bütün mərhələlərində Azərbaycanı və Azərbaycan ədəbiyyatını Avropa ölkələrində tanıdan ən böyük təbliğatçı olmuşdur. Bu gün bu yorulmaz insanı, cəsarətli qələm sahibini və mütəfəkkiri Azərbaycan ədəbiyyatşünaslığı tarixinin Firudin bəy Köçərlidən sonra əsl yaradıcısı hesab etmək olar. Belə ki, Azərbaycanda uzun əsrlərdən başlayaraq milli və ədəbi intibahın bütün dövrlərində şöhrət tapmış sənət ustadları haqqında onun öz sözü, öz baxışı mövcud olmuşdur. Azərbaycanın dövlət müstəqilliyinin banisi Azərbaycanın mənəvi sərvət müstəqilliyinin də keşiyində mərd-mərdanə durmuş, onu yalan və böhtanlardan qorumuşdur.

M.Ə.Rəsulzadənin Xaqani və M.F.Axundov haqqındakı məqalələrini indinin özündə də həyəcansız oxumaq qeyri-mümkündür. Bu yazılarda elmi baxışla siyasi publisistika qırılmaz tellərlə bir-birinə bağlanmışdır.

"Şirvanlı Xaqani" məqaləsində M.Ə.Rəsulzadə Xaqanini XII əsrin məşhur şairlərindən, seçkin ustadlarından biri kimi qiymətləndirirərək qeyd edir ki, avropalı tənqidçilər onu fransız romançısı Viktor Hüqoya bənzədirlər.

Məqalədə oxuyuruq: "Şirvan sarayında ulduzu parıldayan və bütün rəqiblərinin üstünə çıxan Xaqani bir intriqa üzündən düşmüş, həbs edilmişdir. Şairin bu əsnada yazdığı "Həbsiyyə"si ədəbiyyat tarixinin qeyd edildiyi parlaq parçalardandır".

Müəllif Xaqaninin həyatındakı bu hadisənin sovet tənqidçiləri tərəfindən necə şişirdilməsindən bəhs edərək göstərir ki, "bu yozumlara görə, şairlərə dəyər verən rejim ilə dövr ancaq Sovet rejimi və yalnız kommunist dövrü imiş".

M.Ə.Rəsulzadə Xaqaninin tərcümeyi-halına istinad edərək xatırladır ki, Xaqaninin əsl adı Əlidir. Fağır bir xarrat ailəsində yetişən Əli yaxşı təhsil görmüş, zamanındakı elmləri öyrənmiş,

Allah vergisi olan şairliyə başlamışdır. Xarrat oğlu istedadına görə az zamanda Şirvan sarayına alınmış və ona "Xaqanın şairi" mənasına gələn "Xaqani" təxəllüsü verilmişdir.

M.Ə.Rəsulzadə "Şirvanlı Xaqani" məqaləsində göstərir ki, Azərbaycanda bütün əsrlərdə hökmdarlara çəkinmədən öyüdlər verən, onlara ədalətsizliyin qorxunc nəticəsini əvvəlcədən bildirən böyük şairlər və mütəfəkkirlər olmuşdur. Sovet böyüklərinə öyüd verən bir sənətkar tapılarmı? XII əsrdə şairlərə "zülmlərdən" tüğyana gələnlər gözləri önündə ədib və şairlərə rəva görülən zülmləri görmürlərmi?

* * *

M.Ə.Rəsulzadə 1923-cü ildə Türkiyədə nəşr olunmuş "Azərbaycan Cümhuriyyəti" kitabında yazırdı: "Şərq mədəniyyəti ilə mükəmməl surətdə mücəhhəz və rusca vasitəsilə də Qərb mədəniyyətinin əsasatı ilə aşina bulunan Mirzə Fətəli Axundzadə ilə başlayan teatro ədəbiyyatı, Nəcəf bəy Vəzirov, Əbdülrəhim bəy Haqverdiyev, Sultan Məcid Qənizadə, Nəriman Nərimanov, Cəlil Məhəmmədquluzadə kimi mühərrirlər tərəfindən tənzir və idamə edilirdi. Mirzə Fətəlinin komediyaları türk aləmində yazılmış ilk komediyalardır. Münəqqidlərcə, "Şərq Molyeri" ləqəbini qazanan Mirzə Fətəlinin məcmueyi-asari ruscaya, almancaya, ingiliscəyə, qismən də fransızcaya tərcümə edilmişdir". 1955-ci ildə yazdığı "Mirzə Fətəli Axundzadə" məqaləsində isə onu "Azərbaycan ədəbiyyatında hürr düşünmə tərzinin ən böyük bir müməssili" adlandırmışdır.

Azərbaycan SSR-də isə M.F.Axundov məktəblilərə, tələbələrə, oxuculara "dinin düşməni" kimi təlqin edilmişdir. Xalqımızın dünya mədəniyyətinə bəxş etdiyi əvəzsiz bir şəxsiyyət barədə bu fikir SSRİ qurulandan ta dağılanadək bütün mərhələlərdə səslənmişdir.

Azərbaycan xalqının qədim mədəniyyətini və cahanşümul

mənəvi sərvətini Böyük Oktyabr inqilabının qırmızı çərçivəsi arasına alanların dərsini yalnız və yalnız M.Ə.Rəsulzadə vermişdir. Böyük Mirzə Fətəlini də Azərbaycan marksist-lelinçilərinin caynağından qoparan M.Ə.Rəsulzadə olmuşdur. O, "Mirzə Fətəli Axundzadə" məqaləsində göstərir ki, bolşeviklər allahsızlıqdan bəhs edərkən Mirzə Fətəlinin adını anırlar. Onun ateistliyindən bəhs edirlər. Bu, bir iftiradır. Mirzə Fətəli "Şərq istibdadının yumşaldılmasını istəyirdi. Allah fikrinə, yəni mütləq həqiqət idealına qarşı qətiyyən mübarizə aparmırdı. Onun mücadilə etdiyi şey sxolastik təfəkkür tərzi idi. Bu növ düşüncə tərzi indi bütün totallığı ilə Sovetlərdə hakimdir. Sovetlər dövlətinin rəvac verdiyi rəsmi əqidə bütün vətəndaşlar üçün məcburi mahiyyət daşımaqdadır. Əksini düşünənlərin yeri həbs və sürgün düşərgələridir. Söz hürriyyətinin, mətbuat sərbəstliyinin, din və düşünmə istiqlalının, liberal dövlət üsuli-idarəsinin böyük mücahidi, şəkilcə də, məzmunca da milli və müasir Azərbaycan ədəbiyyatının qurucusu və latın əslindən irəli gələn yeni türk əlifbasının qəbulu üçün savaşan böyük islahatçı Mirzə Fətəlinin, bu unudulmaz hürriyyət qəhrəmanının təqdis etdiyi bütün əsasları kökündən rədd edən kommunizmə və bu doktrinanın təmsilçiləri bulunan bolşeviklərə dost olması qətiyyən təsəvvür olunmaz.

Azərbaycandakı bir sıra görkəmli ədəbiyyatşünas və alimlərdən M.Ə.Rəsulzadənin bir ədəbiyyat bilicisi kimi ümdə fərqi ondan ibarət idi ki, sovet alimləri bolşevizmin qələbəsinə, M.Ə.Rəsulzadə isə bolşevizmin məhvinə inanırdı. Sovet Azərbaycanında "Gəlir kommunizm, haqmış o sabah" elan ediləndə, M.Ə.Rəsulzadə başqa bir gələcəkdən xəbər verirdi: "Gələcək-millətləri süngü gücü ilə yapma rejimə boyun əydirmənin deyil, milli hakimiyyətə, haqqa və hürriyyətə dayanan istiqlalçılığındır. Kommunizm rejimi süqut etmək məcburiyyətindedir."

Sovet hakimiyyəti illərində Azərbaycanda cərəyan edən

ədəbi prosesi M.Ə.Rəsulzadə kimi geniş və hərtərəfli, düzgün və inandırıcı əks etdirən ədəbiyyat tarixçisi təsəvvürə gətirmək çətindir. Bu cəhətdən mütəfəkkirin "Çağdaş Azərbaycan ədəbiyyatı" əsəri xüsusi yer tutur. Müəllif göstərir ki, Sovet istilası ədəbiyyatın maneəsiz irəliləməsi üçün əngəllər törətdi. Kommunist rejimi milli ruhlu ədəbiyyata əvvəlcə səbrlə yanaşırdısa da, məlum olduğu kimi, ona proletar məzmunu verməyə çalışırdı. Lakin Azərbaycan ruhunu çürütmək və onun yerində "proletar" mədəniyyəti yaratmaq bolşeviklər üçün asan iş deyildi. Hakimiyyət başına savadsız adamları gətirmək müşkül məsələ deyildi. Belələrini Moskvaya ali partiya kurslarına göndərməklə, marksizm-leninizm nəzəriyyəsini tədris etməklə məqsədə çatmaq mümkündür. Ədəbi yaradıcılıq sahəsi isə bambaşqa meydan idi. Burada hər hansı bir həvəskarı Moskvaya ali kurslara göndərməklə, beyninə Leninin kəlamlarını doldurmaqla ondan Azərbaycan ədəbiyyatının klassikini yaratmaq olmazdı. Sovet işğalı Azərbaycanın zəngin sərvətli ərazisini işğal etsə də, onun mənəvi zənginliyini birdən-birə ram edə bilmədi. Azərbaycanda ədəbiyyat tara bənzəyirdi ki, onun sarı simi ustad sənətkarların mizrabı ilə dilə gəlirdi. Sarı sim isə millət havası çalırdı. Ona görə də, Azərbaycanın əski ədiblərinin bir sıra əsərləri "proletarın" xoşuna gəlmirdi.

Cəlil Məmmədquluzadənin məşhur "Kamança" pyesi səhnəyə qoyulmurdu. Nə üçün? Çünki, əsərdə təsvir olunduğu kimi, erməni-müsəlman savaşında erməni azərbaycanlının əlinə keçir. Azərbaycanlının intiqam hissini yumşaldan bu olur ki, erməni kamançada türk havası çalır. İyirminci illərdə bu orijinal səhnə əsəri "proletarların" qəzəbinə tuş gəlir. Nə üçün azərbaycanlı Azərbaycanda ermənini əsir almalıdır? Erməni azərbaycanlı üçün kamançada erməni havası deyil, türk havası çalmalıdır? Müəllif millətçilik fikirləri aşılayır...

M.Ə.Rəsulzadə Azərbaycanda Sovet hakimiyyətinin ilk

illərində qırmızı senzuraya məruz qalan əsərlər arasında Süleyman Sani Axundovun "Laçın yuvası"pyesini də göstərir.

Ədəbiyyat tariximizdən məlum olduğu kimi, S.S.Axundovun "Laçın yuvası" pyesi 1921-ci idə yazılmışdır. Əsər elə həmin il Azərbaycanda Sovet hakimiyyəti qurulmasının ildönümü münasibətilə elan olunmuş ədəbi müsabiqədə birinci mükafata layiq görülmüşdü. Bəs sonradan niyə səhnədən götürülmüşdü? M.Ə.Rəsulzadə səbəbini belə izah edir: "Əhvalat Qarabağda cərəyan edir. Azərbaycanlı gənc bir kommunist Qarabağın keçilməz bir meşələrindən birində yerləşən bəy qəsrini tutur. İnqilabçının nişanlısı olan qız ondan üz çevirir. Lakin inqilabçı uzun bir monoloqla qızı inandırmağa çalışır, inqilabın lazım olduğunu ona sübut etmək istəyir. "Yalnız bu yolla müsəlman məmləkətləri dünya imperializminin əlindən qurtulacaqlar, - deyir".

Bu gün Qarabağı Azərbaycan ərazisindən qoparanların qırmızı xəlfələri "Laçın yuvası"na qadağa qoydular. Əsərdə təsvir olunan azərbaycanlı inqilabçının Qarabağda qəsri ələ keçirməsi qırmızı inqilabın məqsədlərinə zidd idi. Başqa sözlə desək, bu qəsri, bütünlükdə Qarabağı "bəylərin əlindən ruslar və ermənilərlə birlikdə qoparmaq lazım idi".

M.Ə.Rəsulzadə Sovet hakimiyyəti illərində yaradıcılığını davam etdirən əski ustadlar arasında Hüseyn Cavidə xüsusi yer ayırır. Onun sovet dövründə yazdığı "Topal Teymur" və "Peyğəmbər" əsərləri barədə maraqlı fikirlər söyləyir.

"Topal Teymur" dramı 1926-cı ildə səhnəyə qoyulmuş, sonra repertuardan çıxarılmışdı. Səbəbini M.Ə.Rəsulzadə belə izah edir: "Topal Teymur" tamaşaçıları həyəcana gətirir. Dövlət teatrında pyes bir neçə dəfə oynanır. Əhali türklüyün ümumi qəhrəman tipi Teymurləngdən fövqəladə dərəcədə məmnun və coşqun olur... Bolşeviklər pyesin göstərilməsini qadağan edirlər. "Sovet çörəyini yediyi halda tarixin pantürkist tiplərini idealizə etməyə cəsarət edən" şairə qarşı sovet

tənqidçiləri atəş püskürürlər".

Azərbaycan mətbuatının səhifələrindəki yazılar M.Ə.Rəsulzadənin sözlərini təsdiqləyir.

"İnqilab və mədəniyyət" jurnalının 1928-ci il 8-9-11 - ci saylarında Cavidin "Topal Teymur" tamaşası ilə əlaqədar məqalələrdə deyilirdi ki, bu əsər müəllifin inqilabi yaşayış məsələlərinin həllindən üz çevirdiyini göstərir. "Biz Cavid kimi şairlərdən inqilab tərəfinə keçməyi tələb edirik. "Topal Teymur"da qanlı fateh idealizə edilmiş, qüdrətli şəxsiyyət kimi təsvir olunmuşdur".

M.Ə.Rəsulzadə qürbətdə olduğundan 1925, 1926-cı il mövsümlərində Azərbaycan Dövlət Türk Teatrında Hüseyn Cavidin "Topal Teymur"una baxmamışdı. Fəqət "türklüyün ümumi qəhrəman tipi Teymurləng"dən söhbət açan tamaşa barədə türk dünyasının böyük sənət adamlarından biri - Rəsul Rza belə yazırdı: "O illərdə mən Göyçayda yaşayırdım. Bir neçə günlüyə böyük bacım Kübragilə qonaq gəlmişdim. Küçələrdəki elan lövhələrində Hüseyn Cavidin "Topal Teymur" tamaşasının elanını gördüm. Şair və tələbəlik dostum Abdulla Faruqun böyük bir çətinliklə tapdığı biletlərlə teatra getdik.Yerimiz yaxşılardan deyildi. Səhnəyə və tamaşa salonuna "quş uçuşun"dan baxırdıq. Mənim xatirimdə bu tamaşa unudulmaz bir bayram kimi qalmışdı. Şair Hüseyn Cavidi də ilk dəfə bu tamaşada gördüm."

M.Ə.Rəsulzadə kamil ədəbiyyat bilicisi olan bir mütəfəkkir kimi "Peyğəmbər"i də qavramış və geniş təhlil etmişdir. Mühacirətdə yaşayan azərbaycanlılar üçün Hüseyn Cavidi və onun "Peyğəmbər"ini tanıtdırmaqda böyük öndərin xidməti misilsizdir.

Məlum olduğu kimi, Hənəfi Zeynallı istisna edilməklə, Azərbaycanın bütün tənqidçiləri "Peyğəmbər"i müasirlikdən uzaq olan bir əsər kimi qiymətləndirirdilər. Onların fikrincə, Cavid bu əsəri ilə XX əsrdən çox-çox uzaqlaşmış və din

xadimlərinə münasibətdə XI-XII yüzilliklərin səviyyəsinə enmişdir. M.Ə.Rəsulzadə isə Həzrəti Məhəmmədin həyatı təsvir edilən mənzum dramın, hər şeydən əvvəl, müasir səsləndiyini göstərir.

M.Ə.Rəsulzadə yazırdı ki, Hüseyn Cavidin cəsarəti onda idi ki, bolşevizm şəraitində öz fikirlərini bədii şəkildə ifadə etmişdir. M.Ə.Rəsulzadə də Hənəfi Zeynallı kimi "Peyğəmbər"in ayrı-ayrı hissələrini təhlil edir, çıxardığı nəticələri oxucu ilə bölüşdürür. Məsələn, pyesin birinci pərdəsində təsvir edildiyi kimi, Cəbrayıl Peyğəmbərin yanına gəlir və ona qızıl cildli kitab gətirir. Peyğəmbər təbliğat apararkən təhqirlərə məruz qalır. Onu ələ salırlar, dişini sındırırlar. Döyülmüş və təhqir edilmiş Peyğəmbərin naümid bir çağında tarix rəmzi deyilən bir skelet səhnəyə çıxır və ona bir qılınc uzadaraq belə söyləyir:

İnqilab istəyirmisən, mənə bax!
İştə kəskin qılınc, kitabı burax.

Peyğəmbər bir əlində Allahın kitabı, o biri əlində polad bir qılınc deyir:

Bu qılınc, bu da mənalı kitab!
İştə kafi sizə... Yox başqa xitab.
Açar ancaq bu kitab el gözünü,
Siləcəkdir bu qılınc zülm izini.
Haq, vətən, zövqi - səadət, cənnət
Həp qılınc kölgəsi altında, əvət.

Beləliklə, M.Ə.Rəsulzadə göstərir ki, vətəni sadəcə sözdə sevmək kifayət deyil. Çünki hər hansı bir haqq kimi vətən də ancaq mübarizədə qazanılır. Rəsulzadənin "Peyğəmbər" mənzum dramı barəsindəki qeydləri ilə Azərbaycanda nəşr olunmuş əsərlər içərisində ancaq və ancaq Hənəfi Zeynallının

1926-cı ildə bir hissəsi "Ədəbi parçalar" məcmuəsində, bir hissəsi də "Maarif və mədəniyyət" jurnalında dərc olunmuş "Hüseyn Cavidin yazdığı "Peyğəmbər" haqqında düşüncələrim" məqaləsi tutuşdurula bilər.

Həm H. Zeynallı və həm də M.Ə. Rəsulzadə "Peyğəmbər" pyesinin, eləcə də, H. Cavidin digər əsərlərinin dil və üslub cəhətlərinə də diqqət yetirmişlər. H. Zeynallı adı çəkilən məqaləsində yazırdı: "Cavidin yaratdığı dil və üslub haralardan alınırsa alınsın, nə kimi ilhamlardan doğursa doğsun, Azərbaycandakı şair və ədiblərimiz içində ən müstəsna, ən zərif və narın bir dildir."

M.Ə.Rəsulzadə isə H. Cavidi "türk şeirinin gözəlliyinin sirlərini bilən bir sənətkar" adlandırmışdır.

H. Cavidin "Peyğəmbər" əsəri haqqında ilk dəfə cəsarətli və obyektiv fikir söyləmiş M.Ə.Rəsulzadə və H. Zeynallı da Azərbaycan sovet tənqidçilərinin qəzəbinə gəlmişlər. M.Ə. Rəsulzadənin adını çəkməyi özlərinə rəva bilməyən ordenli şair və alimlərimizin bir çoxu onun acığını H. Zeynallıdan çıxmışlar. 1937-ci ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qərarı ilə güllələnmiş və 1957-ci ildə bəraət almış H. Zeynallı sonralar elmlər doktoru və professorların əsərlərində "bəziləri" sözü ilə əvəz olunmuşdur.

M.Ə.Rəsulzadənin və H. Zeynallının "Peyğəmbər" pyesi barədə mülahizələrini rədd edənlərin "manifesti" nədən ibarət idi? Karl Marksın "Manifest"indən. Bir də Leninin "dinə qarşı mübarizə marksizmin əlifbasıdır" sözlərindən. Bir də stalinizm dövründə geniş rəvac tapmış "Allahsızlar" cəmiyyətlərinin məramnamələrindən.

M.Ə.Rəsulzadə isə sovet mətbuatı səhifələrində vaxtilə dərc olunan belə yazıların müəlliflərini "çekist ruhlu tənqidçilər" adlandırırdı. Bu xislətli ədəbiyyatşünas və tənqidçilər otuzuncu illərdə Əhməd Cavadın siyasi səciyyə daşımayan şeirlərinə də antisovet donu geyindirirdilər. M.Ə.Rəsulzadə şairin məşhur

"Göygöl" şeirindən aşağıdakı bəndi misal gətirir:

Bir sözün varmıdır əsən yellərə?
Sifariş etməyə uzaq ellərə...
Yayılsın şöhrətin bütün dillərə
Olursa - olsun qoy haralı, Göygöl!

Azərbaycanın təbiət gözəlliyinin bədii əksi olan "Göygöl" şeirinin o zamankı mətbuat səhifələrində necə qiymətləndirilməsi barədə M.Ə.Rəsulzadə belə yazırdı: "Çekist ruhlu sovet tənqidçiləri" "Bir sözün varmıdır əsən yellərə, Sifariş etməyə uzaq ellərə" beytində əksinqilabçı bir rəmz görürlər. Cavad, onların mühakiməsincə, "inqilab tərəfindən uzaq ellərə atılmış müsavatçı millətçilərə" işarə etmək istəyirmiş".

Ə. Cavadın məşhur "Göygöl" şeiri nəinki tənqidçilərin, elə onun qələm dostlarının da qəzəbinə düçar olmuşdu. Bəs onların "Göygöl" şeirinə belə mənfi münasibəti nə ilə izah oluna bilər? Bunun da kökünü M.Ə.Rəsulzadə mənfur və qəddar sovet rejiminin siyasətində görürdü. Mətbuat kimi ədəbiyyat da bu rejimin yeganə firqəsi olan bolşeviklər partiyasının nəzarəti altında idi. Böyük proletar yazıçısı Maksim Qorkinin başçılıq etdiyi SSRİ Yazıçılar İttifaqı bu nəzarətin təşkilatçısı idi. Azərbaycan Yazıçılar İttifaqı da Moskvanın qərar və göstərişlərini öz fəaliyyətində rəhbər tuturdu. Azərbaycanın tanınmış qələm sahiblərinin bir-birinin yaxın dostundan bir-birinin amansız düşməninə çevrilməsinin şahidi olmaq üçün otuzuncu illərin mətbuatına və eləcə də Yazıçılar İttifaqında keçirilən iclasların protokollarına nəzər salmaq kifayətdir.

M.Ə.Rəsulzadə üçün isə bir-birinin üstünə qılınc çəkən hər iki tərəf əziz və doğma idi. Məsələn, Azərbaycanda vaxtilə Səməd Vurğunu təbiət şeirlərinə görə tənqid edənlər də vardı. Onun adının şahid ifadələrində millətçi kimi çəkildiyini xatırladanlar da tapılırdı. "Stalini idealizə edən əsərlər" müəllifi olan Səməd Vurğun hələ otuzuncu illərdə M.Ə.Rəsulzadə

üçün "sovet şairi" yox, "Azərbaycan şairi idi". O, Səməd Vurğunun "Vaqif" mənzum dramını "Azərbaycan vətənpərvərliyinə rəvac verən" pyes adlandırırdı. Səməd Vurğunun dili, şairlik qüdrəti və vətənpərvərliyi M.Ə.Rəsulzadəni heyran edirdi.

M.Ə.Rəsulzadənin "Çağdaş Azərbaycan ədəbiyyatı" əsərində Cəfər Cabbarlı yaradıcılığına xüsusi diqqət yetirilir. Cəfər Cabbarlı M.Ə.Rəsulzadəyə bir əqidədaş və silahdaş kimi də yaxın idi. O, 1920-ci ildə müsavat liderini Xızının Upa kəndindəki qohumunun evində gizlətmişdi. M.Ə.Rəsulzadə həbs olunub Bayıl dustaqxanasında saxlanıldığı zaman, Stalinlə birlikdə Moskvaya getdikdən sonra da Cəfər Cabbarlı Müsavat Partiyası Xızı Komitəsinin sədri kimi gizli fəaliyyət göstərirdi və buna görə 1923-cü ildə həbsə alınmışdı. Həmin ilin yayında müsavatçı kimi həbsə alınanlar arasında M.Ə.Rəsulzadənin bacanağı Seyid Hüseyn də vardı. Onlardan iltizamnamə alınmışdı ki, Sovetlərə qarşı pis niyyətdə olmayacaq, Sovetlər əleyhinə heç bir təbliğat aparmayacaqlar.

Cəfər Cabbarlı nadir fitri istedad sahibi idi. Öz dövrünün bədii sənət güzgüsü idi. Ona görə də, M.Ə.Rəsulzadənin göstərdiyi kimi, "bolşevik dövründən əvvəlki yazıçılardan sovet idarəsi altında ən böyük müvəffəqiyyət" C.Cabbarlıya nəsib olmuşdu.

C.Cabbarlı əsl sənətkar kimi ən çətin irtica rejimində də millətin sözünü ifadə etməyi bacarırdı. Məsələn, Bakıda senzura "Aydın" pyesindəki "Rədd olsun osmanlıların Hicazdakı, ingilislərin Hindistandakı və rusların da Azərbaycandakı ağalıqları!" sözlərini çıxarmışdı. Fəqət bu incə mətləbi dramaturq başqa pyesində ustalıqla senzuranın gözündən yayındırmışdı. M.Ə.Rəsulzadə yazır: "Od gəlini" əsərini Cəfər "Çeka" həbsindən çıxdıqdan sonra yazmışdır. Bu əsərdə atəşpərəst Azərbaycanın müsəlman - ərəb istilasına qarşı mübarizəsi təsvir edilir. Yeni sahiblər məmləkətin bütün zənginliklərini çapıb aparırlar. Neft

dövlətin malı elan edilir, Ərəbistana daşınır. Azərbaycanlıları islam dinini qəbul etməyə məcbur edirlər.

Xalq üsyan edir. Gənc Elxan sevgilisinin baş örtüyündən düzəltdiyi bir bayraqla meydana atılır. Müdhiş bir mübarizədən sonra onu tuturlar, əsir edirlər və edamına qərar verirlər. Əlləri arxasında bağlı halda dar ağacının altında onu şəhadət kəlməsini oxumağa məcbur edirlər. O isə "bütün dünya desə də, mən demərəm "La ilahə illəllah"-deyə hayqırır.

Mənzərənin rəmzliyi göz qabağındadır. Tamaşaçılar üçün "ərəb" və "islam" sözləri yerinə "rus" və "kommunizm" sözlərini qoymaq mənanı aktuallaşdırmaq üçün kifayətdir".

M.Ə.Rəsulzadə Cabbarlı dramaturqluğunu "Azərbaycan dramaturgiyasında mühüm mərhələ" adlandırır. Qeyd edir ki, onun qəhrəmanları açıq fikirləri və cəsarətli hərəkətləri ilə insanları sarsıdaraq, arxaları ilə aparırlar. Fəlakət və səfalətlərə baxmayaraq, mübarizəyə gedən bu insanlar anlaşılmaz bir qüvvətlə rəhbərlərindən ayrılmırlar.

M.Ə.Rəsulzadə Cəfər Cabbarlı əsərlərindəki qadın qəhrəmanları da yetkin tiplər hesab edir. Göstərir ki, C.Cabbarlı yaradıcılığında bütün məsələlər kimi, qadın məsələsi də real bir şəkildə qoyulmuş və həll edilmişdir. "Qız qalası"ndakı Durna mətanətli və namuslu Azərbaycan qızının timsalıdır. C.Cabbarlının əsərlərindəki qadın surətləri passiv etirazdan başlayaraq aktiv protestə və sosial mübarizəyə qədər yüksəlirlər.

"Ədəbi bir hadisə" – M.Ə.Rəsulzadənin Azərbaycan ədəbiyyatına dair yazdığı son məqaləsi belə adlanır. Onun maraqlı bir tarixi vardır. "1954 - cü ildə Təbrizdə bütün dünya azərbaycanlılarının sonralar əzbərdən deyəcəkləri cahanşümul sənət əsəri kitab halında nəşr olundu. Bu, Azərbaycan ədəbi məktəbinin, Azərbaycan türkcəsinin möcüzəsi idi.

Sovet Azərbaycanı Azərbaycan möcüzəsinə o illərdə qulağını qapadı, gözlərini yumdu. Kiçicik bir xəbər də verilmədi. Yalnız on ildən sonra Azərnəşr böyük Şəhriyarın "Heydər babaya

salam" kitabını oxuculara çatdırdı. 1954-cü ilin martında Təbrizdə nəşr olunmuş kitab barədə elə həmin il Sovet Azərbaycanındakı "Azərbaycan" jurnalında deyil, Türkiyədə M.Ə.Rəsulzadənin rəhbərliyi ilə çıxan "Azərbaycan" məcmuəsində məlumat verildi. Bir il sonra 1955-ci il iyul-avqust aylarında "Azərbaycan" məcmuəsində dərc olunan "Ədəbi bir hadisə" məqaləsi Sovet Azərbaycanından başqa dünyanın azərbaycanlılar yaşayan məmləkətlərində oxundu.

Məhəmməd Əmin Rəsulzadənin "Ədəbi bir hadisə" məqaləsi otuz səkkiz il sonra – 1992-ci ildə soydaşlarımıza çatdırıldı. İlk dəfə "Yol" qəzeti özünün ikinci sayında qoşa səhifəsini bu sözlərlə bəzədi: "Məhəmməd Əmin Rəsulzadə, "Ədəbi bir hadisə".

Böyük öndərin bu tarixi məqaləsini bu gün də həyəcansız oxumaq olmur. Məqalə belə başlayır: "Ədəbi hadisənin səbəbini təşkil edən gözəl bir şeir kitabı masamızın üstündədir. "Heydər babaya salam" adını daşıyan bu mənzumə Təbriz poçtunun bizə böyük bir sürprizidir".

Sonra müəllif "Azərbaycan ədəbiyyatının ən canlı milli əsəri" adlandırdığı "Heydər babaya salam" poemasını geniş təhlil edir, ilk dəfə olaraq Azərbaycan dilli ədəbiyyatşünaslıqda Şəhriyarın yaradıcılığı barədə qiymətli elmi fikirlər söylənir. Məqalədə oxuyuruq: "Hadisə sözünü vəsflə deyərkən, sadəcə iranlı bir şairin türkcə şeir yazmış olduğunu nəzərdə tutmağımız düşünülməsin. Farsca gözəl əsərlər ortaya qoyan azərbaycanlı şairlərin türkcə də şeirlər yazmaları yeni bir şey deyildir. Füzuli başda olmaq üzrə, Azərbaycandan yetişən böyük şairlərin çoxu, türkcə ilə bərabər farsca da şeirlər yazmışlar. Xətai təxəllüsü ilə türkcə şeirlər yazan Şah İsmayılın da farsca şeirləri vardır. Azərbaycan türkcəsilə məzmunlu və toxunaqlı lövhələr yazan şairlərdən "Vərqa və Gülşa" ilə "Səlabiyyə" kimi məsnəvi yazanlar da qeyd oluna bilər.

Azərbaycan ədəbiyyatındakı bu ənənəni almaqla bərabər,

Şəhriyarın əsərini gerçəkdən bir hadisə saya bilərik. Çünki bu əsər, qeyd etdiyimiz əsərlərdən fərqli olaraq, yaxşı həsrətin təsiri ilə yazılmışdır... Bu xariqə əsərində şair nə bir din və ya təriqət qeyrəti güdmüş, nə də klassik şeir örnəklərini təqliddə məharət göstərmək həvəsinə qapılmışdır".

M.Ə.Rəsulzadə Şəhriyarı bir-iki cizgiylə zamanın adamlarını canlandıran "mahir bir portretçi" adlandırır:

"Budur A.Mircəfər:

A Mircəfər seyidlərin tacıydı,
Şahlar şikar etməsi qiyqacıydı.
Mərdə şirin, namərdə çox acıydı.
Məzlumların haqqı üstə əsərdi,
Zalımları qılınc təkin kəsərdi.

Bu da Mustafa dayı:

Mirmustafa dayı, ucaboy baba,
Heykəlli, saqqallı Tolstoy baba".

Qeyd etmək lazımdır ki, birinci bənddəki "A Mircəfər" adı Azərnəşrdə buraxılmış "Heydər babaya salam" kitabında yoxdu. Yəqin ki, "Qlavlit" bu adı çıxarmış, əvəzində bundan əvvəlki bənddəki "A Mirqafar" adını təkrarən misraya salmışdır. Ehtimal ki, elə zənn ediblər ki, Şəhriyar Mircəfər Bağırovu təsvir etmişdi.

...Məhəmməd Əmin Rəsulzadə Nizamidən başlamış Şəhriyara qədər Azərbaycan ədəbiyyatının, demək olar ki, bütün ustad sənətkarları barədə öz sözünü demişdir. Onun Azərbaycan ədəbiyyatına həsr olunmuş məqalələrində Sovet Azərbaycanında adları az çəkilən qələm sahiblərinə də yer verilmişdir. Gültəkinin, Almas İldırımın şeirləri, Sabit Rəhmanın, Həmid Axundlunun romanları, Cəfər Xəndanın yaradıcılığı və s. onun diqqətindən yayınmamışdır .

Böyük öndər siyasi fəaliyyətində dönməz olduğu kimi, ədəbi-bədii yaradıcılığında da ardıcıl və səbatlı olmuşdur.

İyirmi iki yaşında ikən o, belə yazırdı:

Qaranlıqdır bana dünya,
Bütün dünyavü mafiha.
Deyirlər cümləsi güya –
Çəkil bir yanə, sakitləş.
Nə vəhşidir bəni-adəm,
Mücəssəmi - zülm aləm.
Deyirlər cümləsi yekdəm –
Çəkil bir yanə, sakitləş.

Çəkilməm ey hərifan, mən,
Bu meydani -şücaətdən,
Bütün dünya bana derkən –
"Çəkil bir yanə, sakitləş!"

Bəli, Azərbaycanda həqiqi demokratiya bərqərar olmayınca, Məhəmməd Əmin Rəsulzadə "Şücaət meydanından" bir yana çəkilib sakitləşə bilməyəcəkdir!

"Azərbaycan" jurnalı,
№5, 2001

KEŞMƏKEŞLİ ÖMRÜN UNUDULMAZ ANLARI

İndi M.Ə.Rəsulzadənin Novxanıdakı dədə-baba evi uşaq bağçasına çevrilib, Bakıdakı qədim həyətlərinin yerində isə Bakı metropoliteninin "Nizami" stansiyası tikilib. İslam Səfərli küçəsinin Nizami küçəsi ilə kəsişdiyi yerdə ucalan binanın ikinci mərtəbəsində M.Ə.Rəsulzadənin ailə üzvləri yaşayıblar. 1920-ci ildən 1937-ci ilin amansız kütləvi cəza tədbirlərinədək Azərin də həyatı bu mənzildə keçmişdi. O, məktəbə buradan gedib. Şəkil çəkməyi və tar çalmağı çox xoşlayırmış. Yay aylarında Novxanı bağlarında qonşu uşaqlarının, şəhərdə isə məktəbli dostlarının portretlərini çəkib özlərinə bağışlayarmış.

* * *

Keşməkeşli ömrünün əlli üç ili qürbətdə keçən Azər Rəsulzadənin rəssamlıq həm peşəsi, həm də, necə deyərlər çörək ağacı olub. Azər Rəsulzadə Qazaxıstanın Çimkənd orta məktəbində rəsmxət müəllimi işləyirdi. Bu məktəbdə Azərbaycandan didərgin düşmüş bir sinif müəllimi – Şölə Sultanova da vardı. İbtidai sinif müəllimi ilə rəssam arasındakı səmimi münasibət məhəbbətə çevrildi. On doqquz yaşlı Azər on yeddi yaşlı Şölə ilə ailə qurdu. Tale onlara qoşa qanad bəxş etdi – Ramiz və Rəis !

* * *

İkinci Dünya müharibəsi ərəfəsində M.Ə.Rəsulzadə Polşa hökümətində mütərcim vəzifəsində çalışırdı. Ərəb, fars, türk və başqa dillərdə olan sənədləri polyakcaya çevirirdi. Sonra Rumıniyada fəaliyyətini davam etdirdi. İrandan aldığı xəbərlər arasında böyük öndəri riqqətə gətirən sətirlər də vardı – Sovet qoşunları Cənubi Azərbaycana daxil olub! Lakin təsəvvürünə

gətirə bilməzdi ki, Təbrizə qədəm basan azərbaycanlılar arasında onun beşikdə yatmışkən üzündən öpüb ayrıldığı ciyərparəsi də vardı: İyirmi iki yaşlı sıravi əsgər Azər Mamedoviç Rəsulov! Azər də bilmirdi ki, əsrin əvvəlində atası Təbrizdə olmuş, Səttərxanla görüşmüş və bütöv Azərbaycan uğrunda tarixi yürüşün əzəli proqramını hazırlamışdı.

1945-ci ilin dekabrında Azər İrandakı hərbi xidmətindən Qazaxıstana qayıdarkən üç gün doğma Bakıda, xalası Ümmügülsümgilin İçərişəhərdəki evlərində qaldı. Seyid Hüseyn ocağının balaca sahibləri – Qumral, Oqtay, Cığatay xalaoğlu ilə üç gün, üç gecə baş - başa verdilər.

* * *

1946-cı ildə Azər yenə də Qazaxıstandan Bakıya, İçərişəhərə gəldi. O, xalauşaqlarına şad xəbər verdi – bacısı qızı Firuzəni Taldı-Kurqan şəhərindəki uşaq evindən tapıb. Firuzənin Bakıya gəlməsini təşkil edəcəkdir!

Bir ildən sonra başı bəlalar çəkmiş on altı yaşlı Füruzə Bakıya gəldi. Onu Qaradağ balıq zavoduna mövsümi işə götürdülər. Qeydiyyata alındıqdan sonra Korgöz qəsəbəsində telefonçu işlədi.

Düşünürsən ki, o zaman Azərbaycanın başında müsavatçılığı yaşadan rəhbər – Mir Cəfər Bağırov durmasaydı, Məhəmməd Əmin Rəsulzadənin oğlu Bakıya ayaq basa bilərdimi? Nəvəsi Füruzə Taldı-Kurqandan gəlib, Bakıda qərar tutardımı?

M.C.Bağırovun yerində başqası işləsəydi... yəqin ki, adları sürgündəkilərin siyahısında olan M. Ə. Rəsulzadənin oğlu və nəvəsi barədə axtarış edərdi və onlar tutulub Bayıl təcridxanasına atılardılar...

Bu gün iki bacanağın – M.Ə.Rəsulzadənin və Seyid Hüseynin canlı yadigarı – Füruzə xanım və Qumral xanım ağbirçək yaşındadırlar. Hər ikisinin dövlət qayğısına ehtiyacı vardır.

Əfsuslar ki, M.Ə.Rəsulzadəni Azərbaycan dövlətçiliyi tarixindən çıxarmaq istəyənlər onun qohumlarını da siyahıdan silirlər.

* * *

1956-cı ilin isti yay günlərindən birində Azəri Qazaxıstan DTK-sına dəvət edirlər. Rəsmxət müəllimi düşünür ki, yəqin Rəsulzadələr ailəsinə də bəraət verilməsi barədə xəbər alacaqdır. Çünki bir neçə həftə idi ki, Xruşşovun göstərişinə müvafiq olaraq sürgün düşərgəsindəkilər Rusiyaya, Ukraynaya, Özbəkistana, Türkmənistana və başqa yerlərə öz ata-baba yurdlarına qayıdırdılar.

DTK-da aşağıdakı dialoq protokola düşdü:

– Xəbəriniz varmı ki, atanız Rəsulzadə keçən il Türkiyədə ölmüşdür?

– Yox, yoldaş polkovnik, xəbərim yoxdur. Bir də ki, mən atamı heç vaxt görməmişəm. Mənim və ailəmin günahının nə olduğunu da bilmirəm.

– Darıxmayın, vətəndaş Rəsulov, Azərbaycandan ailənizə bəraət verilməsi haqqında rəsmi sənəd bizə daxil olan kimi Bakıya, öz evinizə qayıdacaqsınız.

* * *

Azərgilin vaxtilə yaşadığı mənzildə Arakelovlar dövran sürürdü. Şaumyana, Caparidzeyə, Fioletova, Brejnevə muzeylər açıldıqdan sonra Azərbaycan iri addımlarla Kremlə istiqamət götürmüşdü... SSRİ məkanında bəraət kağızı almamış bir repressiya ailəsi vardısa, o da Rəsulzadələr idi...

Karaqanda şəhərində emalatxanasına qısılıb Vətən həsrətilə yaşa dolan peşəkar rəssam Azərbaycanı ancaq və ancaq Moskva televiziyasının verilişlərində axtarırdı. 1988-ci ilin əvvəl-

lərində Bakıdan Karaqandaya gələn etibarlı bir azərbaycanlının ona çatdırdığı qəzet materiallarından çox şeydən hali olmuşdu. Bunları Azərə M.F. Axundov adın Azərbaycan Dövlət Kitabxanasından bibisi nəvəsi Ədilə xanım İbrahimova göndərmişdi.

Azər uzun illərdən sonra yenə də "partizanlığa" əl atdı: "rəsmi sənəd" olmadan Bakıya üz tutdu. Ali məktəbdə dərs deyən oğlu Rəislə görüşdü və... birbaş Bakının baş meydanına getdi. Heç kəs bilmədi ki, gecədən-səhərədək meydanda alovlanan nəhəng tonqalın dövrəsində M.Ə.Rəsuzadənin oğlu da vardı...

Azər Bakıda fövqəladə vəziyyət olanda Karaqandaya döndü...

* * *

1989-cu ilin mayında xalqımızın cəsarətli ziyalısı Abbas Zamanov Türkiyədə Ankaranın Əsri məzarıstanlığına baş çəkdi, Məhəmməd Əmin Rəsulzadənin müqəddəs qəbir torpağından bir ovuc toplayıb, dəsmala bükdü.

Abbas müəllim Ankaradan Bakıya gələndən sonra onun bu alicənab hərəkətindən çoxları, ilk növbədə M.Ə.Rəsulzadənin yaxın qohumları xəbər tutdular. Mayın 28-də Məhəmməd Əmin Rəsulzadənin məzar torpağının "qızıl dənələri" atası Axund Hacı Molla Ələkbərin qəbri üzərinə səpildi. Dünyasını dəyişmiş ata-oğul neçə illərdən sonra doğma Novxanıda beləcə görüşdülər.

Həmin il iyun ayının 15-də Rəis Bakıdan məktub göndərərək atasını ad günü münasibətilə təbrik edəndə, "Novxanı hadisəsi" barədə də qısaca yazmışdı. Azər məktubu oxuduqdan sonra həyəcandan göz yaşlarını saxlaya bilməmişdi. Emalatxanasına çəkilərək ürəyindən keçənləri bir varağa köçürdü: "Sağlığımda bəraət almasam, öləndə Novxanıda basdırıla bilmərəm. Atamın məzar torpağının bir cüt dənəsi

gözlərimin üstünə düşsə... cənnətdə uşaq kimi mışıl-mışıl yataram. Atam məni 1920-ci ildə belə görmüşdü".

* * *

1989-cu ilin avqustunda filologiya elmləri doktoru, professor Murtuz Sadıqlının rəhbərlik elədiyi "Vicdan" komissiyası Rəsulzadələr ailəsinə bəraət verilməsi məsələsini müvafiq təşkilatlar qarşısında qaldırdı. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Əbdürrəhman Vəzirov təəccübünü gizlətmədi: "Axı niyə 1956-cı ildən indiyədək bu haqsızlığa yol verilmişdir?!"

Beləliklə, 1989-cu il avqustun 11-də Azərbaycan SSR Daxili İşlər Nazirliyinin qərarı ilə həmin nazirliyin 1937-ci il 27 noyabr tarixli hökmü ləğv olundu.

1990-cı ilin payızında Azər Karaqandadan Bakıya gəldi. Bakı təyyarə limanından doğmalarının müşayiəti ilə Əhmədliyə, oğlu Rəisin evinə yollandı. Çox çəkmədi ki, Azərin Bakıya qayıtmasından bütün şəhər xəbər tutdu. Zəng vuranların, ünvanı öyrənib Əhmədliyə gedənlərin sayı çoxalmağa başladı. Lakin Əhmədlidəki ikiotaqlı mənzil paneldən olduğu üçün Azər təngnəfəslikdən əziyyət çəkirdi. Ona görə də, bəzən bir neçə günlüyə Lökbatandakı daş evə qonaq düşürdü: bacısı qızı Füruzəgilə.

1990-cı il dekabrın 31-də Azər Azərbaycanın rəsmi dövlət orqanlarına aşağıdakı məktubu yazdı:

"Mən, Məhəmməd Əmin Rəsulzadənin sağ qalmış yeganə övladıyam. 1937-ci ildə ailəmizi Qazaxıstana sürgün etdikləri vaxtdan ta bu günə qədər orada yaşamışam. Nəhayət, indi, 54 ildən sonra vətənə qayıtmışam. 71 yaşım var, özüm də xəstəyəm. Uzun illər ərzində vətən həsrəti ilə yaşamışam. Ömrümün axırlarına yaxın doğma Bakıya qayıtmaq arzusu daha da güclənir. Son illərdə atamın adı ilə bağlı olan bir çox hadisələrin öz həqiqi qiymətini tapması, Bakı Universitetinə onun

adının verilməsi, əsərlərinin çap edilməsi və s. mənə ümid verir ki, ömrümün sonunu doğma vətənimdə yaşaya bilərəm. Mən çox istərdim ki, Bakıda atamın qaldığı, mənim anadan olduğum, yeniyetməlik dövrünə qədər yaşadığım Əzizbəyov küçəsindəki binadakı mənzilimizdə yaşayım və atamın xatirəsini canlandırmaq üçün orada ev-muzey təşkil edim. Bu, mənim ömrümü uzadardı.

Bir də ata-baba yurdumuzda – Novxanıda bir parça bağ yeri verilməsini arzulayıram.

Başqa heç bir arzum və təmənnam yoxdur".

* * *

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Parlamentində "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi. Azərbaycanın ilk prezidenti Ayaz Mütəllibov Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin dövlət səviyyəsində təbliğ olunmasına rəvac verdi. M. Ə. Rəsulzadənin kitabları Azərbaycan Dövlət Nəşriyyatı və başqa nəşriyyatlar tərəfindən kütləvi tirajla buraxıldı. Böyük öndərin əzəmətli abidəsinin yaradılması üçün göstəriş verildi. Azərbaycanın, demək olar ki, bütün şəhərlərində M. Ə. Rəsulzadənin adı ən böyük küçələrə verildi. Bakının mərkəzində - M. Ə. Rəsulzadə küçəsinin qurtaracığındakı bağda abidənin təməl daşının üstündə yazıldı: "Burada Azərbaycan Demokratik Respublikasının banisi M. Ə. Rəsulzadənin abidəsi qoyulacaqdır".

Bütün bunlar Azərin ömrünü cavanlaşdırdı, onu şən və gümrah etdi, əzablarını unutdurdu.

* * *

1992-ci ilin iyununda özünü "Böyük Məhəmməd Əminin əsgəri" adlandıran Əbülfəz Elçibəy prezident seçkilərində

qalib gəldi. Şəxsiyyətinə dərindən hörmət bəslədiyi Əbülfəz Elçibəyin bu sözlərini Azər can dəftərinə yazdı: "Azərbaycanın prezidenti seçilən günü gərək prezidentlik andı içməsin. Getsin Şəhidlər xiyabanına, getsin Məhəmməd Əminin qəbrini ziyarət etsin. Onun ruhuna səcdə eləsin və prezident olmağa elə bil ki, ustadın ruhundan icazəsini alıb sonra and içsin". Əbülfəz Elçibəylə Azər Rəsulzadə arasındakı məktublaşmanı ilk dəfə oxucuların nəzərinə çatdırırıq:

" Hörmətli Əbülfəz Elçibəy!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Sizin tutduğunuz siyasət M. Ə. Rəsulzadənin haqq, ədalət, azadlıq yolunun bayrağıdır. Bu bayraq bir daha enməz!

Bütün Azərbaycan xalqını azadlığa çağırmağınıza görə sizə təşəkkür edirəm, M. Ə. Rəsulzadənin oğlu kimi atamın ruhu barədə söylədiyiniz sözlərə görə Sizə çox böyük minnətdarlığımı bildirirəm. Burada yaşayan azərbaycanlılar da sizin arzu və fikirləriniz ilə şərikdirlər.

Tutduğunuz yeni tarixi yolda məqsədlərinizə tezliklə nail olacağınıza inanıram. Bu yolda çətinliklərə qalib gəlməyiniz üçün Allaha dua edirəm.

Məktubumda yazı səhvimi bağışlayın. Vətənimdən uzaqda olsam da, ana dilimi unutmaram.

Məktubu şəxsən özünüzün aldığınızı bilsəm, çox şad olaram.

Hörmətlə, Azər Məhəmməd Əmin oğlu.
Karaqanda, Seyfulin, küçəsi, 155. 2 iyul 1992-ci il."

Azərbaycan Prezidenti Əbüfəz Elçibəy cavab məktubunda yazırdı:

"Hörmətli Azər bəy!

Hər cümləsində Azərbaycana, Məhəmməd Əmin Rəsulzadənin haqq işinə sonsuz inam və məhəbbət ifadə edilən məktubunuzu aldım, dönə - dönə oxudum. Çox sağ olun!

Mənim barəmdə xoş sözlər dediyinizə görə ürəkdən minnətdaram.

Vətəndən uzaq olsanız da, qəlblərimizdəsiniz. Hər an hiss edirik ki, bizimlə birlikdə çiyin-çiyinə vermisiniz və atanızın göstərdiyi yolla addımlayırsınız.

Sizi bağrıma basıb öpürəm".

* * *

Ölkə Prezidentinin rəsmi məktubunu alıb oxuyandan sonra Azər həmişəlik olaraq Azərbaycanda yaşamağı qərara aldı. Bakıya gəldi. Bu dəfə onu qarşılayanların sayı yüzlərlə idi. Oğlu Rəis üzərində M. Ə. Rəsulzadənin şəkli olan milli valyutanı ona göstərəndə, Azər atasının "üzündən" öpdü və dedi: "ilk dəfədir ki, pul dodağıma dəyir, oğul, bu min manatlığı yadigar saxlayaq, xırdalamayaq, xərcləməyək. Sağ olsun Elçibəy!"

... 1992-ci ilin sentyabr ayında Azərbaycan Prezidenti Əbülfəz Elçibəylə Azər Rəsulzadənin görüşü üç saat çəkdi. Ayrılarkən Azər Prezidentə Bakı Şəhər İcra Hakimiyyəti başçısının 1992-ci il 25 may tarixli 748 saylı sərəncamının surətini verdi. Sərəncamda deyilirdi:

"A. M. Rəsulzadənin mənzil məsələsi barəsində

Bakı Şəhər İcra Hakimiyyəti başçısının aparatına A. M. Rəsulzadə müraciət etmişdir.

Azərbaycan Demokratik Cümhuriyyətinin Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin oğlu – Azər Rəsulzadə

1937-ci ildən 1989-cu ilə qədər Qazaxıstanda sürgündə olmuşdur. Onun qardaşı güllələnmiş, anası və bacısı isə vəfat etmişlər.

Hal-hazırda A. Rəsulzadə 4 nəfər ailə tərkibi ilə (özü, həyat yoldaşı, 2 qohumu) Karaqanda şəhərində 2 otaqlı mənzildə yaşayırlar. 1989-cu ilin avqustunda onun ailəsi bəraət alsa da, o bu hüquqdan istifadə etməmişdir. Xahiş edir ki, onun ailəsinə atasının əvvəllər yaşadığı mənzili verilsin.

Yuxarıda göstərilənləri nəzərə alaraq:

1. A. Rəsulzadəyə 4 nəfər ailə tərkibi ilə Nizami küçəsindəki 59 N-li kommunal evdə yaşayış sahəsi 35 kv. m olan 2 otaqlı mənzil verilsin.

2. Həmin mənzilin qonşuluğunda yaşayan T. Baxşıyevanın və M. Rudakovanın ailəsinin köçürülməsi Yasamal Rayon İcra Hakimiyyəti başçısının aparatına tapşırılsın.

3. Göstərilən mənzillər boşaldıqdan sonra A. Rəsulzadənin yaşayacağı mənzilin sahəsinə əlavə edilsin.

4. Yasamal Rayon İcra Hakimiyyəti başçısının aparatına tapşırılsın ki, A. M. Rəsulzadəyə 1-ci bənddə göstərilmiş ünvana order təqdim etsin."

Bakı Şəhər İcra Hakimiyyəti başçısının sərəncamı kağız üzərində qalmışdı. Əbülfəz Elçibəy gözdən pərdə asan məmurların gözləmədiyi bir sərəncama imza atdı:

"Görkəmli ictimai-siyasi xadim M. Ə. Rəsulzadənin totalitar sovet rejimi dövründə repressiyaya məruz qalmış ailə üzvlərinin Azərbaycana qaytarılması və onların sosial-məişət məsələlərinin həlli haqqında

Azərbaycan Demokratik Respublikasının banisi, görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin ruhu qarşısındakı mənəvi borc hissini əsas tutaraq, totalitar sovet

rejimi tərəfindən onun ailə üzvlərinə qarşı törədilmiş repressiyanın nəticələrini aradan qaldırmaq məqsədilə qərara alıram:

1. Məhəmməd Əmin Rəsulzadənin yaxın ailə üzvlərinin sürgün yerindən Azərbaycana qaytarılmasına lazımi şərait yaradılsın, onların sosial-məişət məsələləri diqqətlə araşdırılıb həll edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı bu sərəncamdan irəli gələn məsələləri həll etsin."

* * *

1993-cü il Novruz bayramı ərəfəsində Azərbaycan prezidenti Əbülfəz Elçibəy M. Ə. Rəsulzadənin Bakıda yaşayan yaxın qohumlarının xüsusi sərnişin təyyarəsi ilə Türkiyəyə səfərini təşkil etdi. M.Ə.Rəsulzadənin nəvələri Füruzə və Rəis babalarının qəbri önünə qızılgüllər düzdülər... Azər isə xəstə yatağında yatırdı. Respublika Prezidentinin göstərişi əsasında o, Səhiyyə Nazirliyinin 4-cü idarəsinin xəstəxanasında müalicə olunurdu.

İşıqlı ümidlərlə yaşayan Azərin iyun günləri gözlənilməz oldu, dünya başına hərləndi. Televiziya ekranında Ali Sovetin iclaslarına baxanda, öz-özünə dedi: "1989-cu ildək ailəmizə bəraət verməyənlər hakimiyyətə gəlirlər, onlar atamın yolu ilə getməyəcəklər".

Elçibəy Kələkidə olanda, Azər də artıq Karaqandada idi.

1993-cü il iyul ayının 8-dən 9-na keçən gecə Azər Rəsulzadənin keşməkeşli ömrünün təzadlarından yorulmuş ürəyi qəflətən dayandı. Son nəfəsində atasının yanında olmuş Rəis deyirdi ki, Azər də atası Məhəmməd Əmin kimi "Azərbaycan, Azərbaycan, Azərbaycan!" deyə, gözlərini yumdu. Başqa sözlə, himnimizi oxudu. . .

1993-cü il iyulun 11-də Yeni Yasamaldan Novxanıya yol

alan qəm karvanı doğmaları, qohumları, ziyalıları, sadə adamları bir yerə toplamışdı. Əbülfəz Elçibəy Kələkidən mərhumun ailəsinə başsağlığı teleqramı göndərmişdi. Azərbaycanın dövlət katibi Lalə Şövkət isə dəfn mərasimində əvvəldən axıradək iştirak etdi...

* * *

... 1994-cü il yanvarın 29-da mərhumun oğlu Rəis Rəsulzadə aşağıdakı məktubu Bakı Şəhər İcra Hakimiyyətinə göndərdi:

"Mən, M.Ə.Rəsulzadənin nəvəsi, atam və nənəmgil sürgündə olarkən Qazaxıstanda anadan olmuş, 50-ci illərin ortalarında təhsilimi davam etdirmək üçün rəsmi icazə almadan Bakıya qayıtmışam. Atam ömrünün 54 ilini Vətən həsrətilə uzaqlarda yaşamış, ən böyük arzusu bu olmuşdur ki, nə vaxtsa doğma Bakısına qayıda bilsin. 1989-cu ildə bu arzusuna çata bilərdi. Çünki həmin ildə M. Ə. Rəsulzadə nəslinə bəraət verildi və bu nəslin sağ qalmış nümayəndəsi kimi o da qorxusuz-hürküsüz Bakıya qayıda bilər, heç olmasa, ömrünün sonunu burada keçirə bilərdi. Ancaq çox təəssüf ki, onun bu arzusu iki səbəbə görə yerinə yetmədi. Birinci səbəb budur ki, hamı sözdə ona hörmət göstərib canla-başla qəbul edəcəklərini söyləsələr də, işdə Bakıda yaşaması üçün heç bir şərait yaratmadılar, yəni bir balaca mənzil vermədilər. Doğrudur, mən iki-üç il çalışdıqdan sonra mikrorayonlardan birində ona panel evdə mənzil vermək istədilər. Atam xəstə olduğu üçün buna razı olmadı. O, tez-tez təngənəfəs olurdu, özünün dediyinə görə, panel evdə nəfəs almaq çox çətindi. Rəhmətlik istəyirdi ki, ömrünün sonunu Bakının Əzizbəyov küçəsindəki 9-11 nömrəli evdə, ata-anasının yaşadığı, özünün anadan olduğu, ömrünün uşaqlıq və yeniyetmə dövrünü keçirdiyi doğma evdə keçirsin və öləndə cənazəsi həmin yerdən götürülsün.

İkinci səbəb budur ki, Azər 54 il soyuq Qazaxıstanda

yaşadığından oranın iqliminə alışmışdı, yay aylarında Bakının istisinə dözə bilmirdi, ümid edirdi ki, Bakıya qayıdanda ona ya Novxanıdakı ata-baba yurdlarını, bağlarını qaytarar, ya da onun əvəzinə başqa bir bağ verərlər. Yenə çox təəssüf ki, nə istədiyi doğma evini, nə də bağı ala bilmədi.

Son illərdə M. Ə. Rəsulzadənin yaşadığı həmin binada ev-muzey düzəldilməsindən də söz gedirdi. Bunun üçün həmin binada yaşayan bir qonşunu oradan köçürmək, mənzili yaxşı təmir etmək lazımdı. Mənim səyimin nəticəsində həmin mənzilin boşaldılması barədə sərəncam verildi, ancaq təmirini heç kəs boynuna götürmədi. Mən Bakı İcra Hakimiyyətinə gedib-gəlməkdən yoruldum. Onu demək kifayətdir ki, bu dövrdə üç icra hakimiyyəti başçısı bir-birini əvəz etmiş, ancaq evin təmiri hələ də bir nöqtədə dayanıb durmaqdadır.

Atam keçən ilin iyul ayında dünyadan Vətən həsrətilə köçdü. Onun özünü yox, cənazəsini, ruhunu Bakıya qaytara bildik. Onun arzularından təkcə biri – öləndə Vətən torpağında basdırılması həyata keçdi.

Mənim Sizdən xahişim aşağıdakılardır:

1. Babamın yaşadığı həmin evi özünə, adına layiq bir şəkildə təmir edib ev-muzeyi təşkil etmək. Bu iş həm də ona görə vacibdir ki, Bakıya gələn xarici qonaqlar, xüsusən Türkiyədən gələn qonaqlar Bakıda, onun doğma Vətənində böyük istiqlal carçısının bir nişanəsini axtarırlar, ancaq heç nə tapa bilmirlər.

2. Bakıya gələn qonaqlar şəhərdə ondan qalan bir yadigar tapmadıqda Novxanıya gedir, Məhəmməd Əmin Rəsulzadə ailəsinin yeganə nişangahının – atasının, indi isə oğlu Azərin çox sadə qəbirlərini (Azərin qəbrinin üstü hələ də götürülməmişdir) ziyarət edirlər. Hazırda Novxanı kəndinin uşaq bağçası yerləşən ata-baba evinə baş çəkirlər. Mən istərdim ki,

milli azadlığımızın bayram edildiyi günə – mayın 28-nə kimi ulu babamın və atamın qəbirləri olan yerdə abadlıq işləri aparılsın ki, gələn qonaqlardan xəcalət çəkməyək.

3. Novxanıdakı ata-baba bağımızda qalmaq, keçmiş günləri yada salmaq atam Azərə nəsib olmadı. Qoy heç olmasa onun övladlarına orada yaşamaq nəsib olsun. Əgər bu mümkün deyilsə, əvəzinə Novxanıda içərisində yaşamaq üçün bir balaca evi olan başqa bir bağ sahəsi verilsin.

Belə bilirəm, bu xahişlərimə əməl olunsa, həm atamın, həm də babamın ruhu şad olar."

Lakin həmin məktuba bu günədək cavab verən olmayıb...

"Tele-həftə" qəzeti,
may-iyun, 2003

QƏLBLƏRDƏ YAŞAYAN ŞƏXSIYYƏT

Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin yaradıcısı, ulu öndər Məhəmməd Əmin Rəsulzadənin vəfatından 53 il keçdi. Keçmiş sovet dövründə bu böyük şəxsiyyəti ləkələməyə cəhd göstərilsə də, Azərbaycan xalqı həmişə onun xatirəsini əziz tutmuş, ideyalarını yaşatmışdır. Əlbəttə, sovet rejiminin ulu öndərə münasibətini başa düşmək olardı. Amma, əfsuslar olsun ki, Azərbaycan müstəqillik qazanandan sonra da səlahiyyət sahiblərinin münasibəti köklü şəkildə dəyişmədi. Əksinə, yenə də ona qara yaxmağa çalışanlar tapıldı. Bununla belə, Rəsulzadə elə bir zirvədədir ki, həmin zirvə bütün naqisliklər üçün əlçatmazdır. Şair-publisist, M.Ə.Rəsulzadə ilə bağlı bir neçə kitabın müəllifi Teyyub Qurbanla söhbətimizə elə ulu öndərə göstərilən münasibətdən başladıq.

– Teyyub müəllim, Məhəmməd Əmin Rəsulzadənin ruhuna lazımınca ehtiram göstərilirmi? Dövlətə, dövlətçiliyə verdiyi töhfələr qiymətləndirilirmi?

– Əvvəla onu deyim ki, Müsavat dərgilərində də, bugünkü mətbuatda da AXC-nin yaradıcısının adı çox vaxt səhvən Məmməd Əmin kimi yazılır. Amma bu ad "Mamed" adının tərcüməsi kimi səslənir. Məhəmməd isə, bildiyimiz kimi, Məhəmməd Peyğəmbərin adıdır. O zamanlar Azərbaycanda, xüsusilə Bakı kəndlərində 1920-ci ilə qədər Məmməd adı olmayıb. Bizim soydaşlarımız övladlarına Məhəmməd adı qoyublar. Üstəlik, Rəsulzadənin adı bütün rəsmi sənədlərdə də Məhəmməd kimi yazılıb.

Cümhuriyyətin yaranmasından söhbət düşəndə, bəziləri M.Ə.Rəsulzadəni Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski və başqaları ilə bir sıraya qoyurlar. Mən tamamilə bu fikrin əleyhinəyəm. Bu adamın dövlətçilik tarixindəki rolunu heç bir şəxsiyyətlə müqayisə etmək olmaz.

O ki qaldı Rəsulzadənin ruhuna ehtiram göstərilməsinə və

hansı səviyyədə qiymətləndirilməsinə, fikrimcə, layiq olduğu qiymət verilmir. Əksinə, onun xidmətlərini unutdurmağa çalışırlar. M.Ə.Rəsulzadəni dərk etmək üçün onun cildlərlə əsərlərini oxumaq lazımdır.

Sabiq prezident Ayaz Mütəllibovun fərmanı ilə Kukla teatrı ilə üzbəüz meydanda Rəsulzadənin heykəlinin bünövrəsi qoyuldu. Amma sonra buna mane oldular. Məgər onun heykəli qoyulsaydı, dünya dağılardı? Əgər Konstitusiyamızda "Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" sözləri yazılıbsa, onda zəhmət çəkib sələflərinə qiymət versinlər.

– Yəni M.Ə.Rəsulzadəyə məlum münasibət onun dərk edilməməsiylə bağlıdır, yoxsa başqa səbəblər var?

– Əlbəttə, münasibət məsələsi siyasi məsələdir. Dərk etməyin özü də çox önəmlidir. Rəsulzadənin ideologiyası bəşəri demokratik ideologiyadır. O, mükəmməl dərəcədə savadlı bir insan idi. Qurani-Kərimi yaxşı bilirdi. Ərəb və fars dillərinə erkən yaşalrında yiyələnmişdi. Rus dilini mükəmməl öyrənmişdi. Həm də elə bir şəkildə ki, 14 yaşında Maksim Qorkinin "Ana" romanının böyük bir hissəsini tərcümə etmişdi. 11 dili kamil bilirdi. Azərbaycanda ondan sonra bu qədər dil bilən dövlət xadimi olmayıb. Bu da maraqlıdır ki, Rəsulzadə dünyadan köçəndə "Azərbaycan, Azərbaycan, Azərbaycan" deməklə, əslində, Azərbaycanın himnini oxuyub. Çünki dünyada yeganə himndir ki, başlayanda da, qurtaranda da ölkənin adı üç dəfə təkrar olunur.

– Son vaxtlar Rəsulzadənin dövründə Azərbaycan torpaqlarının bir hissəsinin Ermənistana verilməsi haqda informasiyalar yayıldı. Nə dərəcədə həqiqətə uyğundur?

– Doğrudan da, son vaxtlar ictimai rəyə belə məlumatlar ötürüldü. Amma Rəsulzadənin dövründə Ermənistana torpaq verilməsini iddia etmək, acıq-aşkar qatığa qara deməkdir. Bu, AXC-nin 90 illiyi qarşısında lap yuxarıların uydurduğu

yalandır. Bu yalanın ömrü bir günlük oldu. Arxivlərə yuxarıdan göstəriş verilmişdi ki, M.Ə.Rəsulzadədə, onun qurduğu Xalq Cümhuriyyətində azacıq da olsa səhv tapsınlar, yanlışlıq ortaya çıxarsınlar. Tapa bilmədilər. Heç tapa da bilməzlər.

Bilirsiniz, indi AXC haqda materialları bütün arxivlərdən tapmaq mümkündür. Məsələ bundadır ki, söhbət 1918-ci ilin may ayına qədər olan dövrdən gedir. Məgər o vaxt Azərbaycan dövləti varıydımı ki, Rəsulzadə də torpaqları hədiyyə eləsin? M.Ə. daşnakları Azərbaycan xalqının qarı düşməni adlandırırdı. Bunlar hamısı uydurmadır. Zaqafqaziya seymi dağılandan sonra Azərbaycan, Ermənistan və Gürcüstan respublikaları quruldu. O vaxt Azərbaycanın öz paytaxtı belə yox idi. O, müstəqil Azərbaycan uğrunda həmişə mübarizə aparıb. Bundan sonra çətin ki, əqidə cəhətdən biz ondan üz döndərib yeni bir ideologiya yarada bilək. Bizim ideologiyamız var. Onun da əsasını Rəsulzadə qoyub.

– M.Ə.Rəsulzadə və qurduğu cümhuriyyət haqda kifayət qədər nəşrlər var. Bəs sizin ərsəyə gətirdiyiniz "Dirilik gəmisi" adlı kitabınızda yenilik nədən ibarətdir?

– Mən bu kitab üzərində uzun illərdi ki, işləyirdim. Orda Rəsulzadə haqqında "Azərbaycan" adlı 27 şəkildən ibarət pyesim var. Mənə elə gəlir ki, bu pyes nə vaxtsa səhnəyə qoyula bilər. Onun səhnəyə qoyulması xalqa xeyirdir. Kitabda şeirlərim toplanıb. Orda eyni zamanda mənim 1989-cu ildə Karaqandaya səfərim və həmin səfər zamanı Rəsulzadənin oğlu Azərlə söhbətlərim də yer alıb. Əfsuslar olsun ki, Azər Bakıya qayıtsa da, burda heç olmasa atasının mülkündə ona yer vermədilər. Ona görə də, yenidən Karaqandaya qayıtmağa məcbur oldu və elə orda da rəhmətə getdi. Kitabda mənim bu barədə müsahibəm də var. Mənə elə gəlir ki, bu kitab Rəsulzadənin bostanına daş atanlar üçün tutarlı cavab olacaq. Ayaz Mütəllibovun dövründə Məhəmməd Əminin kitabları çap olundu. Amma əfsuslar olsun ki, AXC-nin 90 illiyi ərəfəsində

onun bir dənə də olsun kitabı latın qrafikası ilə çap edilmədi.

– Bəs "Yaşayan ömür" kitabınız hansı zərurətdən yarandı?

– Əvvəlcə onu qeyd edim ki, hər iki kitabın təqdimat mərasimi eyni vaxtda keçirilib. Bu isə heç də təsadüfi deyil. AXC 23 ay yaşadı. Onu dünyanın 23 ölkəsi tanıdı. AXC-nin yaşamasının və qurulmasının ən böyük sütunu Hacı Zeynalabdin olub. O vaxt sərhədlər bağlı idi. Azərbaycanın heç yerə çıxışı yox idi. Belə çətin vəziyyətdə Tağıyevin tikdirdiyi müəssisələr köməyimizə gəldi. Hacı Zeynalabdinlə Məhəmməd Əmin Rəsulzadə AXC-nin iki sarsılmaz sütunu idilər. İqtisadi müstəqilliyi H.Z.Tağıyev, siyasi müstəqilliyi isə M.Ə.Rəsulzadə qurmuşdu. "Yaşayan ömür" məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin anadan olmasının 185 illiyinə həsr olunub. İki hissəli bu mənzum pyesi kitab halında oxucuları təqdim etməklə öz borcumun müəyyən hissəsindən çıxmağa çalışdım.

"Nəbz" qəzeti,
8 mart 2008-ci il



Müəllif və Azər Rəsulzadə.
Karaqanda, 18 dekabr 1989-cu il

Şair, yazıçı, dramaturq və tədqiqatçı Teyyub Qurban 1934-cü il dekabrın 18-də Bakının Bülbülə kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Universitetin komsomol komitəsinin katibi, Respublika Xalq Nəzarəti Komitəsinin məsul işçisi, Suraxanı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifələrində işləmişdir.

Yaradıcılığa 1950-ci ildən başlayan T.Qurban "Mənim gəncliyim", "Unudulmayan", "Yanğı", "El yolu", "Gözəllik yarışı", "Ömrün gənclik yazı", "Dönməzlik", "Sara", "Məcra", "Müqəddəs məkanda Qüdsümüz vardır", "Düşmənlərindən güclü şəxsiyyət", "Həqiqət olduğu kimi", "Ömür yolları", "Gündəlikdən sətirlər", "Qapına gəlməyəcəyəm" və s. kitabların müəllifidir.

2002-ci ildə "Yaşıl rəngin işığı" kitabına görə Beynəlxalq Rəsul Rza Mükafatına layıq görülmüşdür.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası 2009-cu ildə "Teyyub Qurban. Biblioqrafiya" kitabını çap etmişdir.

ISBN 978-9952-484-87-8